# Salam olsun İbrahimə!

**Məzarsız pəhləvan Şəhid İbrahim Hadinin həyat və xatirələri**

**Birinci cild**

**Yaxşılıqlar elçisi, peyğəmbərlər fəxri və Zəhra atası Məhəmməd Mustafaya (s) təqdim olunur!**

بسم الله الرحمن الرحيم

**Kitabın adı:......... Salam olsun İbrahimə!**
**Tərcümə edən:.............Zəhra Hüseynzadə**
**Çap tarixi:............................................2018**
**Çap növbəsi:.....................................Birinci**
**Tiraj:....................................................1000**

# *Ön söz*

Qarşınızdakı kitab rəşadətləri və alicənablığı ilə şəhadət məqamına layiq görülmüş qəhrəman bir şəhidin həyat hekayəsidir.

Yeniyetmə və gənclərimiz idman, incəsənət və digər sahələrdə dəyərsiz örnəklərdən nümunə götürür, addımbaşı bir çalanın olduğu, siçan geyimində bir canavarın pusqu qurduğu həyat yollarında çaşbaş qalırlar. Belə bir dövrdə ibrahimlərin həyatı zülmət gecəyə işıq tuta bilər. Çünki mövlamız belə buyurub: "Bu ulduzlarla yolu tapmaq mümkündür".

Vilayət məktəbinin yetirməsi olan İbrahimin özü ixlas, eşq və fədakarlıq müəllimi idi. O, Kövsər camından su içib çoxlu susuzlara saqi oldu. O, nəfsə qalib gəlməyi öyrəndi, amma Purya Vəlidən[1] yox, mövlası Əlidən. O, qəhrəmanlığın portretini öz həyatı ilə təsvir edib yerində ikən bütün aləmi gəzməyin, azadlığın zirvəsində ikən qul olmağın - yalnız həzrət Haqqa qul olmağın mümkünlüyünü göstərdi.

Bəziləri dənizin zahiri gözəlliyindən həzz alırlar, bəziləri suya girib daha çox bəhrələnirlər, bəziləri bununla da kifayətlənməyib dərinliklərə gedir, suyun altındakı daş-qayalar arasından sədəf və mirvari çıxarırlar.

Və hələ dənizin altında o qədər mirvarilər var ki, onlara heç bir dalğıc əli dəyməyib.

Allah-Taala hərdən bu ləl-cəvahiratın birini bizə göstərir və biz bu tükənməz dəryadan nələr bilmədiyimizi öyrənirik.

---

[1] 1943-cü ildə vəfat etmiş məşhur pəhləvan və sufi

Biz nə etmişik və ya nə edəcəyik? Səma sakinlərinin qibtə etdiyi bu torpaq sakinlərini örnək seçmişikmi? Yoxsa Allah eləməmiş, Adəm nəslindən bir naxələfi, gözəl və qəhrəman görkəmə bürünüb başqa bir din və diyardan gələn, media dalğaları üzərində gənc və yeniyetmələrimizə hücum edən insanlarımı örnək seçmişik?

Bizim gənclərimiz pakdırlar, amma nəfs bütlərini qırmaq üçün onlara balta verəcək bir İbrahimə ehtiyacları var. Biz Şəhid İbrahim Hadini tanıtdırmaqla bu yolda bir addım atmaq istəyirik.

Uzun illər ötəndən sonra onun özü kimi adsız-sansız dostlarının xatirələrini toplamaq çox çətin olsa da, şirazlı şairin dediyi kimi, Leyliyə gedən təhlükəli yolların birinci şərti Məcnun olmaqdır.

Allahın lütfü sayəsində bu əziz şəhidin dostları və ailəsi ilə onlarla müsahibə baş tutdu. Artıq bu sakit arifin, güclü aşiqin, qayğıkeş müəllimin, müsəlman gəncin, qeyrətli, amma iddiasız qəhrəmanın, İmam Mehdinin (ə) həqiqi müntəzirinin qızıl kitabı hazırdır və siz əziz oxuculara təqdim olunur.

Sonda kitabın ərsəyə gəlməsində əməyi keçmiş hər kəsə təşəkkürümüzü bildiririk.

Karvan getdi, sən yatıb qaldın, qarşıda isə səhra var.

Nə vaxt gedəcəksən? Yolu kimdən soruşacaqsan? Nə edəcəksən?

# *Nə üçün İbrahim Hadi?*

2007-ci ilin yayı idi. Tehranın Əminüddövlə məscidində şam namazımı qılırdım. Orada qəribə ab-hava vardı. Namaz qılanların hamısı din alimləri və ruhanilər idi. Mən ikinci sıranın sağ tərəfində axırda dayanmışdım.

Şam namazından sonra ətrafıma baxanda hər tərəfdə su gördüm. Məscid dənizin ortasındakı bir ada kimi olmuşdu.

Namaza başına ağ əmmamə qoymuş nurani bir qoca imamlıq edirdi. O, yerindən qalxıb üzünü camaata çevirdi və danışmağa başladı. Yanımdakı qocadan soruşdum: "İmamı tanıyırsan?"

– Hacı Şeyx Məhəmməd Hüseyn Zahiddir, Hacı ağa Həqşünasın və Hacı ağa Müctəhidinin müəllimi.

Şeyx Hüseyn Zahidin mənəvi məqamı barədə çox eşitdiyimdən diqqətlə qulaq asmağa başladım.

Məsciddə qəribə sükut vardı. Hamı ona baxırdı. O, irfan və əxlaq mövzusunda danışandan sonra buyurdu: "Dostlar, yoldaşlar! Camaat bizi irfan və əxlaqda böyük adam zənn edir, amma əzizlər, əməli irfan və əxlaq böyükləri bunlardır".

Sonra yerdən böyük bir şəkil götürdü. Yaxşı görməkdən ötrü bir qədər boylandım. Əyninə qəhvəyi köynək geyinmiş uzun saqqallı bir adamın fotosu idi.

Şəkilə diqqətlə baxıb tanıdım. Mən onu dəfələrlə görmüşdüm. Əmin idim ki, odur - İbrahim Hadi.

Onun sözləri mənə çox maraqlı gəldi. Çoxlu din aliminin irfan və əxlaq müəllimi olmuş Şeyx Hüseyn Zahid görəsən, nə üçün belə danışırdı?! O, İbrahimi əməli əxlaq müəllimi adlandırırdı.

Bu halda öz-özümə düşündüm: Axı Şeyx Hüseyn Zahid illər öncə dünyasını dəyişib!

Həyəcanla yuxudan diksindim. Gecə saat 3 idi: 2007-ci il, 27 rəcəb - həzrət Peyğəmbərin (s) məbəs[1] günü.

Bu sadiq röya vücudumu silkələdi. Tez bir kağız götürüb görüb-eşitdiklərimi yazdım.

Daha gözlərimə yuxu getmədi, İbrahim Hadi haqda eşitdiyim xatirələr bir-bir yadıma düşdü.

***

Yadımdadır, 1994-cü ilin ramazan ayının son gecəsində Şəhidlər məscidində idim. Qədim cəbhə uşaqları ilə birgə Şəhid İbrahim Hadigilə getdik.

Şəhidin anasının yas məclisi idi. Evləri Şəhid Müvafiq küçəsindəki məscidin arxasında yerləşirdi.

Hacı Hüseyn Allahkərəm Şəhid Hadi haqda danışmağa başladı. Onun xatirələri maraqlı idi. Mən o zamana qədər heç kim barədə belə sözlər eşitməmişdim.

Həmin axşam Allahın lütfü mənə şamil oldu. Mən müharibəni görməmişdim. O, şəhid olanda cəmi yeddi yaşım vardı. Ancaq Allahın istəyi ilə həmin məclisdə iştirak edib xalis bəndələrindən birini tanıya bildim.

O söhbətlər illərlə məni düşündürdü. İnana bilmirdim ki, bir döyüşçü bu qədər qəhrəmanlıq etmiş və bu həddə tanınmaz qalmışdır.

Daha maraqlısı odur ki, özü Allahdan tanınmaz qalmasını istəyibmiş. İllər ötsə də, hələ cəsədi tapılmamış və barəsində heç nə yazılmamışdı.

Və mən bütün dərslərdə uşaqlara ondan danışırdım.

***

Hələ sübh azanına qədər vaxt var idi. Yuxum da qaçmışdı. Bilmək istəyirdim ki, Şeyx Zahid nə üçün İbrahimi əməli əxlaq nümunəsi kimi təqdim etdi. Ertəsi

---

[1] Həzrət Məhəmmədə (s) peyğəmbərlik verilən gün

gün İbn Babuyə məzarlığına Şeyx Hüseyn Zahidin qəbri üstə getdim. Üzünü görəndən sonra yuxumun doğruluğuna tam əmin oldum.

Artıq şübhəm qalmadı ki, arifləri dağlarda və xanəgahlarda axtarmaq lazım deyil, onlar bizim yanımızda, bizim aramızdadırlar.

Həmin gün Şəhid Hadinin yoldaşlarından birini görüb yaxın dostlarının ünvanlarını və telefon nömrələrini aldım. İbrahimi daha yaxından tanımaq qərarına gəlmişdim. Allahdan da yardım istəyirdim.

Bəlkə bu, Həzrət Haqqın Öz ixlaslı bəndələrini tanıtmaq üçün üzərimizə qoyduğu vəzifə idi.

## *Həyatı*

İbrahim 21.04.1957 tarixində Tehranın Xorasan meydanının yaxınlığındakı Şəhid Ayətullah Səidi məhəlləsində dünyaya göz açıb.

Ailənin dördüncü övladı olsa da, atası onu çox sevirdi. Məşədi Məhəmmədhüseyn kiçik ərzaq dükanı işlədib övladlarını ən yaxşı şəkildə tərbiyə edə bilmişdi.

İbrahim yetim qalanda isə hələ yeniyetmə idi. Və o zamandan böyük kişilər kimi həyatına davam etdi.

İbtidai siniflərini Taliqani məktəbində oxudu, sonra isə Əbu Reyhan və Kərim xan Zənd məktəblərində təhsilini davam etdirdi.

O, 1976-cı ildə orta təhsilini bitirdi və elə o zamandan əlavə mütaliələrə başladı.

İslam birliyi heyətində iştirakı və Əllamə Məhəmmədtəqi Cəfəri kimi bir müəlliminin olması onun şəxsiyyətinin formalaşmasında çox böyük rol oynadı.

O, inqilabın qələbəsi üçün böyük rəşadətlər göstərmişdi.

İbrahim təhsillə yanaşı Tehran bazarında da çalışırdı. İnqilabdan sonra Bədən Tərbiyəsi Komitəsində, daha sonra isə məktəbdə işləməyə başladı. O, fədakar bir müəllim kimi vətən övladlarını yetişdirirdi.

O, idmançı idi, klassik idman növü olan pəhləvanlıqla məşğul olurdu. Voleybolda da misli yox idi. Ümumiyyətlə, heç bir sahədə geri çəkilmir, mərdliklə çıxış edirdi.

Onun mərdliyini Bazideraz və Gilanqərbin hündür təpələrindən tutmuş cənubun yandırıcı səhralarına qədər hər yerdə müşahidə etmək mümkündür.

Onun qəhrəmanlıqları qədim cəbhə dostlarının yadından çıxmır.

Vəlfəcr-hazırlıq əməliyyatında Kumeyl və Hənzələ batalyonlarının uşaqları ilə birgə beş gün Fəkkə kanallarında müqavimət göstərdi, amma təslim olmadı.

Nəhayət, 1983-cü ilin 11 fevralında bütün uşaqları geri yollayandan sonra Allahla tək-tənha qaldı və daha heç kim onu görmədi. O, həmişə Allahdan tanınmaz qalmasını istəyirdi. Çünki tanınmazlıq Allahın sevimli dostlarının xüsusiyyətidir.

Allah da onun duasını qəbul etdi. İbrahim illərdir tanınmaz və qərib halda Fəkkədə qalıb cəbhə bölgələrinin ziyarətçilərinə günəş kimi işıq saçır.

# *Ata məhəbbəti*

**Rza Hadi**

Tehranın Xorasan meydanının yaxınlığında kirayəyə götürdüyümüz kiçik bir evdə yaşayırdıq. 1957-ci il, aprelin sonları idi. Atam bir neçə gün idi çox sevinirdi. Allah ona bir oğul nəsib etmişdi. O, tez-tez Allaha şükür edirdi.

O vaxt evdə üç oğul və bir qız olsaq da, atam yeni doğulmuş bu uşağa görə çox sevinirdi. Bu, təbii idi. O, çox şirin uşaq idi.

Atamız ona dözümlülük timsalı, tövhid və təvəkkül qəhrəmanı olan bir peyğəmbərin adını verdi: İbrahim. Bu ad ona həqiqətən, yaraşır.

Dost və qohumlar onu görəndə təəccüblə deyirdilər: "Hüseyn ağa, sənin başqa üç uşağın da var, bu oğlana görə nə üçün bu qədər sevinirsən?"

Atam xüsusi inamla cavab verirdi: "Bu oğlanda qəribəlik var. Mən əminəm ki, İbrahimim Allaha yaxşı bəndə olacaq və mənim adımı da yaşadacaq".

Doğru deyirdi. Ondan sonra Allah bizim ailəmizə daha bir oğul və bir qız bağışlasa da, atamın İbrahimə sevgisi azalmadı.

***

İbrahim orta məktəbi Ziba xiyabanında yerləşən Taliqani ibtidai məktəbində oxudu. Onun xüsusi xarakterləri vardı. İbtidai məktəbdə də namazını tərk etmirdi.

Orada oxuyarkən bir dəfə dostuna belə demişdi: "Mənim atam çox yaxşı adamdır. İndiyə qədər bir neçə dəfə İmam Mehdini (ə) yuxuda görüb. Kərbəlanı ziyarət

etməyi çox arzulayanda isə həzrət Əbəlfəzli yuxuda görüb; yanına gəlib onunla danışıb".

Dördüncü sinifdə oxuyanda dostlarına demişdi: "Atam deyir ki, şahın sürgünə göndərdiyi ağa Xomeyni çox yaxşı adamdır. Atam deyir ki, hamımız onun sözlərinə qulaq asmalıyıq. Onun sözləri İmam Mehdinin (ə) əmrlərinə bənzəyir”.

Dostları ona demişdilər: "İbrahim, daha belə danışma, direktor bilsə, səni məktəbdən qovar".

Bu sözlər İbrahimin dostlarına qəribə gəlirdi, amma o, atasına çox inanırdı.

# *Halal ruzi*

## Şəhidin bacısı

Böyük Peyğəmbərimiz buyurur: "Yaxşı adam olmaq üçün övladlarınıza yardım edin, çünki insan istəsə, itaətsizliyi övladından uzaqlaşdıra bilər".[1]

Atamız İbrahimi və digər uşaqlarını düzgün tərbiyə etmək işində əsla səhlənkarlıq etmirdi. O, çox təqvalı bir insan idi: məscidə gedirdi, halal ruziyə çox əhəmiyyətli yanaşırdı. O, Peyğəmbərimizin belə buyurduğunu bilirdi: "İbadət on qisimdir ki, doqquzu halal ruzi qazanmaqdır".[2]

Buna görə də, bəzi quldurlar onu incidib ozamankı Əmiriyyə məhəlləsində halal ruzi qazanmağa qoymayanda atasından miras qalmış dükanı satıb şəkər zavodunda işləməyə getdi.

Orada səhərdən axşama qədər sobanın önündə dayanıb fəhləlik edirdi. Həmin ərəfədə kiçik bir ev aldı.

İbrahim dəfələrlə deyirmiş: "Atamın yaxşı övladlar tərbiyə etməsinin səbəbi halal ruzi üçün çəkdiyi əziyyətlərdir".

Öz uşaqlığını xatırlayanda da deyərmiş: “Atam mənə Quran əzbərlətdirir, məni həmişə özü ilə məscidə aparırdı. Biz çox vaxt Sərçeşmə dördyolunun aşağısındakı Ayətullah Nuri məscidinə gedirdik. Orada həzrət Əli Əsğər heyəti vardı. Atam o heyətdə xidmət edirdi”.

Yadımdadır, üçüncü-dördüncü sinifdə oxuyanda atam İbrahimə hirslənib dedi: "İbrahim, çıx bayıra, axşama qədər də gəlmə".

---

[1] "Nəhcül-fəsahə", hədis: 379.
[2] "Bihar əl-ənvar", c. 103, s. 7.

İbrahim axşama qədər evə gəlmədi. Hamımız onun günorta ac qalmasından ötrü narahat idik, amma heç kim atamın sözünün üstünə bir söz demədi. İbrahim axşam qayıtdı, hörmətlə hamıya salam verdi. Tez soruşdum: "Günortaya nə yedin, dadaş?" Atam hələ də özünü hirsli göstərsə də, İbrahimin cavabını gözləyirdi.

İbrahim çox sakitcə dedi: "Küçədə bir qoca qadın gördüm. Bazardan gəlirdi, çox şey almışdı, amma evinə apara bilmirdi. Gedib ona kömək etdim, əşyalarını evinə apardım. Qadın da çox təşəkkür etdi və mənə bir beşriallıq verdi. Almaq istəmirdim, amma çox israr etdi. Mən də əmin idim ki, bu pul halaldır, çünki onun üçün zəhmət çəkmişdim. Günorta həmin pulla çörək alıb yedim".

Atam əhvalatı eşidib təbəssüm etdi. Sevinirdi ki, oğlu atasının dərsini yaxşı öyrənib və halal ruziyə əhəmiyyətli yanaşır.

Atamın İbrahimə məhəbbəti ata-oğul əlaqəsindən üstün idi. Onların arasında qəribə sevgi vardı və bu, İbrahimin şəxsiyyətinin inkişafında özünü göstərdi. Lakin bu münasibət çox çəkmədi.

İbrahim hələ yeniyetmə olanda atasını itirdi, qəmli bir qürub çağı ağır yetimlik kölgəsi başının üstünü aldı. Ondan sonra isə kişi həyatına davam etdi. Həmin illərdə çoxlu dost-tanış ona idmanla məşğul olmasını tövsiyə edirdi. O da bu yolu seçdi.

# *Zorxana*

**Şəhidin dostları**

İbrahim doqquzuncu sinifdə oxuyanda zorxana idmanı ilə tanış oldu. O, axşamlar Hacı Həsənin zorxanasına gedirdi.

Nəccar ləqəbli Hacı Həsən Təvəkkül çox mənəviyyatlı insan idi, Əbu Reyhan liseyinin yaxınlığında bir zorxanası vardı. Onun fiziki və mənəvi mərkəzinin idmançılarından biri də İbrahim idi.

Hacı Həsən idmana başlamazdan öncə bir və ya bir neçə Quran ayəsi oxuyur, sonra da bir hədis deyib tərcümə edirdi. O, çox vaxt İbrahimi meydançaya göndərirdi. İbrahim idman hərəkətləri ilə bir Quran surəsi, "Təvəssül" duası və ya Əhli-beyt haqda şeir oxuyur və mürşidə kömək edirdi.

İdmanın ortasında şam azanı verilirdi. Uşaqlar idmanı saxlayıb zorxana meydançasının içində Hacı Həsənin imamlığı ilə camaat namazı qılırdılar.

Hacı Həsən bununla inqilabdan öncə idmanla yanaşı gənclərə iman və əxlaq dərsi də öyrədirdi.

Yadımdadır, bir dəfə uşaqlar paltarlarını geyinir və bir-biri ilə sağollaşırdılar. Birdən bir kişi qucağında uşaq tələsik içəri girdi. Rəngi qaçmışdı və səsi titrəyirdi.

- Hacı Həsən, mənə kömək elə. Uşağım xəstədir. Həkimlər heç bir şey edə bilmədilər. Uşaq əldən gedir. Sizin nəfəsiniz pakdır. Siz Allah, dua edin, siz Allah...

Bunları deyib ağlamağa başladı.

İbrahim ayağa qalxıb dedi: “Paltarlarınızı geyinin və meydançaya girin”.

Özü də meydançaya keçdi. Orada uşaqlarla birgə bir idman dövrəsi edib Təvəssül duasını zümzümə elədi, sonra

da uşaq üçün ürəkdən dua etdi. Həmin kişi də uşağı ilə bir tərəfdə oturub ağlayırdı.

İki həftədən sonra Hacı Həsən idmandan sonra dedi: "Uşaqlar, cümə günü nahara dəvətlisiniz". Təəccüblə soruşduq ki, haraya?

– Xəstə uşağın atası hamınızı dəvət edib. Allaha şükür, uşağın problemi aradan qalxıb. Həkim deyib ki, uşağın sağalıb.

Dönüb İbrahimə baxdım. Heç nə eşitməmiş kimi getməyə hazırlaşırdı. Mən əmin idim ki, İbrahimin ürəkdən oxuduğu Təvəssül duası bəhrəsini vermişdi.

***

İbrahimin görkəmcə dindar olmayan və dini məsələlərlə maraqlanmayan uşaqlarla yoldaşlıq etdiyini dəfələrlə görmüşdüm. Onları idmana cəlb edir, tədricən məscidə və heyətə aparırdı.

Belə uşaqların biri digərlərindən çox pis idi, həmişə araq içməyindən və pis işlərindən danışırdı. Din barədə heç nə bilmirdi, namaza, oruca – heç nəyə əhəmiyyət vermirdi. Hətta deyirdi ki, indiyə qədər heç bir dini məclisə getməmişəm. Bir dəfə dedim ki, ağa İbrahim, bunlar kimdir özünlə gətirirsən?! Təəccüblə soruşdu: "Nə olub ki?!"

- Dünən axşam bu oğlan sənin arxanca məclisə girdi və mənim yanımda oturdu. Hacı ağa İmam Hüseynin (ə) məzlumluğundan, Yezidin zülmündən danışanda hirslə qulaq asırdı. İşıqlar söndürüləndə isə ağlamaq əvəzinə Yezidə pis söyüşlər verməyə başladı.

İbrahim təəccüblə qulaq asırdı. Birdən gülməyə başladı.

- Eybi yoxdur, bu oğlan indiyə qədər əzadarlıqda olmayıb, ağlamayıb. Əmin ol ki, İmam Hüseynlə (ə)

dostlaşandan sonra dəyişəcək. Biz bu uşaqları dinə gətirsək, böyük iş görmüş olarıq.

İbrahimin həmin oğlanla dostluğu elə bir həddə çatdı ki, o, bütün yanlış işlərini kənara qoyub yaxşı idmançılardan birinə çevrildi. Bir neçə aydan sonra idmandan çıxanda bir qutu şirniyyat paylayıb dedi: "Dostlar, mən sizin hamınıza borcluyam. Mən ağa İbrahimə borcluyam. Allahdan çox razıyam. Sizinlə tanış olmasaydım, Allah bilir, indi haradaydım..."

Biz təəccüblə ona baxırdıq. Uşaqlarla bayıra çıxdıq və yolda İbrahimin işləri haqda danışdıq.

O, çox gözəl şəkildə uşaqları bir-bir idmana cəlb edir, sonra məscidə və əzadarlığa aparıb, özü demiş, İmam Hüseynə (ə) təhvil verirdi.

Peyğəmbərin (s) həzrət Əliyə buyurduğu bir hədis yadıma düşür: "Ey Əli, əgər bir nəfərin hidayətinə vasitəçi olsan, sənin üçün günəşin saçdığı hər şeydən üstündür".[1]

***

Zorxana idmanının adətlərindən biri budur ki, uşaqlar kollektiv şəkildə digər zorxanalara gedib idman edirlər. Ramazan ayında bir axşam biz də Kərəcdəki bir zorxanaya getdik.

O axşam yadımdan çıxmaz. İbrahim şeir və dua oxuyur, idman edirdi. Uzun müddət idi meydançada zorxana hərəkətləri edirdi. Meydançadakı uşaqlar bir neçə dəfə dəyişildilər, İbrahimsə hələ idman edir və heç kimə fikir vermirdi.

Yuxarıda bir kişi oturub uşaqların idmanına baxırdı. O, mənə yaxınlaşdı, İbrahimi göstərib narahat halda dedi: "Ağa, bu cavan kimdir?"

---

[1] "Bihar əl-ənvar", c. 5, s. 28.

– Necə məgər?

– Mən bura gələndə idman edirdi. Təsbehlə onun idmanını saydım. İndiyə qədər 700 dəfə dövrə vurub. Sən Allah, onu yuxarı qaldır, indi özündən gedəcək.

İdman qurtaranda İbrahim əsla yorğun görünmürdü, sanki dörd saat idman etməmişdi.

İbrahim bu işləri güclənmək üçün görür və həmişə deyirdi: "Allaha və Onun bəndələrinə xidmət etmək üçün bədənimiz güclü olmalıdır". O, daim dua edirdi ki, İlahi, Sənə xidmət etmək üçün bədənimi gücləndir.[1]

İbrahim həmin günlərdə özünə bir cüt mil və çox ağır bir səng daşı aldı. Çox dillərə düşmüş və məşhurlaşmışdı. Bir müddətdən sonra isə daha uşaqların yanında belə işlər görmədi. O deyirdi: "Bu işlər insanın lovğalanmasına səbəb olur. Camaat kimin daha güclü olduğuna baxır. Mən digərlərinin önündə ağır idmanlar etsəm, dostlarımın zəif görünməsinə və özümü göstərməmə səbəb olar ki, bu da düzgün deyil".

Ondan sonra miyandar olanda birinin yorulduğunu hiss edən kimi idmanı dəyişdirirdi.

İbrahimin güclü bədəni bir dəfə özünü göstərdi - güləş üzrə dünya çempionu Seyid Hüseyn Təhami zorxanaya gəlib uşaqlarla idman edəndə.

---

[1] Dua Kumeyl duasındandır.

# *Pəhləvan*

**Hüseyn Allahkərəm**

Güləş üzrə dünya çempionu Seyid Hüseyn Təhami Hacı Həsənin xətrini çox istəyirdi. Bir dəfə bizim zorxanaya gəlib uşaqlarla idman elədi. O, bir müddət idi yarışlara çıxmırdı, amma hələ çox güclü bədəni vardı. İdmandan sonra üzünü Hacı Həsənə tutub dedi: "Hacı, mənimlə güləşə bilən kimsə varmı?"

Hacı Həsən uşaqlara baxıb dedi: "İbrahim". Sonra da işarə ilə onun meydançaya girməsini istədi.

Pəhləvan güləşində adətən, yerə yıxılan idmançı uduzur.

Güləş başladı. Hamımız tamaşa edirdik. Uzun müddət güləşdilər, heç biri yerə yıxılmadı. Hər ikisi çox yoruldu, amma heç biri qalib gələ bilmədi. Güləşdən sonra Seyid Hüseyn ucadan deyirdi: "Bərəkallah! Bərəkallah! Necə cəsarətli gəncdir! Maşallah, pəhləvan!"

***

İdman bitmiş, Hacı Həsən gözünü İbrahimin üzünə dikib durmuşdu. İbrahim yaxınlaşıb təəccüblə dedi: "Bir şey olub, hacı?"

Hacı Həsən bir neçə saniyəlik sükutdan sonra dedi: "Qədimdə bu Tehranda Hacı Seyid Həsən Rəzzaz və Hacı Sadiq Büllurfüruş adlı iki pəhləvan vardı. Onlar çox yaxın dost idilər. Güləşdə heç kim onlarla bacarmırdı. Həm də onlar Allahın saleh bəndələri idilər. İdmanı həmişə bir neçə Quran ayəsi və qısa bir rövzə ilə, İmam Hüseyn (ə) əzasında dolmuş gözlərlə başlayardılar. Hacı Məhəmməd Sadiqin və Hacı Seyid Həsənin isti nəfəsləri xəstələrə şəfa verirdi".

Sonra sözünə davam etdi: "İbrahim, mən səni onlara bənzədirəm". İbrahim də gülümsəyib dedi: "Yox, hacı, biz hara, onlar hara?!"

Bəzi uşaqlar Hacı Həsənin İbrahimi belə təriflməsindən narahat oldular.

Ertəsi gün Tehranın zorxanalarından birindən beş pəhləvan gəldi. Qərara gəldik ki, idmandan sonra bizim uşaqlarımızla güləşsinlər. Hacı Həsənin hakimliyini hamı qəbul etdi. İdmandan sonra yarış başlandı.

Dörd güləş yarışı baş tutdu. İkisində bizim uşaqlarımız qalib gəldilər, ikisində onlar. Lakin son güləşdə bir qədər ara qarışdı.

Onlar Hacı Həsənin başına qışqırırdılar. Hacı Həsən də çox narahat olmuşdu.

Növbəti güləş İbrahimlə qonaqların biri arasında olacaqdı. Onlar İbrahimi yaxşı tanıdıqlarına görə uduzacaqlarına əmin idilər. Buna görə aranı qarışdırırdılar ki, uduzsalar, günahı hakimin boynuna atsınlar.

Hamı hirslənmişdi. Bir neçə saniyədən sonra İbrahim meydançaya girdi. Təbəssümlə bütün qonaqlarla görüşdü. Səmimiyyət yenidən ortaya hakim oldu. Sonra dedi ki, mən güləşməyəcəyəm. Hamı təəccüblə bunun səbəbini soruşdu. Bir qədər sükutdan sonra sakitcə dedi: "Bizim dostluğumuzun dəyəri bu işlərdən olduqca böyükdür".

Sonra da Hacı Həsənin əlini öpdü və bir salavatla yarışın bitdiyini elan etdi.

Həmin gün zahirən qalib və məğlub olmadı, lakin əsl qalib İbrahim idi. Geyinib getmək istəyəndə Hacı Həsən hamımızı çağırıb dedi: "Bildiniz ki, nə üçün İbrahimin pəhləvan olduğunu deyirdim?!"

Hamımız susduq. Hacı Həsən sözünə davam etdi: "Baxın, uşaqlar, pəhləvanlıq bu gün gördüyünüzdür.

İbrahim bu gün öz nəfsi ilə güləşdi və qalib gəldi. İbrahim Allaha görə onlarla güləşdən imtina etdi və bununla kin-küdurətin qarşısını aldı. Uşaqlar, pəhləvanlıq gözlərinizlə gördüyünüz bu işdir”.

***

İbrahimin pəhləvanlıq dastanları davam edirdi. Nəhayət, inqilabi proses başlandı. Uşaqların əksəri inqilaba qoşuldu və klassik idmanda iştirakları çox azaldı.

Bir gün İbrahim təklif etdi ki, sübh namazını zorxanada cəm halda qılaq, sonra da idman edək. Hamı qəbul etdi.

Ondan sonra hər gün sübh azanı vaxtı zorxanaya toplaşırdıq. Sübh namazını cəm halda qılıb idmana başlayırdıq, sonra da bir qədər səhər yeməyi yeyib işlərimizin ardınca gedirdik.

İbrahim buna çox sevinirdi. Çünki həm uşaqların idmanı tətil olmurdu, həm də sübh namazını cəm halda qılırdılar.

O, əziz İslam Peyğəmbərinin bu hədisini həmişə oxuyurdu: "Sübh namazını cəm halda qılmaq mənim üçün səhərə qədər oyaq qalıb ibadət etməkdən üstündür".

Müharibə başlayanda zorxananın fəaliyyəti çox zəiflədi. Uşaqların çoxu cəbhələrə yollandı.

İbrahim də Tehrana az gəlirdi. Bir dəfə gələndə öz idman alətlərini apardı və cəbhədə zorxana idmanı təşkil etdi.

Əsl pəhləvan yetişdirməkdə Hacı Həsən Təvəkkülün zorxanası dillər əzbəri olmuşdu. Orada İbrahimdən başqa da Allah dərgahında pəhləvanlıqları isbat olunmuş çoxlu gənclər vardı. Onlar öz qanları ilə imanlarını qorudular.

Hacı Həsənin zorxanasının gözəl və mənəvi dövrü müqəddəs müdafiənin ilk illərində zorxananın mürşidi Şəhid Həsən Şahabinin, Əmmar briqadasının komandiri

Şəhid Əsğər Rəncbəranın, habelə Seyid Salehinin, Məhəmməd Şahrudinin, Əli Xürrəmdilin, Həsən Zahidinin, Seyid Məhəmməd Sübhaninin, Seyid Cavad Məcdpurun, Rzapəndin, Həmdullah Muradinin, Rza Huryarın, Məcid Fəridvəndin, Qasim Kaziminin, İbrahimin və digərlərinin şəhadəti, Hacı Əli Nəsrullahın, Mustafa Hərəndinin, Əli Müqəddəmin əlilliyi və Hacı Həsən Təvəkkülün vəfatı ilə sona çatdı.

Bir müddətdən sonra isə zorxananın yerində yaşayış binası tikildi və bizim klassik idman dövrümüz tarixə qovuşdu.

# *Təkbaşına voleybol*

## Şəhidin dostları

İbrahimin güclü qolları hələ doqquzuncu sinifdən onun bir çox idmanlarda mahir olduğunu göstərdi. O, idman saatlarında həmişə voleybol oynayardı. Heç kim ona bata bilmirdi.

Bir dəfə təkbaşına altınəfərlik bir komandaya qarşı oynadı. Ona topa üç zərbə vurmaq icazəsi verilmişdi.

Bizim hamımız, o cümlədən idman müəllimi onun necə qələbə çaldığını gördük. Ondan sonra İbrahim çox vaxt voleybolu təkbaşına oynayırdı.

Tətil günlərində çox zaman 17 Şəhrivər xiyabanındakı yanğınsöndürmə məntəqəsinin arxasında oynayırdıq. Çoxlu iddialılar gəlir, amma İbrahimə uduzurdular.

İbrahimin ən yaxşı voleybol xatirəsi müharibə dövrünə və Gilanqərb şəhərinə aiddir. Orada bir voleybol meydançası var idi.

Bir gün döyüş zonalarına baş çəkmək üçün Gilanqərbə bir neçə mikroavtobus adam gəldi. Onlara Bədən Tərbiyəsi Komitəsinin sədri ağa Davudi başçılıq edirdi. O, liseydə İbrahimin idman müəllimi olmuşdu və onu yaxşı tanıyırdı.

Ağa Davudi İbrahimə bir qədər idman aləti verib dedi ki, məsləhət bildiyiniz şəkildə istifadə edin. Sonra əlavə etdi: "Bizim dostlarımız müxtəlif idman sahələrindəndirlər və buranı ziyarətə gəliblər".

İbrahim idmançılarla söhbət etdi, onlara şəhərin müxtəlif yerlərini göstərdi. Nəhayət, voleybol meydançasına çatdıq.

Ağa Davudi dedi: "Tehranın voleybol komandasının uşaqlarından bir neçəsi bizimlə gəlib. Bir yarışa nə deyirsiniz?"

Günorta saat 3-də yarış başlandı. Bir tərəfdə üçü peşəkar voleybolçu olan beşnəfərlik bir komanda yarışırdı, digər tərəfdə də İbrahim təkbaşına. Çoxlu tamaşaçı vardı.

İbrahim adəti üzrə ayaqyalın, şalvarının balağını qatlamış halda və alt köynəklə oyuna çıxdı. Elə yaxşı oynadı ki, hamı mat qaldı.

Həmin oyun 10 qol fərqi ilə İbrahimin xeyrinə bitdi. Sonra idmançılar İbrahimlə şəkil çəkdirdilər.

Onlar sadə bir döyüşçünün peşəkar idmançılar kimi oynamasına inanmırdılar.

Bir dəfə Dokuhə qarnizonunda döyüşçülərə İbrahimin voleybol oynamasından danışdım. Uşaqların biri gedib voleybol topu gətirdi, sonra da iki komanda yığıb İbrahimi səslədi.

İbrahim oynamaq istəmirdi, lakin biz israr edəndən sonra dedi: "Onda mən tək oynayacağam".

Oyundan sonra komandirlərin bir neçəsi dedi: “İndiyə qədər bu qədər gülməmişdik. İbrahim hər dəfə zərbə vuranda bir neçə nəfər topa qaçıb bir-birinə dəyir və yıxılırdılar”.

Sonda İbrahim böyük fərqlə qalib gəldi.

## *Mərc oyunu*

**Mehdi Fəridvənd, Səid Saleh**

Deyəsən, 1975-ci il idi. Bir cümə səhəri voleybol oynayırdıq. Tanımadığımız üç nəfər bizə yaxınlaşıb dedi: "Biz Tehranın qərbindənik. İbrahim kimdir?"

Onlar təklif etdilər ki, adambaşına iki yüz tüməndən oynayaq. Bir neçə dəqiqədən sonra oyun başladı. İbrahim tək idi, onlar üç nəfər. Lakin İbrahim uddu.

Həmin gün şəhərin cənub məhəllələrindən birinə gedib 700 tüməndən mərc gəldik. Yaxşı oyun oldu və çox tez udduq. Pulu alanda İbrahim başa düşdü ki, onlar bir-birindən borc alırlar. Birdən dilləndi: "Biri gəlib təkbaşına mənimlə oynasın. Udsa, pul almayacağıq".

Biri yaxınlaşdı və oyun başlandı. İbrahim çox zəif oynadı və rəqibi qalib gəldi.

Hamısı oradan sevinclə ayrıldı. Mənsə çox hirsləndim.

- Ağa İbrahim, niyə belə oynadın?

Təəccüblə baxdı.

- İstədim ki, pərt olmasınlar. Ümumilikdə ciblərində 100 tümən pul yox idi.

Bir həftədən sonra Tehranın qərbindən olan uşaqlar əlavə iki nəfərlə gəldilər. Onlar 500 tüməndən mərc gəldilər. İbrahim şalvarının balağını qatladı, ayaqqabısını çıxarıb oynamağa başladı. Topa elə zərbə vururdu ki, heç kim götürə bilmirdi. İbrahim həmin gün də böyük fərqlə qalib gəldi.

Axşam İbrahimlə birgə məscidə getdik. Namazdan sonra Hacı ağa şəriət hökmlərindən danışarkən oyunda mərcdən və haram puldan söhbət etdi, Peyğəmbərdən belə

bir hədis söylədi: "Haram yolla pul əldə edən adam onu batil yolda və ağır hadisələrdə xərcləyər".[1]

Sonra isə Peyğəmbərdən bu hədisi söylədi: "Haram tikə yeyənin qırx gecə namazı və qırx gün duası qəbul olmaz".[2]

İbrahim təəccüblə dinləyirdi. Sonra birlikdə hacı ağanın yanına getdik. O dedi: "Mən bu gün voleybolda 500 tümən udmuşam". Sonra hadisəni danışıb əlavə etdi: "Əlbəttə, pulu kasıb bir ailəyə bağışladım".

Hacı ağa dedi: "Bundan sonra ehtiyatlı ol; idman elə, amma mərc oyunu oynama".

Növbəti həftə həmin adamlar yenə gəldilər. Bu dəfə daha bir neçə güclü oyunçu gətirmişdilər və 1000 tüməndən oynamaq istəyirdilər. İbrahim onlara dedi: "Mən oynayıram, amma mərclə yox". Onlar İbrahimi mərcə təhrik etməkdən ötrü masqaraya başladılar: "Qorxur, bilir ki, uduzacaq". Başqa birisi dedi: "Pulu yoxdur..."

İbrahim onlara dedi: "Mərc oyunu haramdır. Mən bilsəydim, öncəki həftələrdə də sizinlə oynamazdım. Sizin pullarınızı da yoxsula verdim. İstəyirsinizsə, mərcsiz oynayaq".

Çoxlu danışıqdan və masqaradan sonra oyun baş tutmadı.

***

Bir dostu deyir: "İbrahim bizə çox deyirdi ki, mərc oyunu oynamayaq. Lakin bir dəfə Naziabad məhəlləsinin uşaqları ilə oynayıb çoxlu uduzduq. Oyunun sonlarında İbrahim gəldi. Mərc etdiyimizə görə bizə çox hirsləndi.

---

[1] "Əl-Məvaiz əl-ədədiyyə", s. 25.
[2] "Əl-Hikəm əl-zahirə", c. 1, s. 317.

Digər tərəfdən, uduzduğumuzu vermək üçün o qədər pulumuz yox idi. Oyun bitəndə İbrahim yaxınlaşıb topu götürdü və dedi: "Təkbətək oynayan var?"

Naziabad uşaqlarının arasında milli komandanın bir oyunçusu vardı. Xüsusi qürurla qarşıya çıxıb dedi: "Neçəyə?"

– Əgər uduzsan, bu uşaqlardan pul almayacaqsan.

O da qəbul etdi. İbrahim o qədər yaxşı oynadı ki, hamımız məəttəl qaldıq. O, böyük fərqlə rəqibini məğlub etdi, amma sonra bizi çox danladı".

***

İbrahim voleyboldan əlavə bir çox idman sahələrində də mahir idi. Alpinistlikdə peşəkar idi. İnqilabdan təxminən üç il öncədən inqilaba qədər hər cümə günü səhərlər zorxana uşaqlarından bir neçəsi ilə birgə Təcrişə gedirdi. Sübh namazını İmamzadə Saleh məqbərəsində qılıb qaça-qaça dağa çıxırdılar. Orada səhər yeməyi yeyib qayıdırdılar.

Yadımdadır, İbrahim güləşə hazırlaşır və ayaqlarını gücləndirirdi. O, Dərbənd meydanından uşaqların birini çiyninə atıb əkiz şəlalələrin yanına qədər apardı.

Dərbənd və Küləkçal bölgəsindəki bu alpinistlik inqilabın qələbəsinə qədər davam etdi.

İbrahim futbolu da çox yaxşı oynayırdı. Stolüstü tennisdə də usta idi; ikiəlli oynayırdı və heç kim qarşısına çıxa bilmirdi.

# *Güləş*

**Şəhidin qardaşları**

İbrahim zorxana idmanına başlayandan az sonra dostlarının və Hacı Həsənin tövsiyəsi ilə güləşə də başladı. O, Xorasan meydanının yaxınlığında yerləşən Əbu Müslim klubuna adını yazdırdı və 53 kq. çəki ilə idmana başladı.

Ağa Qudərzi və ağa Məhəmmədi həmin dövrdə İbrahimin müəllimləri idilər. Ağa Məhəmmədi əxlaq və rəftarına görə İbrahimi çox sevirdi. Ağa Qudərzi də güləş fəndlərini ona çox yaxşı şəkildə öyrədirdi.

O həmişə deyirdi: "Bu oğlan çox sakitdir, güləşəndə isə pələng kimi hücum edir, xal almayınca buraxmır". Buna görə İbrahimə Yatmış pələng ləqəbi vermişdi.

O tez-tez deyirdi: “Əmin olun ki, bir gün bu oğlanı beynəlxalq yarışlarda görəcəksiniz”.

İbrahim yetmişinci illərin əvvəllərində yeniyetmələr üzrə Tehran kubokunda iştirak etdi və bütün rəqibləri üzərində qələbə çaldı. Bundan sonra 15 yaşında olmasına baxmayaraq, ölkə çempionatına vəsiqə qazandı.

Yarış oktyabr ayının sonlarında keçirilirdi. Lakin İbrahim yarışda iştirak etmədi. Müəllimləri çox narahat oldular. Sonra öyrəndik ki, yarış şahın vəliəhdinin iştirakı ilə keçirilmiş, mükafatları da o, təqdim etmişdir. İbrahim buna görə yarışdan imtina etmişdi.

Növbəti ildə təhsil mərkəzləri turnirində iştirak etdi və birinci yerə çıxdı. Həmin ildə Tehran şəhəri üzrə yarışda da 62 kq. çəkidə iştirak etdi.

Bir ildən sonrakı yarışlarda səmimi bir dostunun onunla eyni çəkidə, yəni 68 kq.-da yarışdığını bilib, bir sonrakı kateqoriya üzrə, yəni 74 kq. çəkidə yarışa qatıldı.

O yarışda İbrahim çox möhtəşəm çıxış etdi və 18 yaşlı bir gənc 74 kq. üzrə birinci oldu.

İbrahimin ayaqla ilişdirmə fəndində xüsusi məharəti vardı. Güclü və uzun qollarından zamanında və düzgün istifadəsi onun əsl güləşçiyə çevrilməsinə səbəb oldu.

***

İbrahim səhər tezdən güləş çantasını götürüb evdən çıxdı. Qardaşımla mən də yola düşdük. Hara gedirdisə, arxasınca gedirdik. Nəhayət, indiki 7 Tir idman zalına girdi. Biz də arxasınca içəri girdik və tamaşaçıların arasında oturduq. Zal dolu idi. Bir saatdan sonra güləş yarışı başlandı.

İbrahim həmin gün bir neçə nəfərlə güləşdi və hamısına qələbə çaldı. Birdən gözü bizə sataşdı. Tamaşaçıların arasında oturub onu alqışlayırdıq. Hirslə bizə yaxınlaşdı.

– Nə üçün gəlmisiniz?

– Elə belə. Arxanca gəldik ki, görək hara gedirsən.

– Necə yəni?! Bura sizin yeriniz deyil. Tez qalxın, evə gedək.

Mən təəccüblə dedim: "Məgər nə olub?"

– Burada qalmamalısınız. Qalxın! Qalxın, gedək!

Onun danışdığı yerdə birdən səsucaldandan deyildi: "74 kq. üzrə yarımfinal güləşi: ağa Hadi və ağa Tehrani".

İbrahim bir döşəyə baxdı, bir də bizə. Bir neçə saniyə dayanıb döşəyə çıxdı.

Biz də qışqırıb onu alqışlayırdıq.

İbrahimin müəllimi dayanmadan qışqırıb ona nə etməli olduğunu deyirdi, İbrahim isə yalnız müdafiə olunurdu. Hərdən bizə də bir göz atırdı. Müəllimi çox hirslənmişdi, qışqırırdı: "İbrahim, nə üçün güləşmirsən? At görüm".

İbrahim gözəl bir fəndlə rəqibini yerdən qaldırdı, bir dövrə fırladıb möhkəm yerə çırpdı. Lakin hələ güləş bitməmiş döşəkdən bayıra çıxdı.

Həmin gün bizə çox hirsləndi. Qayıdanda dedi: "Adam güclənmək üçün idman etməlidir, çempion olmaq üçün yox. Mən də müxtəlif fəndləri öyrənmək üçün yarışda iştirak edirəm, başqa məqsədim yoxdur".

Mən dedim: "Məgər adamın çempion olub məşhurlaşması pisdir?"

Bir neçə saniyə dayanıb dedi: "Məşhurlaşmaqdan önəmlisi adam olmaqdır".

İbrahim həmin gün finala çıxdı, amma yarış bitmədən bizimlə birgə evə qayıtdı. O bununla şan-şöhrətin və çempionluğun onun üçün əhəmiyyətli olmadığını sübut etdi. İbrahim İmam Xomeyninin məşhur cümləsini həmişə deyərdi: "İdman həyatın məqsədi olmamalıdır".

# *Çempion*

**Hüseyn Allahkərəm**

74 kq. çəkili güləşçilər yarışırdı. İbrahim bütün rəqiblərini məğlub edib yarımfinala çıxdı. Həmin il çox yaxşı məşq etmişdi və bütün rəqiblərini asanlıqla məğlub edirdi.

Yarımfinalda qələbə çalsaydı, finalda da qalib gəlib çempion olacaqdı. Lakin o, yarımfinalda çox pis güləşdi və bir xal fərqi ilə uduzdu.

Həmin il İbrahim üçüncü yerə çıxdı. Mən bir neçə ildən sonra yarımfinalda İbrahimlə güləşmiş oğlanı gördüm. O, İbrahimə baş çəkməyə gəlmişdi. Söhbət əsnasında İbrahimlə tanışlığı barədə dedi: "Biz onunla 74 kq. çəkili güləşçilərin yarışında yarımfinalda tanış olmuşuq”.

Bu barədə geniş danışmaq istəyirdi, ancaq İbrahim mövzunu dəyişdirdi və danışmağa imkan vermədi. Ertəsi gün onu görüb yarımfinaldakı güləş barədə soruşdum. O, dərindən nəfəs aldı və dedi: "Mən yarımfinalda İbrahimlə güləşirdim. Bir ayağım çox zədələnmişdi. İbrahimə dedim ki, dost, mənim bu ayağım zədələnib, ehtiyatlı ol. İbrahim cavab verdi ki, oldu, dadaş, baş üstə.

Mən onun güləşini görmüşdüm. O, güləşdə usta idi, əsasən, ayaqdan fəndlər işlədirdi. Yarışda ayağıma yaxınlaşmadı, mənsə axmaqcasına ondan bir xal alıb sevindim və finala çıxdım. İbrahim məni asanlıqla məğlub edib çempion ola bilərdi, amma bunu etmədi".

O, bir qədər sonra əlavə etdi: "Məncə, o, qəsdən mənə xal verdi. Məğlub olduğuna görə də narahat deyildi. Çünki çempionluq onun üçün başqa bir şey idi. Mənsə sevinirdim. Daha çox buna görə sevinirdim ki, finalda qonşumuzla güləşəcəkdim. Elə bilirdim ki, hamı dadaş

İbrahim kimi düşüncəli və mərifətlidir. Mən ayağımın zədələndiyini yarışdan öncə qonşuma dedim, o isə elə ilk hərəkətdə zədələnmiş ayağımdan tutdu. Ayağım çox ağrıdı. Sonra məni yıxdı və arxamı vurdu.

O zaman mən ikinci, İbrahim isə üçüncü yerə çıxdı. Lakin şübhə etmirəm ki, İbrahim çempion olacaqdı.

O gündən onunla dostam. Ondan qəribə şeylər də görmüşəm. Mənə belə bir dost nəsib etdiyinə görə Allaha şükür edirəm".

Söhbətimiz bitəndən sonra sağollaşıb getdi.

Gilanqərb korpusunun qərargahında divarların birinə hər bir döyüşçü haqda bir cümlə yazılmışdı. İbrahim haqda yazılan bu idi: “İbrahim Hadi - Purya Vəli xarakterli döyüşçü!”

# *Purya Vəli*

**İrəc Girayi**

1976-cı il idi. Güləş klubları arasında yarış keçirilirdi. Birinci yerə çıxana həm pul mükafatı veriləcəkdi, həm də ölkə yığmasına gedəcəkdi. İbrahim tam hazırlıqlı idi. Onun bir güləşini görən hər kəs bunu təsdiqləyirdi. Müəllimlər deyirdilər ki, bu il 74 kq. çəkili idmançılardan heç kim İbrahimi məğlub edə bilməyəcək.

Yarış başlandı. İbrahim dörd yarışda qalib gəlib yarımfinala çıxdı. Rəqiblərinin ya arxasını yerə vururdu, ya da böyük fərqlə qalib gəlirdi.

Dostlara deyirdim: "Əmin olun ki, bu il bizim klubumuzdan bir nəfər yığma komandaya gedəcək".

Yarımfinaldakı rəqibi çox məşhur olsa da, İbrahim onu da məğlub edib finala vəsiqə qazandı.

Finaldakı rəqibi Mahmud adlı bir güləşçi idi. O, həmin il hərbçilər üzrə dünya çempionu olmuşdu.

Yarışdan qabaq soyunma otağında İbrahimin yanına gedib dedim: "Mən rəqibinin yarışlarını görmüşəm, çox zəifdir, lakin İbrahim can, sən Allah, diqqətli ol, yaxşı güləş. Mən əminəm ki, bu il yığma komandaya girəcəksən”.

Müəllimi İbrahimə son tövsiyələrini verdi. İbrahim ayaqqabısının bağını bağladı və birlikdə döşəyə getdilər.

Mən tez gedib tamaşaçıların arasında oturdum. İbrahim döşəyə çıxdı. Rəqibi də mahir güləşçi idi. Hələ hakim gəlməmişdi. İbrahim yaxınlaşıb təbəssümlə rəqibinə əl verdi.

Rəqibi ona nə dedisə, İbrahim təsdiq əlaməti olaraq başını yellədi. Sonra rəqibi zalın yuxarı tərəfində tamaşaçıların arasında kimisə göstərdi.

Dönüb ora baxdım. Əlində təsbeh olan qoca bir qadın oturmuşdu.

Nə danışdıqlarını bilmədim, lakin İbrahim güləşə çox pis başladı. Ancaq müdafiə olunurdu. Yazıq müəllimi o qədər qışqırdı ki, axırda səsi tutuldu. İbrahim sanki müəllimin sözlərini və mənim qışqırtılarımı eşitmirdi. O, yalnız vaxt öldürürdü.

İbrahimin rəqibi əvvəldə çox qorxsa da, sonradan cəsarətləndi. O, tez-tez hücum edirdi. İbrahim də soyuqqanlılıqla müdafiə olunurdu.

Hakim İbrahimə birinci və sonra ikinci xəbərdarlığı verdi. Sonda üç xəbərdarlıqla uduzdu və rəqibi çempion oldu.

Hakim rəqibinin əlini qaldıranda İbrahim sevinirdi. Sanki özü çempion olmuşdu. Sonra hər iki güləşçi bir-birini qucaqladılar.

İbrahimin rəqibi sevincindən ağlaya-ağlaya əyilib İbrahimin əlini öpdü. İki güləşçi döşəkdən çıxanda oturacaqların üstündən hoppanıb hirslə İbrahimə yaxınlaşdım, qışqırıb dedim: “Ağıllı adam, bu necə güləşməkdir?!” Sonra da hirsimdən qoluna bir yumruq vurub dedim: "Güləşmək istəmirdinsə, bizi niyə girinc edirdin?!"

İbrahim çox sakitcə və həmişəki təbəssümü ilə soyunma otağına gedib paltarlarını dəyişdi, başını aşağı salıb getdi.

Mən hirsimdən qapı-bacaya yumruq vururdum. Sonra bir tərəfdə oturdum. Yarım saatdan sonra bir qədər sakitləşdim və getməyə hazırlaşdım. İdman klubunun önündə hələ çox adam vardı. İbrahimin rəqibi anası və digər qohum-dostları ilə birgə dayanmışdı. Onlar çox sevinirdilər. Birdən həmin çempion məni səslədi. Dönüb qaşqabaqla dedim: "Nə deyirsən?" Mənə yaxınlaşıb dedi:

"Siz ağa İbrahimin dostusunuz, eləmi?" Hirslə dedim: "Sözünü de".

– Ağa, necə düşüncəli dostunuz var! Yarışdan öncə ona dedim ki, bilirəm məğlub olacağam. Amma anam və qardaşlarım yuxarıdan baxırlar, elə et ki, çox pərt olmayım. Dostunuz isə mənə əlindən gələn yaxşılığı etdi. Bilirsən anam necə sevinir?!

Sonra onu ağlamaq tutdu.

- Mən yeni evlənmişəm, yarışın pul mükafatına da çox ehtiyacım var.

Nə deyəcəyimi bilmədim. Bir qədər sakit qalıb üzünə baxdım, məsələnin nə yerdə olduğunu anladım. Ona dedim: "Qardaş, mən dadaş İbrahimin yerində olsaydım, bu qədər məşq və çətinlikdən sonra bu işi görməzdim. Bu iş ağa İbrahim kimi böyük adamlara məxsusdur".

Çempionla sağollaşdım. Sevinən anasına bir nəzər salıb yola düşdüm. Yolda İbrahim haqda düşünürdüm. Bu qədər fədakarlıq ağlıma sığmırdı.

Purya Vəli də rəqibinin yarışda qələbəyə ehtiyaclı olduğunu, şəhərin hakimi tərəfindən incidildiyini biləndə ona uduzmuşdu.

İbrahimin ağır məşqlərini xatırladım. O qadının təbəssümləri və o gəncin sevinci də yadıma düşdü və məni ağlamaq tutdu. Fikirləşdim ki, İbrahim necə böyük adamdır!

# *Nəfsi ram etmək*

**Şəhidin dostları**

Tehrana güclü yağış yağmış, 17 Şəhrivər xiyabanını su basmışdı. Yolun o tərəfinə keçmək istəyən bir neçə qoca məyus halda dayanmışdı.

İbrahim oraya gələn kimi şalvarının balağını qatladı, qocaları belinə götürüb yolun o tərəfinə keçirdi.

O, tez-tez belə işlər görürdü. Məqsədi yalnız öz nəfsini ram etmək idi. Xüsusən də uşaqların arasında ad-san çıxardığı vaxtlarda belə edirdi.

***

İbrahimlə birgə gedirdik. Yay fəsli və axşamüstü idi. Bir küçəyə çatdıq. Uşaqlar futbol oynayırdılar.

Biz keçəndə bir oğlan topa möhkəm zərbə vurdu. Top düz İbrahimin üzünə dəydi. O, ağrıdan yerə oturdu. Üzü qıpqırmızı olmuşdu. Mən çox hirsləndim. Uşaqların hamısı qorxudan qaçırdı.

İbrahim oturduğu yerdə əlini çantasına saldı, qoz sellofanını götürüb qışqırdı: "Uşaqlar, haraya getdiniz?! Gəlin qoz yeyin".

Sonra da sellofanı futbol qapısının yanına qoydu və yola düşdük. Yoda təəccüblə soruşdum: "Dadaş İbrahim, bu nə iş idi?"

– Yazıqlar qorxdular. Axı bilə-bilə vurmadılar.

Sonra yenidən söhbətimizə qayıtdı və mövzunu dəyişdi. Mən bilirdim ki, yalnız böyük insanlar həyatlarında belə olurlar.

***

Güləş zalında məşqə hazırlaşırdıq. İbrahim, ondan az sonra da dostlarımızdan başqa birisi gəldi.

O, içəri girən kimi dedi: "İbrahim can, boy-buxunun və yaraşığın hamını heyran qoyub. İki qız səndən danışa-danışa arxanca gedirdi. Qəşəng şalvar-köynək geyinmisən, əlində də idman çantası”.

İbrahimə baxdım. O, narahat idi, fikrə getmişdi. Belə bir söz gözləmirdi.

Növbəti dəfə məşqdə İbrahimi görən kimi məni gülmək tutdu. Uzun köynək və enli şalvar geyinmişdi. İdman çantasının yerinə paltarlarını sellofan kisəyə tökmüşdü. Ondan sonra idmana belə gəlməyə başladı.

Uşaqlar deyirdilər: "Əşi, sən necə adamsan?! Biz idmana gəlirik ki, bədənimiz formaya düşsün, sonra da dar köynək geyinək. Səninsə belə qəşəng forman var, amma enli paltarlar geyinirsən".

İbrahim onların sözlərinə əhəmiyyət vermirdi. Dostlarına deyirdi ki, idman Allah üçün olsa, ibadət olar, başqa bir niyyətlə olsa, ziyan edərsiniz.

***

Bir dəfə meydançada futbol oynayırdıq. İbrahim tamaşaçı skamyalarının yanında dayanmışdı. Ona yaxınlaşıb salam verdim.

– Nə əcəb, bu tərəflərə gəlmisən?!

Əlindəki jurnalı mənə uzatdı.

- Şəklini çap ediblər.

Sevincimdən uçmaq istəyirdim. Jurnalı almaq istəyəndə əlini geri çəkdi.

– Bir şərti var.

– Nə desən, qəbuldur.

– Nə desəm?

– Hə, qəbuldur.

Jurnalı verdi. Orta səhifədə mənim böyük bir şəklimi vermiş və yanında yazmışdılar: "Gənclər futbolunda yeni

fenomen". Məni çox tərifləmişdilər. Oturub mətni oxudum, jurnalı vərəqlədim, sonra başımı qaldırıb dedim: “Sağ ol, İbrahim can, məni çox sevindirdin. Doğrudan, şərtin nə idi?”

Yavaşca dedi: "Nə desəm, qəbul edəcəksən, elə deyil?!"

– Hə, de.

Bir qədər dayanıb dedi: "Daha futbolla məşğul olma".

Yerimdə quruyub qaldım. Təəccüblə dedim: "Daha futbol oynamayım?! Necə yəni?! Mən hələ indi tanınıram”.

– Yox, oyna, amma peşəkar futbolla məşğul olma.

– Nə üçün?

Yaxınlaşıb jurnalı aldı, şəklimi göstərdi.

- Bu rəngli fotoya bax. Burada idman paltarında, şortikdə şəklini veriblər. Bu jurnala yalnız biz baxmırıq. Onu hamı görür. Çoxlu qızlar bunu görə, buna baxa bilərlər.

Bir az sonra sözünə davam etdi: "Məscid uşağı olduğun üçün bunları deyirəm, yoxsa işim olmazdı. Get, inanclarını gücləndir, sonra peşəkar idmanla məşğul ol ki, sənə problem yaranmasın".

Bunları deyib sağollaşdı və getdi.

Mən mat-məəttəl qalmışdım. Oturub İbrahimin sözləri haqda çox düşündüm. Həmişə zarafat edən və sadə sözlər danışan bir adamdan belə təklif gözləmirdim.

Sonralar onun sözünü real həyatda gördüm. Bəzi namazqılan məscid uşaqlarının inancları güclü deyildi. Onlar peşəkar idmanla məşğul oldular və getdikcə təsir altına düşüb hətta namazlarını da tərk etdilər.

## *Yədulla*

**Seyid Əbülfəz Kazimi**

İbrahim bazarda bir mağazada işləyirdi. Bir gün onu görüb çox təəccübləndim. Belində iki böyük qutu aparırdı. Bir mağazanın önündə dayanıb qutuları yerə qoydu. Təhvil verəndən sonra yaxınlaşıb onunla salamlaşdım.

- Ağa İbrahim, yaxşı deyil, bu iş fəhlələrə görədir.

Mənə baxıb dedi: "İşləmək ayıb deyil, işsizlik ayıbdır. Gördüyün bu iş də mənə görə yaxşıdır, heçkim olduğuma əmin oluram, qürurumun qarşısını alır".

- Sən idmançısan, çoxları səni tanıyır. Səni belə görmələri yaxşı deyil...

Gülüb dedi: "Həmişə çalış Allahın xoşu gəlsin, camaatın yox".

***

Bir neçə nəfər oturub İbrahim haqda danışırdıq. Onu tanımayan bir dostum şəklini alıb baxdı və təəccüblə dedi: "Sən əminsən ki, onun adı İbrahimdir?"

Təəccüblə dedim: "Hə. Necə məgər?"

– Bir qədər əvvəl mənim Sultani bazarında mağazam vardı. Bu adam həftədə iki dəfə bazarda dayanıb fəhləlik edir, yük daşıyırdı. Bir dəfə ondan adını soruşdum. Dedi ki, mənə Yədulla deyin. Bir dəfə bir dostum bazara gəlmişdi. Onu görən kimi təəccüblə dedi: "Bu ağanı tanıyırsan?"

Dedim ki, yox, necə məgər? Dedi: “O, voleybol və güləş üzrə çempiondur, çox imanlı insandır, nəfsini məğlub etmək üçün bu işi görür”.

Onun sözləri məni çox düşündürdü. Nəfslə belə mübarizə aparmaq ağlıma batmırdı.

***

Bir dəfə qədim dostlarımdan biri ilə İbrahim haqda danışırdıq. O dedi: "İnqilabdan qabaq bir gün ağa İbrahim yanıma gəldi. Məni, qardaşımı və başqa iki nəfəri restorana aparıb ən yaxşı xörək, salat və içəcək sifariş verdi.

Çox dadlı idi. O vaxta qədər elə xörək yeməmişdim. Yeyəndən sonra ağa İbrahim dedi: "Necə idi?"

– Çox əla idi. Əllərinə sağlıq!

– Bu gün səhərdən indiyə qədər bazarda işləmişəm. Bu xörək çəkdiyim zəhmətə görə dadlıdır.

# *Hacı ağa Müctəhidinin mədrəsəsi*

**İrəc Girayi**

İnqilabdan bir qədər öncə idi. İbrahim bazardan əlavə başqa bir işlə də məşğul idi. Təxminən heç kimin ondan xəbəri yox idi. Özü də heç nə demirdi. Onun əxlaqı və rəftarı tamam dəyişmiş, mənəviyyatı çox güclənmişdi. Səhərlər qara bir sellofan götürüb bazara tərəf gedirdi. İçində bir neçə kitab olurdu.

Bir gün motosikletlə gedərkən İbrahimi gördüm.

– Dadaş İbrahim, haraya gedirsən?

– Bazara gedirəm.

Onu motosikletə mindirdim. Yolda dedim: "Haçandır əlində bu sellofanı görürəm, nə məsələdir?"

– Heç nə, kitabdır.

Naibüs-səltənət küçəsinin başında motosikletdən endi, sağollaşıb getdi. Təəccübləndim. Onun iş yeri ora deyildi.

Maraqlanıb arxasınca getdim. Bir məscidə girdi, mən də arxasınca. İçəridə bir neçə gəncin yanında oturub kitabını açdı.

Məsciddən çıxanda oradakı bir qocadan soruşdum: "Bağışlayın, bu məscidin adı nədir?"

– Hacı Ağa Müctəhidinin mədrəsəsi.

Təəccüblə ətrafa baxdım. İbrahimin hövzə tələbəsi olduğunu düşünməzdim.

Orada divara Peyğəmbərdən bir hədis yazılmışdı: "Yer, göy və mələklər gecə-gündüz üç zümrəyə bağışlanmaq istəyirlər: alimlər, tələbələr və səxavətli insanlar".[1]

Axşam zorxanadan çıxanda dedim: "Dadaş İbrahim, hövzəyə gedirsən, amma bizə demirsən?!"

---

[1] "Əl-Məvaiz əl-ədədiyyə", səh. 111.

Dönüb təəccüblə mənə baxdı. Bildi ki, arxasınca getmişəm. Çox yavaşca dedi: "Heyfdir adam ömrünü yalnız yeyib-yatmağa sərf edə. Mən rəsmi tələbə deyiləm, elə-belə öyrənmək üçün gedirəm. Günortadan sonra da bazara gedirəm. Amma hələlik heç kimə bir söz demə".

İnqilabın qələbəsinə qədər İbrahimin işi belə idi. İnqilabdan sonra isə onun işləri o qədər çoxaldı ki, daha belə işlərə vaxt qalmadı.

# *İlahi izdivac*

**Rza Hadi**

Axşamüstü idi. İbrahim işdən qayıdırdı. Küçəyə girəndə gözü bir anlığa qonşu oğlana sataşdı. Gənc bir qızla danışırdı. Oğlan İbrahimi görən kimi tez qızla sağollaşıb getdi.

Bu hadisə bir neçə gündən sonra yenə təkrar olundu. Bu dəfə də qızla sağollaşmaq istəyəndə İbrahimin onlara yaxınlaşdığını gördülər. Qız tez küçənin o biri tərəfinə keçdi və oğlan İbrahimin qarşısında qaldı.

İbrahim onunla salamlaşdı, halını soruşdu. Oğlan qorxurdu, amma İbrahim həmişəki kimi gülümsəyirdi. O, oğlanın əlini buraxmadan xüsusi aramlıqla danışmağa başladı.

– Bax, bizim məhəlləmizdə belə şeylər olmayıb. Mən səni və ailəni yaxşı tanıyıram. Sən həqiqətən bu qızı istəyirsənsə, mən atanla danışaram...

Gənc İbrahimin sözünü kəsib dedi: "Yox, sən Allah, atama heç nə demə. Mən səhv etdim, qələt etdim, bağışla..."

– Yox, məqsədimi başa düşmədin. Atanın böyük evi var, sən də mağazasında işləyirsən. Mən bu axşam məsciddə atanla danışaram, inşallah bu qızla ailə qurarsan.

Gənc çox utanırdı, başını aşağı salmışdı.

– Atam bilsə, çox hirslənəcək.

– Atan mənlikdir. Mən Hacını tanıyıram, məntiqli adamdır.

– Bilmirəm nə deyim, siz necə məsləhət görürsünüzsə, elə də olsun.

Sonra sağollaşıb getdi.

Axşam namazından sonra məsciddə o gəncin atası ilə danışdı. Əvvəlcə izdivacdan danışdı, ailə qurmağa şəraiti olan və münasib həyat yoldaşı tapan birinin evlənməli olduğunu dedi. Bildirdi ki, evlənməyib günaha düşsə, Allah qarşısında cavab verəcək. Həm də dedi ki, bu işdə gənclərə kömək etmək lazımdır.

Hacı İbrahimin sözlərini təsdiqlədi, amma mövzunun oğlu olduğunu biləndə üzünü turşutdu.

– Hacı, oğlun özünü qoruyub günahdan uzaqlaşmaq istəyir, özü də belə bir mühitdə. Məgər pis iş görür?!

Hacı bir neçə saniyə sükutdan sonra dedi: "Yox".

Ertəsi gün İbrahimin anası o gəncin anası ilə danışdı və sonra da qızın anası ilə.

İbrahim bir aydan sonra axşam bazardan qayıdanda küçənin sonunda rəngli işıqlar yanırdı. O, şeytani bir dostluğu ilahi bir izdivaca çevirdiyinə görə sevinib təbəssüm etdi. Bu izdivac hələ də davam edir və cütlük ailə həyatlarını İbrahimin gözəl təşəbbüsünə borcludurlar.

# *İnqilab günləri*

**Əmir Rəbii**

İbrahim uşaqlığından İmam Xomeynini çox sevirdi. O böyüdükcə bu sevgi də artdı.

1977-ci il idi. Hələ mitinq və yürüşlərdən xəbər-ətər yox idi. Bir cümə səhəri ozamankı Jalə meydanında keçirilən bir dini yığıncaqdan evə qayıdırdıq.

Meydandan uzaqlaşmamış dostlarımızdan bir neçəsi bizə qoşuldu. İbrahim bizə İmam Xomeynini təriflməyə başladı. Sonra da ucadan qışqırdı: "Salam olsun Xomeyniyə!" Biz də onun kimi qışqırdıq. Başqa bir neçə nəfər də bizə qoşuldu. Şəms dördyolunun yaxınlığına qədər şüar deyə-deyə getdik. Bir neçə dəqiqədən sonra bir neçə polis avtomobili bizə hücum etdi. İbrahim tez uşaqları dağıtdı. Biz küçələrə girdik.

İki həftə ötdü. Yenə həmin yığıncaqdan sonra İbrahim kinoteatrın önündəki meydanda dayanıb qışqırdı: "Salam olsun Xomeyniyə!" Biz də təkrarladıq. Oradakıların hamısı təkrarlayırdı. Maraqlı səhnə yaranmışdı.

Bir neçə dəqiqədən sonra polislər gəlmədən İbrahim hamını dağıtdı. Sonra birlikdə taksiyə minib Xorasan meydanına doğru yola düşdük.

Bir qədər gedəndən sonra gördük ki, irəlidə avtomobilləri saxlayıb bir-bir sərnişinlərə baxırlar. Küçədə bir neçə SAVAK avtomobili və təxminən on məmur dayanmışdı. Avtomobillərin içini axtaran məmurun üzü tanış gəldi. O, meydanda şüar verən camaatın arasında idi.

İşarə ilə məsələni İbrahimə başa saldım. Növbə bizim taksiyə çatmamış qapını açıb tez səkiyə sarı qaçdı. Küçənin ortasındakı məmur İbrahimi görüb qışqırdı: "Odur! Odur! Tutun onu!"

Məmurlar İbrahimin arxasınca qaçdılar. İbrahim küçəyə girdi, onlar da arxasınca. Məmurların başı qarışanda mən də taksinin pulunu verib maşından endim, xiyabanın o tərəfinə keçib yoluma davam etdim.

Günorta evə gəldim. Axşama qədər ondan heç bir xəbər öyrənə bilmədim. Yoldaşlarımızdan bir neçəsinə zəng vurdum, onlar da məlumatsız idilər.

Çox narahat idim. Təxminən gecə saat 11-də həyətdə oturmuşdum. Birdən küçədən səs eşitdim. Qapını açanda İbrahimin həmişə təbəssümlü üzünü gördüm. Görüşüb onu qucaqladım. Çox sevinirdim. Dedim: "Dadaş İbrahim, necəsən?"

Dərin nəfəs alıb dedi: "Allaha şükür, görürsən ki, sağ-salamatam".

– Şam yeməyini yemisən?

– Yox, ac deyiləm.

Tez evə keçib ona xörək gətirdim. Bir qədər yeyəndən sonra dedi: "Güclü bədən burada işə yarayır. Sayca çox olsalar da, Allahın köməyilə əllərindən qaça bildim".

Həmin gecə çox söhbət etdik, inqilabdan, imamdan danışdıq. Sonra da qərara gəldik ki, axşamlar birlikdə Lorzadə məscidinə Hacı ağa Çavuşinin moizəsini dinləməyə gedək.

Axşam İbrahimlə və dostlarımızdan üçü ilə birgə Lorzadə məscidinə getdik. Hacı ağa Çavuşi[1] çox qorxmaz adam idi, çoxlarının danışmağa cəsarət etmədiyi sözləri minbərdən deyirdi.

O, İmam Musa Kazimdən (ə) belə bir hədis söyləyirdi: "Qumdan bir kişi xalqı haqqa çağıracaq. Dəmir kimi

---

[1] O, inqilabçı ruhanilərdən idi və münafiqlər tərəfindən şəhadətə yetirildi.

möhkəm insanlar onun ətrafına toplaşacaqlar".[1] Bu, camaata çox maraqlı gəlirdi.

Birdən qapı tərəfdə səs-küy qopdu. Gördüm ki, SAVAK məmurları dəyənəklə məscidin önünə tökülüşüb hamını vururlar. Camaat məsciddən çıxmağa tələsirdi. Məmurlar keçən hər bir adamı möhkəm zərbələrlə vururdular. Onlar qadın və uşaqlara da rəhm etmirdilər.

İbrahim çox hirsləndi, qapıya qaçıb məmurların bir neçəsi ilə dalaşdı. Namərdlərin neçəsi birdən İbrahimi vururdu. Bu arada yol açıldı, qadın və uşaqların çoxu məsciddən çıxdı.

İbrahim cəsarətlə onlarla vuruşurdu. Birdən onların bir neçəsini vurub qaçdı. Biz də onun arxasınca məsciddən uzaqlaşdıq. Sonra öyrəndik ki, həmin axşam hacı ağanı tutublar, bir neçə nəfər şəhid olub və bir neçə nəfər yaralanıb.

Orada İbrahimin belinə güclü zərbələr vurulmuşdu. O zərbələrin yaratdığı güclü bel ağrısı ömrünün sonuna qədər davam etdi, onun güləşməsinə də mənfi təsir bağışladı.

1978-ci ildə İbrahimin bütün fikri-zikri inqilab məsələlərinə yönəlmişdi. O, kaset paylayır, bəyanat yayır və çox cəsarət tələb edən digər işlər görürdü. Yayda çoxlu uşaqları özü ilə Qeytəriyyə təpələrinə apardı və Şəhid Müfəttihin fitr bayramı namazında iştirak etdi. Namazdan sonra elan olundu ki, cümə günü Jalə meydanına doğru yürüş olacaq.

---

[1] "Bihar əl-ənvar", c. 60, s. 216.

## *17 Şəhrivər*

**Əmir Mancər**

Şəhrivərin on yeddisi idi. Motosikletlə İbrahimi götürüb Jalə meydanının yaxınlığındakı dini yığıncağa getdik.

Məclis bitdi. Bayırdan çoxlu səs-küy gəlirdi. Gecənin yarısı komendant saatı elan olunmuşdu, çoxlarının isə xəbəri yox idi. Meydanın ətrafında çoxlu əsgər və polis vardı.

Çoxlu insan meydana doğru hərəkət edirdi. Polislər səsucaldanla camaatı dağıtmağa çalışırdılar. İbrahim tez məclisdən çıxdı və dərhal qayıdıb dedi: "Əmir, gəl, gör bayırda nə var".

Bayıra çıxdım. Göz işlədikcə hər tərəfdən camaat meydana axışırdı. Şüarlar artıq şaha yönəlmişdi. "Şaha ölüm" şüarları əks-səda verirdi. İnsanlar meydana hücum edirdilər. Bəziləri deyirdilər ki, SAVAK məmurları dörd tərəfdən meydanı mühasirəyə almışlar. Bir qədər sonra isə çox heyrətamiz bir hadisə baş verdi. Hər tərəfdən, hətta göydəki helikopterdən də güllə səsləri gəlirdi.

Tez gedib motosikleti gətirdim, bir küçədən yol tapdım. Orada polis yox idi. İbrahim yaralıların birini gətirdi. Onu tez 3 Şəban xəstəxanasına apardıq və cəld geri döndük. Günortaya qədər təxminən səkkiz dəfə xəstəxanaya gedib-gəldik; yaralıları qoyub qayıdırdıq. İbrahimin təxminən bütün bədəni qanın içində idi.

Yaralıların biri yanacaqdoldurma məntəqəsinin yanına düşmüşdü. Polislər uzaqdan baxırdılar. Heç kim yaralıya yaxınlaşa bilmirdi.

İbrahim yaralının yanına getmək istəyəndə onu saxladım.

– Getsən, vuracaqlar.

İbrahim mənə baxıb dedi: "Əgər o, öz qardaşın olsaydı, bu sözü deyərdin?"

Nə deyəcəyimi bilmədim, yalnız bunu dedim ki, özündən muğayat ol.

Atəş səsləri azalmış, polislər bir qədər geri çəkilmişdilər. İbrahim sürünə-sürünə çox cəld gedib yaralının yanında uzandı, onu çiyninə qoydu və yenə sürünə-sürünə geri döndü. O, böyük rəşadət göstərdi. Sonra o yaralını başqa biri ilə birgə motosikletə mindirdi və mən yola düşdüm. Qayıdanda polislər yolu bağladılar. Mən İbrahimi itirdim və birtəhər evə qayıtdım.

Axşamüstü onlara getdim. Anası nigaran idi. Heç kimin ondan xəbəri yox idi. Çox narahat olduq. Gecə onun qayıtdığını eşidib çox sevindim. O, polislərin əlindən qaçmağı bacarmışdı. Ertəsi gün Behişti-Zəhra (ə) məzarlığına gedib şəhidlərin dəfninə kömək etdik. 17 Şəhrivərdən sonra hər axşam uşaqların birinin evində iclas keçirir və işləri planlaşdırırdıq. Bir müddət İbrahimgilin evinin damı bizim iclas yerimiz oldu, bir müddət Mehdigilin evi və s. Bu iclaslarda hər şeydən, xüsusən də etiqad məsələlərindən və siyasi gündəmdən söhbət gedirdi. Nəhayət, həzrət İmam Xomeyninin İrana qayıdacağını eşitdik.

Yanvarın sonları idi. Həzrət imamı mühafizə edən komandaların birinin rəhbərliyi bizə tapşırıldı. Bizim qrupumuz 1 fevralda silahlı şəkildə hava limanına birləşən Azadlıq xiyabanının sonunda yerləşdi.

İmam Xomeyninin avtomobilinin giriş səhnəsi yadımdan çıxmır. İbrahim şamın başına fırlanan kəpənək kimi həzrət imamın ətrafına fırlanırdı. İmamın avtomobili keçən kimi cəld uşaqları topladıq və İbrahimlə birgə Behişti-Zəhra (ə) məzarlığına getdik.

Behişti-Zəhra (ə) məzarlığının Qum magistralı tərəfdən əsas qapısının təhlükəsizliyi bizə tapşırıldı. İbrahim qapının yanında dayandı, ürəyi isə məzarlıqda idi. İmam Xomeyni orada çıxış edirdi. İbrahim bizə deyirdi: "İnqilabın sahibi gəldi, artıq onun itaətindəyik. Bu gündən imam nə desə, o da icra olunacaq".

O gündən sonra İbrahimin yeməyi və yatmağı olmadı. Fəcr ongünlüyünün[1] bir neçə günündə heç kim İbrahimdən xəbər tutmadı. Nəhayət, 9 fevralda onu yenidən gördüm və dərhal harada olduğunu, anasının nigaran qaldığını söylədim. Bir qədər dayanıb dedi: "Bu bir neçə gündə dostumla birgə şəhidlərin kimliyini təyin etməyə çalışırdıq. Ekspertizada onların vəziyyəti ilə maraqlanan bir kəs yox idi”.

Fevralın 10-u, gecə idi. İbrahim inqilabçı gənclərin bir neçəsi ilə birgə polis bölməsini ələ keçirməyə başladı. O, həmin gecə 14 saylı məhəllə polisini ələ keçirdi və məhəllədə patrul xidmətinə başladı.

Ertəsi gün səhər çağı İslam inqilabının qələbəsi rəsmən elan olundu.

İbrahim bir neçə gün idi Əmirlə birgə Rifah mədrəsəsinə gedirdi. O, bir müddət həzrət imamın mühafizəçilərindən oldu, sonra Qəsr həbsxanasına getdi və qısa müddət oranı mühafizə etdi. Həmin müddətdə komitənin uşaqları ilə bəzi tapşırıqlarda iştirak etdi, amma rəsmən komitəyə qoşulmadı.

[1] İmam Xomeyninin gəlişindən inqilabın qələbəsinə qədərki on gün – 1-11 fevral arası belə adlanır.

# *Mənəvi sıçrayış*

**Cabbar Sütudə, Hüseyn Allahkərəm**

Bir çox böyüklərin həyatında böyük bir günahdan çəkinmə olub və bu iş onların mənəvi sıçrayışına gətirib çıxarıb. Həmin günah da əsasən, cinsi ehtirasla bağlı olub. Allah-Taala həzrət Yusifin əhvalatında buyurur: "Kim Allahdan qorxub pis əməllərdən çəkinsə və dözümlü olsa, (bilsin ki) Allah yaxşı işlər görənlərin mükafatını əsla zay etməz".[1]

Bu ayədən bilirik ki, bu, ümumi qanundur və yalnız həzrət Yusifə aid deyil.

İnqilabın qələbəsindən bir ay ötdü. İbrahimin görkəmi daha yaraşıqlı olmuşdu. Hər gün işə səliqəli kostyumda gəlirdi. İş yeri Tehranın şimalında idi. Bir gün onu çox narahat gördüm; az danışırdı və özünə qapanmışdı. Yaxınlaşıb təəccüblə dedim: "Dadaş İbrahim, bir şey olub?"

– Yox, mühüm bir şey deyil.

Bildim ki, nəsə bir problem var.

– Bir çətinlik varsa, de, bəlkə kömək edə bildim.

Bir qədər sükut edib yavaşca dedi: "Bir neçə gündür bu məhəllədə hicabsız bir qız məni girinc edib. Deyir ki, səni əldə etməsəm, buraxan deyiləm".

Fikrə getdim, sonra birdən gülməyə başladım. Təəccüblə başını qaldırıb soruşdu: "Gülməlidir?!"

– Dadaş İbrahim, mən də dedim görəsən nə olub.

Sonra onun boy-buxununa nəzər salıb dedim: "Bu yaraşığına görə bunda çox da qəribə bir şey yoxdur".

---

[1] Yusif, 90

- Necə yəni?! Deyirsən yaraşıqlı olduğuma görə bu sözü deyir?

Gülümsəyib dedim: "Şübhən olmasın".

Ertəsi gün İbrahimi görən kimi məni gülmək tutdu. Başını keçəl qırxdırmışdı, kostyum da geyinməmişdi. Ertəsi gün uzun bir köynəkdə işə gəldi; səliqəsiz görkəmdə idi, hətta enli kürd şalvarı və çəkələk geyinmişdi. İbrahim bir müddət belə davam etdi. Nəhayət, həmin şeytani vəsvəsədən qurtuldu.

***

İbrahimin xüsusiyyətlərindən biri də müxtəlif məsələlərdə dəqiqliyi idi. Bu xüsusiyyəti onu digər dostlarından ayırırdı.

Aprelin əvvəllərində İbrahimlə və bəzi komitə uşaqları ilə bir iş dalınca getdik. İnqilabdan öncə hərbi fəaliyyət göstərmiş və təqib altında olan bir nəfər bir yaşayış binasında görülmüşdü. Ünvanı alıb iki avtomobillə yola düşdük.

Binaya daxil olduq və şübhəlini asanlıqla ələ keçirdik. Tutulana baxmaq üçün bayırda çoxlu adam toplaşmışdı. Çoxu da həmin binanın sakinləri idi. Birdən İbrahim binanın içinə qayıdıb dedi: "Gözləyin!"

Təəccüblə səbəbini soruşduq. Bir söz demədi. Çiynindən çəfiyəsini götürüb müttəhimin üzünü bağladı. Soruşdum: "İbrahim, nə edirsən?!"

Onun üzünü bağlaya-bağlaya cavab verdi: "Biz bir məlumata əsaslanıb bu ağanı tutmuşuq. Əgər deyilənlər doğru olmasa, rüsvay olduğu üçün daha burada yaşaya bilməyəcək, bütün sakinlər ona cinayətkar kimi baxacaqlar. Amma onu heç kim görməsə, sabah azad edilsə də, problem olmayacaq".

Binadan çıxanda heç kim onu tanımadı. Mənsə İbrahimin dəqiqliyi haqda fikirləşirdim. İnsanların şəxsiyyəti və hörməti onun üçün çox əhəmiyyətli idi.

## *Sözün təsiri*

**Mehdi Fəridvənd**

İnqilabdan bir neçə ay sonra dostlarımızın biri mənə dedi: "Sabah İbrahimlə birgə Bədən Tərbiyəsi Komitəsinə gedin. Komitənin sədri ağa Davudinin sizinlə işi var". Ertəsi gün səhər ünvanı öyrənib komitəyə getdik. Ağa Davudi bizi çox yaxşı qarşıladı. O, İbrahimin orta məktəb müəllimi olmuşdu. Sonra bir neçə nəfərlə birgə bir zala girdik. Ağa Davudi dedi: "Siz inqilabçı idmançılarsınız, komitəyə gəlin və vəzifə götürüb işləyin. Komitənin Yoxlama-nəzarət şöbəsini sizə ayırmışam".

Bir qədər danışandan sonra qəbul etdik. Ertəsi gündən işimiz başlandı. Qarşımıza problem çıxanda ağa Davudi ilə məsləhətləşirdik.

Yadımdadır, İbrahim bir gün səhər çağı şöbəyə girib soruşdu: "Nə edirsən?"

– Heç nə, vəzifədən ixrac hökmünü yazıram.

– Kimin üçün?

– Məlumat çatıb ki, federasiyalardan birinin rəhbəri qeyri-münasib görkəmdə işə gəlir. İşçilərlə, xüsusən qadınlarla rəftarı da əsla münasib deyil. Hətta deyirlər ki, bəzi məsələlərdə inqilaba qarşı fikirləri var. Üstəlik, həyat yoldaşı da hicabsızdır.

Məruzəni yaza-yaza dedim: "Mütləq İnqilab şurasına da bir surətini göndərərik". İbrahim soruşdu: "Məruzəni görə bilərəm?"

– Buyur, bu məruzə, bu da ixrac hökmü.

Məruzəyə diqqətlə baxıb soruşdu: "Özün bu ağa ilə danışmısan?"

– Yox, lazım deyil, onun necə adam olduğunu hamı bilir.

– Olmadı. Məgər eşitməmisən ki, yalnız yalançı insan hər eşitdiyini təsdiqləyər?!

– Axı həmin federasiyanın uşaqları xəbər verdilər...

Sözümü kəsdi.

- Bu ağanın ünvanı bizdə var?

– Bəli, var.

– Gəl, axşamüstü evinə gedək, görək kimdir, sözü nədir.

Bir neçə saniyə sükutdan sonra razılaşdım.

Axşamüstü işdən sonra ünvanı götürüb motosikletlə getdik.

Onun evi Seyid Xəndan körpüsündən yuxarıda yerləşirdi. Küçələrin içində evini axtaranda birdən onu gördüm. Məruzəyə vurulmuş şəkildəki adam idi. Mersedes avtomobilini evin önündə saxladı. Təxminən hicabsız bir xanım maşından enib qapını açdı, sonra həmin şəxs maşınla içəri girdi.

Dedim: "Gördün, ağa İbrahim?! Gördün ki, bu adam problemlidir?!”

– Gərək danışaq, sonra mühakimə yürüdək.

Motosikleti evin önündə saxladım. İbrahim qapının zəngini basdı. O hələ həyətdə idi. Gəlib qapını açdı.

Hündür kişi idi, bığ-saqqalını qırxmışdı. Bizi o məhəllədə görməyinə çox təəccübləndi. Diqqətlə baxıb dedi: "Buyurun".

Öz-özümə dedim: Əgər İbrahimin yerində olsaydım, buradaca dərsini verərdim.

Lakin İbrahim həmişəki sakitliklə gülümsəyib salam verdi və dedi: "Mən İbrahim Hadiyəm. Bir neçə sualım var. Ona görə sizi narahat etdik".

O dedi: "Sizin adınız çox tanış gəlir. Bir neçə gün qabaq eşitdim. Deyəsən, komitənin Yoxlama-nəzarəti, eləmi?”

İbrahim gülüb dedi: "Bəli".

Kişi özünü çox itirdi, israrla deyirdi ki, buyurun içəri. İbrahim dedi: "Çox sağ olun. Sizinlə yalnız bir neçə dəqiqəlik işimiz var, sonra gedəcəyik".

İbrahim danışmağa başladı. Təxminən bir saat ötdü, amma zamanın necə keçdiyini əsla hiss etmədik.

İbrahim ona hər şeydən danışdı, çoxlu məsəl çəkdi. O deyirdi: "Bax, əziz dost, sizin yoldaşınız özünüzə məxsusdur, başqalarına göstərmək üçün deyil... Həmçinin siz bir idarənin rəhbərisinizsə, işçilərlə, hələ üstəlik, qadın işçilərlə qeyri-münasib zarafatlar etməməli, pis sözlər danışmamalısınız. Siz öz sahənizdə çempion olmusunuz, lakin əsl çempionluq yanlışa son qoymaqdır”.

İbrahim sonra inqilabdan, şəhidlərin qanından, imamdan və ölkənin düşmənlərindən danışdı. O da təsdiqləyirdi.

Axırda İbrahim dedi: "Bax, mənim əzizim, bu, sizin vəzifədən ixrac hökmünüzdür.

Federasiya rəhbəri birdən yerində donub qaldı, boğazı qurudu. Sonra təəccüblə bizə baxdı.

İbrahim gülümsəyib kağızı cırdı və dedi: "Əziz dost, mənim sözlərim haqda fikirləş". Sonra sağollaşıb motosikletə mindik.

Küçənin başına çatanda geriyə baxdım. O kişi hələ həyətinə girməmişdi və dayanıb bizə baxırdı.

İbrahimə dedim: "Ağa İbrahim, çox gözəl danışdın, mənə də təsir etdi".

Gülüb dedi: "Əşi, biz kimik ki?! Yalnız Allah, bütün bunları Allah beynimə saldı. İnşallah təsiri olar".

Sonra əlavə etdi: "Əmin ol ki, insanları yaxşı rəftar kimi heç bir şey dəyişdirmir. Allah Quranda Peyğəmbərinə

buyurur: "Əgər qaba, sərt ürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb gedərdilər".[1]

***

Bir-iki aydan sonra həmin federasiyadan yeni bir məruzə gəldi. Federasiyanın rəhbəri çox dəyişmiş, əxlaq və rəftarı yaxşılaşmışdı. Hətta yoldaşı da işə hicabla gedirmiş.

İbrahimi görüb məruzəni verdim. Onun reaksiyasını gözləyirdim. Oxuyandan sonra "Allaha şükür!" – dedi, sonra da söhbəti dəyişdi.

Şübhə etmirdim ki, İbrahimin ixlası öz təsirini buraxmış, sözləri federasiya rəhbərini dəyişdirmişdi.

---

[1] Ali-İmran, 159.

# *İnsanlara yardım*

## Şəhidin dostları

"Bəndələrim mənim ailəmdir. Mənə ən sevimli adam bəndələrimə daha mehriban olan və onların ehtiyaclarını aradan qaldırmağa daha çox çalışandır".[1]

Şəhid Səidi xiyabanının başına çoxlu adam toplaşmışdı. İbrahimlə yaxınlaşıb nə baş verdiyini soruşduq. Belə cavab verdilər: "Bu oğlan ruhi xəstədir. Hər gün kanaldan bir vedrə çirkli su götürüb səliqə ilə geyinmiş adamların üstünə atır".

Camaat yavaş-yavaş dağılışdı. Bir oğlan yaraşıqlı kostyum geyinmiş bir kişini islatmışdı. Kişi dedi: "Bilmirəm bu xəstə ilə nə edim”. Sonra o da getdi və uşaqla biz qaldıq.

İbrahim oğlana dedi: "Nə üçün camaatı isladırsan?!"

Oğlan güldü.

- Xoşum gəlir.

İbrahim bir az fikirləşib dedi: "Kimsə sənə deyir ki, isladasan?"

- Onlar mənə beş rial verib deyirlər ki, islat.

Oğlan bunu deyib yolun o biri tərəfini göstərdi. Orada üç avara gənc gülürdü. İbrahim onlara yaxınlaşmaq istədi, amma birdən dayandı. Bir az fikirləşəndən sonra dedi: "Oğlan, sizin eviniz haradadır?"

Oğlan evlərinin yerini göstərdi. İbrahim dedi: "Əgər bundan sonra camaatı incitməsən, mən sənə gündə on rial verəcəyəm. Razısan?" Oğlan razılaşdı. Evlərinə çatanda İbrahim onun anası ilə danışdı və bununla da problem həll olundu.

---

[1] Qüdsi hədis

Bədən Tərbiyəsi Komitəsinin Yoxlama-nəzarət şöbəsində işləyirdik. Maaşı alandan və iş vaxtı bitəndən sonra soruşdu: "Motosikleti gətirmisən?

– Hə. Necə məgər?

– Əgər bir işin yoxdursa, birlikdə mağazaya gedək.

Təxminən bütün maaşını xərclədi, düyü və ətdən tutmuş sabuna qədər hər şey aldı. Sanki ona bir siyahı vermişdilər. Sonra da Məcidiyyə tərəfə gedib bir küçəyə girdik. İbrahim bir evin qapısını döydü. Qapını düz-əməlli hicabı olmayan bir qoca qadın açdı. İbrahim hər şeyi ona verdi.

Qadının boynundan xaç asılmışdı. Çox təəccübləndim. Qayıdanda soruşdum: "Dadaş İbrahim, bu qadın məsihi idi?"

– Hə.

Motosikleti sağa çəkib saxladım və hirslə dedim: "Kişi, bu qədər yoxsul müsəlman var, sən məsihilərə yardım edirsən?!"

Elə oturduğu yerdən dilləndi: "Müsəlmanlara kömək edən var. Üstəlik, İmdad komitəsi də açılıb və onlara yardım edir, amma bu Allah bəndələrinin kimsəsi yoxdur. Bununla həm problemləri həll olur, həm də imamı və inqilabı sevirlər”.

***

İbrahimin şəhadətindən 26 il ötürdü. Kitabın mətni yığılıb çapa hazırlandı. Məsciddə namaz qılanların biri məni görüb dedi: "Ağa İbrahimin ildönümü üçün nə lazım olsa, mən qulluğunuzdayam". Təəccüblə dedim: "Siz Şəhid Hadini tanıyırdınız?"

– Yox, ötənilki ildönümünə qədər onun haqqında heç nə bilmirdim. Lakin ağa İbrahimin mənim boynumda böyük haqqı var.

Getməyə tələsirdim, amma yaxınlaşıb təəccüblə soruşdum: "Nə haqqı?"

– Ötənilki mərasimdə ağa İbrahimin şəkli olan bir brelok payladınız. Mən də alıb maşınımın açarını keçirdim. Bir neçə gün öncə ailəmlə səfərdən qayıdırdıq. Yolda bir mehmanxananın qarşısında dayandıq. Qayıdanda gördüm ki, açarı maşının içində qoymuşam. Qapılar kilidlənmişdi. Ehtiyat açar da yoldaşımın çantasında və maşının içində qalmışdı.

Çox narahat oldum. Nə qədər etdimsə, qapı açılmadı. Hava çox soyuq idi. Yan şüşəni sındırmağı düşündüm, lakin hava soyuq idi və qarşıda uzun yolumuz vardı.

Birdən gözüm ağa İbrahimin şəklinə düşdü. Sanki brelokdan mənə baxırdı. Mən də ona bir qədər baxıb dedim: "Ağa İbrahim, eşitmişəm ki, sağlığında insanların problemlərini həll edərdin. Şəhid də həmişə sağdır". Sonra dua etdim: "İlahi! Şəhid Hadinin hörmətinə, problemimi həll elə".

O vəziyyətdə birdən əlimi pencəyimin cibinə saldım. Evin açarlarını götürdüm, qeyri-ixtiyari olaraq birini maşının qapısına saldım. Elə birinci cəhddə qapı açıldı.

Sevincək maşına mindik. Allaha şükür edəndən sonra ağa İbrahimin şəklinə baxıb dedim: "Minnətdaram. İnşallah əvəzini çıxaram". Hələ yola düşməmiş yoldaşım soruşdu: "Maşının qapısı hansı açarla açıldı?"

Təəccüblə dedim: "Doğru deyirsən. Hansı açar idi?!”

Maşından enib bütün açarların hərəsini bir neçə dəfə yoxladım, amma heç biri qapıya girmirdi. Elə dayandığım yerdə dərin bir nəfəs alıb dedim: "Ağa İbrahim, təşəkkür edirəm. Sən şəhadətindən sonra da insanların problemlərini həll edirsən".

# *Kürdüstan*

**Mehdi Fəridvənd**

1979-cu ilin yayı idi. Günorta namazlarını qılıb Salman məscidinin önündə İbrahimlə söhbət edirdik. Birdən dostlarımızın biri tələsik gəlib dedi: "İmamın müraciətini eşitdiniz?"

Təəccüblə soruşduq: "Yox. Nə olub ki?"

– İmam əmr etdi ki, Kürdüstan döyüşçülərini mühasirədən çıxarın.

Elə o anda Məhəmməd Şahrudi gəlib dedi: "Mən Qasim Təşəkküri və Nasir Kermani ilə birlikdə Kürdüstana gedirəm". İbrahim dedi: "Biz də gəlirik". Sonra hazırlaşmağa getdik.

Günortadan sonra saat 4-də 11 nəfər bir chevrolet blazerlə Kürdüstana yola düşdük. Silahlarımız bir pulemyotdan, dörd tapançadan və bir neçə əl qumbarasından ibarət idi.

Yolların çoxu bağlı idi. Bir neçə yerdə torpaq yolla getməyə məcbur olduq. Lakin Allahın köməyi ilə ertəsi gün günorta Sənəndəcə çatdıq. Hər şeydən bixəbər halda şəhərə girib bir qəzet köşkünün önündə dayandıq.

İbrahim maşından enən kimi qışqırdı: "Dinsiz, bunlar nədir satırsan?!"

Köşkdə bir neçə cərgə spirtli içki düzülmüşdü. İbrahim dərhal silahı götürüb araq şüşələrini vurdu. Şüşələr sınıb yerə töküldü. Qalanını da sındırdı və hirslə köşkdəki gəncə yaxınlaşdı. Gənc çox qorxmuş və köşkün küncünə qısılmışdı.

İbrahim onun üzünə baxıb sakitcə dedi: "Oğlan, məgər sən müsəlman deyilsən?! Bu murdarlar nədir satırsan?!

Məgər Allah Quranda buyurmayıb ki, bu çirkinliklər şeytandandır və bunlardan uzaqlaşın?!"

Gənc təsdiq əlaməti olaraq başını yellədi. O, dayanmadan deyirdi: "Qələt eləmişəm, bağışlayın". İbrahim onunla bir qədər danışdı və sonra birlikdə bayıra çıxdılar.

Gəncdən Keşikçilər korpusunun yerini öyrənib yola düşdük. Pulemyotun səsi şəhərin sükutunu pozmuşdu. Küçədə hamı bizə baxırdı. Nəhayət, Sənəndəc korpusuna çatdıq.

Korpusun bütün divarlarının önünə torpaq dolu kisələr düzülmüşdü. Ora daha çox hərbi istehkama bənzəyirdi. Bina görünmürdü.

Nə qədər qapını döydüksə, açan olmadı. İçəridən deyirdilər ki, şəhər inqilab düşmənlərinin əlindədir, siz də burada qalmayın, hava limanına gedin. Dedik ki, biz sizə kömək etməyə gəlmişik, heç olmasa, deyin görək hava limanı haradadır?

Korpus uşaqlarından biri divara yaxınlaşıb dedi: "Bura təhlükəlidir, sizin maşınınızı vura bilərlər. Cəld bu tərəfdən gedib şəhəri tərk edin. Bir qədər aralıda hava limanını görəcəksiniz. İnqilabçı qüvvələr oraya yerləşiblər”.

Biz yola düşüb hava limanına getdik və Sənəndəcdə nə baş verdiyini orada anladıq. Korpusun qərargahından və hava limanından başqa hər yer inqilab düşmənlərinin əlində idi.

Orada ordunun üç batalyonu var idi, təxminən bir batalyon da korpus qüvvələri. Şəhərin içindən hava limanına raketlər atılırdı.

Məhəmməd Bürucerdini ilk dəfə orada gördüm. Qızılı saçı və saqqalı olan bir gənc idi, cəlbedici və gülərüz çöhrəsi vardı.

Qardaş Bürucerdi o şəraitdə şəxsi heyəti çox yaxşı idarə edirdi. Sonralar öyrəndim ki, o, qərb korpusunun komandiridir.

Ertəsi gün qardaş Bürucerdi ilə iclas keçirdik. Ordu komandirləri də iştirak etdilər. O dedi: "İmamın müraciətindən sonra çoxlu canlı qüvvə yola düşüb, inqilab düşmənləri də çox qorxublar. Şəhərin içində onların iki əsas düşərgələri var. Onlara hücum planı hazırlamalıyıq”.

Digər söhbətlər də oldu. İbrahim dedi: "Şəhərin vəziyyətindən görünür ki, əhalinin onlarla heç bir əlaqəsi yoxdur. Yaxşı olar ki, inqilab düşmənlərinin düşərgələrindən birinə hücum edək. Qələbə çalsaq, digərinə gedərik”.

Hamı razılaşdı. Qərara gəldik ki, canlı qüvvəni hücuma hazırlayaq. Lakin həmin gün korpus qüvvələrini Pavəyə göndərdilər. Orada yalnız ordu əsgərləri qaldı.

İbrahim və digər dostlar bir-bir əsgər səngərlərinə baş çəkdilər, söhbət etdilər və onlarda ruh yüksəkliyi yaratdılar. Sonra da bir maşın qarpız alıb əsgərlərə payladılar. Bu yolla dostluqları möhkəmləndi. Onlar müxtəlif üsullarla şəxsi heyətin hazırlığını artırdılar.

Bir gün səhər çağı ağa Xalxali də uşaqlara qoşuldu. Müxtəlif şəhərlərdən digər döyüşçülər də Sənəndəc hava limanına gəldilər. Lazımi hazırlıqdan sonra uşaqlara silah verildi. Günortaya qədər düşmən düşərgələrindən birinə hücum etdik, düşündüyümüzdən də tez mühasirəyə aldıq və inqilab düşmənlərinin çoxunu ələ keçirdik.

Düşərgədən çoxlu silahdan əlavə böyük məbləğdə dollar və saxta pasportlar tapdıq. İbrahim onların hamısını

böyük bir kisəyə töküb korpusun rəhbərinə təhvil verdi. İnqilab düşmənlərinin ikinci düşərgələri də döyüşsüz ələ keçirildi və şəhər yenidən inqilabçı uşaqların əlinə keçdi. Əsgərlərin komandiri deyirdi: "Bir il də keçsəydi, mənim əsgərlərim belə hücuma cəsarət etməzdilər. Bunu qardaş Hadiyə və digər döyüşçü dostlarına borcluyuq. Onlar əsgərlərlə dostlaşıb onlarda ruh yüksəkliyi yaratdılar”.

O zaman çoxlu komandirlər İbrahimə və digər uşaqlara hərbi sirləri və döyüş qabiliyyətlərini öyrətdilər. Bu onları peşəkar döyüşçülərə çevirdi və səmərəsi müqəddəs müdafiə zamanı ortaya çıxdı.

Sənəndəc hadisəsi çox çəkmədi; hərçənd Kürdüstanın digər şəhərlərində hələ bəzi döyüşlər davam edirdi.

Biz 1979-cu ilin sentyabrında Tehrana qayıtdıq. Qasim uşaqların bir neçəsi ilə birgə Kürdüstanda qaldı və Şəhid Çəmran qüvvələrinə qoşuldu.

Qayıdandan sonra İbrahim Bədən Tərbiyəsi Komitəsindən çıxıb müəllimliyə başladı.

Əvvəldə onun istəyi ilə razılaşmırdılar, amma çoxlu isrardan sonra baş tutdu. O, elə bir sahəyə daxil oldu ki, orada İbrahim kimilərə böyük ehtiyac vardı və var.

## *Nümunəvi müəllim*

**Abbas Hadi**

İbrahim deyirdi: "Əgər inqilabın yaşaması və sonrakı nəsillərin də inqilabçı olmasını istəyiriksə, məktəblərdə fəaliyyət göstərməliyik. Çünki ölkənin gələcəyi tağut dövrünün ağır şəraitindən xəbərsiz insanlara tapşırılacaq”.

O, əsla inqilabçı olmayanların məktəblərdə müəllim çalışdığını görəndə çox narahat olurdu, düşünürdü ki, məktəblərdə, xüsusən də yuxarı siniflərdə ən yaxşı inqilabçılar dərs deməlidirlər.

Məhz buna görə rahat işini buraxıb maaşı az, əziyyəti isə çox olan bir peşə fəaliyyətinə başladı.

Onun fikirləşmədiyi yeganə şey maddiyyat idi. Deyirdi ki, ruzini Allah verir, pulun bərəkəti mühümdür və Allaha görə görülən iş səmərəli olar.

O, iki məktəbdə tədrisə başladı. Əbu Reyhan liseyində idman müəllimi, məhrum bölgələrin birində də ərəb dili müəllimi idi.

İbrahimin ərəbcə tədrisi çox uzun sürmədi, həmin ilin ortalarından daha o məktəbə getmədi. Bunun səbəbini də söyləmirdi.

Bir gün məktəbin direktoru mənim yanıma gəlib dedi: "Sən Allah, siz ağa Hadinin qardaşısınız, onunla danışın, məktəbə qayıtsın”. Dedim ki, məgər nə olub?

Bir qədər dayanıb dedi: "Düzü, ağa İbrahim öz cibindən şagirdlərin birinə pul verirdi ki, hər gün birinci tənəffüsdə pendir-çörək alıb gətirsin. O, uşaqların məhrum bölgədən olduqlarını nəzərə alırdı. Bilirdi ki, sinifdə əksəri acdır və ac uşaq dərsi başa düşməz".

Direktor sözünə əlavə etdi: "Mən ağa Hadiyə etiraz edib dedim ki, məktəbimizin nizam-intizamını pozursan.

Halbuki nizam-intizama heç bir xələl gəlməmişdi. Onun üstünə qışqırıb dedim ki, daha belə bir iş görməyə haqqın yoxdur. Ağa Hadi də məktəbimizdən getdi. İndi isə şagird və valideynlər məndən onu qaytarmağımı istəyirlər. Hamı onun əxlaqını və tədrisini tərifləyir. O, qısa müddətdə məktəbin bir çox yoxsul və yetim şagirdlərinə bəzi zəruri əşyalar almışdı. Bundan hətta mənim də xəbərim olmayıb".

İbrahimlə danışıb məktəb direktorunun sözlərini çatdırdım, amma faydası olmadı. O, artıq vaxtını digər işlərlə doldurmuşdu.

İbrahim Əbu Reyhan liseyində yalnız idman müəllimi yox, həm də əxlaq müəllimi idi. Öz müəllimlərinin çempionluğunu eşidən şagirdlər onu çox sevirdilər. Əksər inqilabçıların öz zahiri görkəmlərinə əhəmiyyət vermədikləri bir dövrdə İbrahim məktəbə yaraşıqlı geyimdə və kostyumda gedirdi.

Gözəl və nurlu siması, səlis nitqi və yaxşı rəftarı onu ideal bir müəllimə çevirmişdi. Sinfi çox yaxşı idarə edir, yerində gülür, uşaqların diqqətini cəlb edirdi. Tənəffüs saatlarında məktəbin həyətinə çıxanda uşaqların çoxu onun başına toplaşırdı. Məktəbə hamıdan tez gəlib, hamıdan axırda gedirdi və ətrafı həmişə uşaqla dolu olurdu.

Siyasi cərəyanların fəallaşdığı o dövrdə İbrahim inqilaba xidmət üçün ən yaxşı yeri seçmişdi.

Yadımdadır, bəzi yuxarı sinif uşaqları siyasi cərəyanların təsiri altına düşmüşdülər. Bir axşam onları məscidə dəvət etdi, bəzi inqilabçı və məlumatlı dostlarla birgə sual-cavab məclisi təşkil elədi. Orada uşaqların bütün suallarına cavab verildi. Məclis bitəndə gecə saat iki idi.

1979-80-ci dərs ilində ağa Hadi nümunəvi müəllim seçildi. Həmin il onun ilk və son dərs ili oldu.

1980-ci ilin sentyabrında İbrahim Tehranın 12-ci rayonu üzrə müəllimliyə qəbul olundu, amma müharibə başladığına görə dərs deyə bilmədi. Həmin il onun işi olduqca çox idi: məktəbdə tədris, komitədə iş, zorxana və güləş, məsciddə fəaliyyət, heyətdə məddahlıq və digər bir çox inqilab proqramlarında əməkdaşlıq.

# *İdman müəllimi*

**Şəhid Rza Huryar**

1980-ci ilin mayı idi. Şəhidlər liseyində idman müəllimi çalışırdım. Yaxınlıqda Əbu Reyhan liseyi vardı. İbrahim də orada idman müəllimi idi.

Bir gün onu görməyə getdim. Çox söhbətləşdik. Onun düşüncəsinə və əxlaqına vuruldum. Axırda mənə dedi: "Təkbətək voleybol oynayaq?"

Məni gülmək tutdu. Mən voleybol üzrə milli komandada beynəlxalq yarışlara çıxmışdım, o isə mənimlə təkbətək oynamaq istəyirdi. Dedim ki, oynayaq. Ürəyimdə fikirləşdim ki, zəif oynayaram, pərt olmasın.

İlk servisi atdı. O qədər möhkəm idi ki, tuta bilmədim. İkincisi, üçüncüsü... Rəngim qaçmışdı.

Şagirdlərin önündə pərt oldum. Qolunun qəribə zərbəsi vardı, servislərini götürmək həqiqətən, çətin idi. Hər tərəf də uşaqlarla dolmuşdu.

Mənə baxıb bu dəfə yavaş vurdu. Mən ilk xalı qazandım, sonra da növbəti xalları.

O, bilə-bilə topları yavaş vururdu ki, mən pərt olmayım. Hesab bərabərləşdi və mən məğlubiyyətdən qurtuldum. O, servis atmaq istəyəndə səs gəldi: "Allahu Əkbər!" Günorta azanı verilirdi. Topu yerə atıb üzüqibləyə dayandı və ucadan azan verdi. Səsi bütün məktəbə yayıldı.

Uşaqların bəzisi namaza, bəzisi də evinə getdi.

O, həyətdə namaza başladı, uşaqlar da arxasında dayandılar. Hamımız ona iqtida etdik.

Namaz bitəndən sonra yaxınlaşıb mənə əl verdi və dedi: "Ağa Rza, rəqabət rəfaqətlə (dostluqla) olanda yaxşıdır".[1]

[1] İdmançı komandir Rza Huryar kar olmasa da, inqilabdan öncə karların voleybol komandasında beynəlxalq yarışda iştirak etmiş və komandaları birinci yerə çıxmışdı. O, Kərbəla-5 əməliyyatında şəhadətə qovuşdu.

# *İlk vaxtda namaz*

**Şəhidin dostları**

Namaz onun bütün fəaliyyətlərinin mərkəzində dururdu. Ən çətin şəraitdə də namazını ilk vaxtda qılırdı. Daha çox məscidə gedib camaat namazında iştirak edir, digərlərini də buna dəvət edirdi.

O, İmam Əlinin (ə) buyurduğu bu hədisin real nümunəsi idi: "Məscidə gedib-gələn adam aşağıdakı faydaları götürər: Allah yolunda yoldaşlıq edən qardaş qazanar, elm öyrənər, Allahın rəhməti onu gözləyər, fəlakətdən qurtaran nəsihət eşidər, hidayətinə və günahdan uzaqlaşmasına səbəb olan söz dinləyər".[1]

İbrahim hətta inqilabdan öncə sübh namazlarını məsciddə cəm halda qılırdı. Onun rəftarı bizə Şəhid Rəcainin məşhur cümləsini xatırladırdı: "Namaza "işim var" deməyin, işə deyin ki, namaz vaxtıdır".

Buna ən yaxşı misal zorxana meydançasında camaat namazı qılmasıdır. Namaz vaxtı olan kimi idmanı dayandırırdı və camaat namazı qılınırdı.

Səfərdə və cəbhədə olanda da azan vaxtı yetişəndə azan deyirdi, maşını saxlayıb hamını camaat namazına çağırırdı.

İbrahimin uca səsi və gözəl azanı hamının diqqətini cəlb edirdi.

O, həzrət Peyğəmbərin bu nurlu kəlamının timsalı idi: "Allah vəd edib ki, azançını və dəstəmaz alıb məsciddə camaat namazı qılan adamı hesabsız cənnətə aparsın".[2]

---

[1] "Əl-Məvaiz əl-ədədiyyə", s. 281.
[2] "Müstədrək əl-Vəsail", c. 6, s. 448.

Gənclik çağından özünə bir əba almışdı və çox vaxt onunla namaz qılırdı.

***

1980-ci il idi. Bəsicin proqramı gecənin sonlarına qədər davam etdi. Sübh azanına iki saat qalmış uşaqların işi bitdi.

İbrahim uşaqları toplayıb Kürdüstan xatirələrindən danışmağa başladı. Xatirələr həm maraqlı idi, həm də gülməli.

Beləliklə uşaqları azana qədər oyaq saxladı. Onlar sübh namazını cəm halda qıldıqdan sonra evlərinə getdilər. Sonra Bəsicin rəhbərinə dedi: "Əgər bu uşaqlar o vaxt getsəydilər, namaza oyanmaları çətin olacaqdı. Siz Bəsicin işini ya tez bitirin, ya da uşaqları azana qədər saxlayın ki, namazları qəza olmasın".

***

İbrahim gündüzlər çox zarafatcıl olurdu. O həm də çox sadə danışırdı. Adətən sübh namazından bir qədər öncə oyanıb gecə namazı qılırdı. O bu işi məxfi şəkildə görməyə çalışırdı. Son zamanlarda isə gecə ibadətləri çoxalmışdı. Bilirdi ki, hədislərdə əsl şiəliyin əlaməti gecə oyanıb namaz qılmaq kimi göstərilmişdir.

O, Kumeyl, Nüdbə və Təvəssül dualarını, hər gün sübh namazından sonra isə gündəlik dua və ziyarətnamələri oxuyurdu.

O, "Vəcəəlna"[1] ayəsini həmişə zümzümə edirdi. Bir dəfə dedim: "Ağa İbrahim, bu ayə düşmən qarşısında qorunmaqdan ötrüdür, burada düşmən yoxdur axı".

Mənalı tərzdə baxıb dedi: "Şeytandan böyük düşmənmi var?!"

---

[1] Yasin, 9: Biz onların önlərinə və arxalarına sədd çəkib (gözlərini) bağlamışıq. Buna görə də görmürlər.

***

Bir dəfə yeniyetmələrdən və namaza əhəmiyyətli yanaşmaqdan söhbət düşdü. İbrahim dedi: "Atam dünyasını dəyişəndə çox narahat idim. Birinci axşam qonaqlar gedəndən sonra Allahdan küsmüş kimi namaz qılmayıb yatdım. Məni yuxu tutan kimi yuxuda atamı gördüm. O, qapını açıb hirslə birbaş otağa gəldi. Düz qarşımda dayanıb bir qədər üzümə baxdı. O anda diksinib yuxudan oyandım. Atamın baxışları mənə çox söz dedi. Hələ namaz qəzaya getməmişdi. Ayağa qalxıb dəstəmaz aldım və namazımı qıldım.

***

Onun çox əhəmiyyətli yanaşdığı məsələlərdən biri də cümə namazı idi. Hərçənd cümə namazı qaydasına düşəndə İbrahim ya Kürdüstanda idi, ya da cəbhələrdə.

Tehranda olanda isə həmişə cümə namazında iştirak edir və deyirdi: "Bilirsiniz cümə namazının nə qədər savabı və faydası var?!"

İmam Sadiq (ə) buyurur: "Allah cümə namazı üçün atılan hər bir addıma görə cəhənnəm odunu haram edər".[1]

[1] Hədislərdə namaz, s. 101.

# *Oğru ilə rəftarı*

**Abbas Hadi**

Otaqda oturmuşduq. Qonağımız vardı. Birdən küçədən səs gəldi. İbrahim tez pəncərədən baxdı. Bir nəfər onun yeznəsinin motosikletini götürüb qaçmaq istəyirdi.

– Tutun onu... Oğru! Oğru!

Bunu deyib tez qapıya qaçdı. Məhəllə uşaqlarından biri motosikletə bir təpik vurdu, oğru motosikletlə birgə yerə yıxıldı.

Yerdəki bir dəmir parçası oğrunun əlini kəsib qanatdı. Oğrunu qorxu və həyəcan bürümüşdü, əli də ağrıyırdı. İbrahim motosikleti işə salıb dedi: "Tez min".

Həmin motosikletlə poliklinikaya getdilər, orada əlini sarıdılar, sonra birlikdə məscidə getdilər. Namazdan sonra onun yanında oturub dedi: "Nə üçün oğurluq edirsən? Axı haram pul..."

Oğru ağlamağa başladı. Bir qədər sonra dillənib dedi: "Bunların hamısını bilirəm. Mən işsizəm, ailəm var, rayondan gəlmişəm. Buna məcbur oldum".

İbrahim bir qədər fikirləşəndən sonra namazqılanların birinin yanına getdi və onunla nəsə danışdı. Gülərüzlə qayıdıb dedi: "Allaha şükür, sənə yaxşı iş tapıldı. Sabahdan işə çıxırsan. Bu pulu al, Allahdan da istə sənə kömək etsin. Həmişə halal ruzi axtar. Haram mal həyatı yandırar, halal pul az olsa da, bərəkətli olar".

# *Müharibənin başlanması*

**Tağı Misgərha**

1980-ci il, sentyabr ayının 22-i idi. İbrahimi qardaşı ilə birgə gördüm, harasa daşınırdılar. Salamlaşıb dedim: "Bu gün Qasim bir maşın əşya ilə Kürdüstana gedir. Biz də onunla gedəcəyik".

Təəccüblə soruşdu: "Nə olub ki?"

– Yenidən döyüş başlaya bilər.

– Yaxşı. Başlasa, mən də gələrəm.

Həmin gün günorta İraq təyyarələri ölkəmizə hücum etdi və müharibə başlandı. Hamı küçədə göyə baxırdı.

Günortadan sonra saat 4-də küçədə idik. Qasim Təşəkküri ərzaq dolu bir yük avtomobili ilə gəldi. Əli Xürrəmdil də orada idi. Mən də maşına mindim. Yola düşmək istəyəndə İbrahim də gəlib maşına mindi.

– Dadaş İbrahim, məgər siz köçmürdünüz?!

– Əşyaları yeni evə qoyub gəldim.

Müharibənin ikinci günü günortadan qabaq çox çətinliklə və bir neçə torpaq yoldan keçib Sərpol Zəhaba çatdıq. Heç kim gözlərinə inanmırdı: əhali dəstə-dəstə şəhərdən qaçırdı.

Şəhərdən raket və bomba səsləri gəlirdi. Nə edəcəyimizi bilmirdik. Şəhərin girişində bir döngədən keçdik. Korpusun uşaqları uzaqdan bizə əl yelləyirdilər. Dedim: "Qasim, uşaqlar işarə verirlər ki, tez gəlin".

Birdən İbrahim dedi: "Oraya baxın!"

İraq tankları təpənin üstündə aydın görünürdü, dayanmadan atəş açırdılar. Maşının yaxınlığına bir neçə mərmi düşdü, amma Allaha şükür ki, salamat qurtardıq.

Döngədən keçdik. Bizə əl yelləyən döyüşçü yaxınlaşıb dedi: "Siz kimsiniz? Mən işarə ilə deyirdim ki, gəlməyin, sizsə qaza basdınız".

Qasim soruşdu: "Burada nə olub? Komandir kimdir?"

Həmin döyüşçü cavab verdi: "Ağa Bürucerdi şəhərdə uşaqların yanındadır. Bu gün səhər iraqlılar şəhərin çoxunu tutmuşdular, uşaqların əks-hücumundan sonra geri çəkildilər".

Yolumuzu davam etdirib şəhərə girdik, maşını təhlükəsiz bir yerdə saxladıq. Qasim orada iki rəkət namaz qıldı.

İbrahim yaxınlaşıb təəccüblə soruşdu: "Qasim, bu, nə namazı idi?" Qasim də çox soyuqqanlılıqla dedi: "Kürdüstanda İslam və inqilab düşmənləri ilə vuruşanda həmişə Allahdan istəyirdim ki, əsir düşməyim və əlil olmayım. Bu dəfə isə istədim ki, mənə şəhadət nəsib etsin, daha dünyaya dözə bilmirəm".

İbrahim onu çox diqqətlə dinləyirdi. Sonra birlikdə Məhəmməd Bürucerdinin yanına getdik. O, Qasimi tanıyırdı. Gəlişimizə çox sevindi.

Bir qədər danışandan sonra bir yeri göstərib dedi: "İki batalyon əsgər o tərəfə getdi. Komandirləri yoxdur. Qasim can, gör onları şəhərə gətirə bilərsənmi?!"

Birlikdə yola düşdük. Ora əsgərlə dolu idi. Hamısı silahlı və hazırlıqlı idi, amma çox qorxurdular, İraq tərəfdən belə bir hücuma hazır deyildilər.

Qasimlə İbrahim gedib onlarla danışdılar. Onlara elə sözlər dedilər ki, çoxu qeyrətə gəldi. Axırda da dedilər: "Kim mərddir, qeyrəti varsa və namusunun düşmən əlinə keçməsini istəmirsə, bizimlə gəlsin".

Bu söhbətdən sonra əsgərlərin təxminən hamısı yola düşdü.

Şəhərə qayıdıb səngər hazırlamağa başladıq. Əsgərlərin bir neçəsi dedi ki, bizim 106 kalibrli toplarımız da var.

Qasim yaxşı bir yer tapdı. Topları oraya apardıq və atəş açmağa başladılar. Bir neçə mərmidən sonra İraq tankları geri çəkilib mövqeləri boşaltdılar. Uşaqlarımız bundan ruhlandılar.

Müharibənin ikinci gününün qürub çağı idi. Qasim əsgərlərin səngərinin yaxınlığında bir ev tapıb qərargah etdi, sonra mənə dedi: "İbrahimə de gəlsin, Təvəssül duası oxuyaq".

Çərşənbə axşamı idi. Mən aralanandan sonra birdən evin önünə bir mərmi düşdü. Öz-özümə dedim: Allaha şükür ki, Qasim otağa girib. Bu fikirlə geri qayıtdım. İbrahim də partlayışın səsini eşidib cəld bizim yanımıza gəldi.

Otağa girəndə gözlərimizə inanmadıq. Mərci boyda bir qəlpə pəncərədən keçib düz Qasimin sinəsinə dəymişdi. Qasim namaz qıldığı halda arzusuna qovuşmuşdu.

Məhəmməd Bürucerdi xəbəri eşidəndə çox narahat oldu. Həmin axşam Qasimin cənazəsinin yanında Təvəssül duası oxuduq, ertəsi gün isə cəsədini Tehrana yola saldıq.

Bir gündən sonra qərargahda bizə silah anbarına baxmaq tapşırıldı. Təxminən silahla dolu bir məktəbi təhvil aldıq.

Bir gün orada qaldıq. Təhlükəli olduğuna görə silah-sursatı şəhərdən çıxardılar. İbrahim zarafata deyirdi: "Uşaqlar, burada Allahı çox xatırlayın, çünki bir raket düşsə, bizdən heç nə qalmayacaq".

Silah anbarı boşalandan sonra döyüş yerinə yollandıq. Sərpol Zəhabın qərbində səngərlər düzəldilmişdi. Şəxsi heyətə Əsğər Vüsali və Əli Qurbani kimi bir neçə təlim keçmiş komandir başçılıq edirdi. Pavə bölgəsində onların

Qırmızıdəsmallılar adlı bir partizan dəstələri vardı. Həmin dəstə ilə birgə Sərpola gəlmişdilər.

Şəhərdə gəzəndə dostlarımızdan bir neçəsini tapdıq: Məhəmməd Şahrudi, Məcid Fəridvənd və sair. Onlarla birlikdə təmas xəttinə getdik.

Təpənin başındakı səngərdə bizə dedilər: "Qarşıdakı təpədə bizimlə düşmən arasında döyüş gedir, digər təpələrdə də iraqlılar yerləşiblər".

Bir neçə dəqiqədən sonra uzaqdan bir İraq əsgəri göründü. Hamı atəş açmağa başladı.

İbrahim qışqırdı: "Nə edirsiniz?! Patronları bitirdiniz".

Uşaqların hamısı dayandı. İbrahim bir müddət Kürdüstanda olmuş və yaxşı hərbi təlim keçmişdi. O dedi: "Gözləyin, düşmən yaxınlaşsın, sonra atəş açın".

Bu zaman iraqlılar təpənin aşağısından atəş açmağa başladılar. Üstümüzə dayanmadan raket və mərmi yağırdı.

Sonra da bizim səngərlərimizə doğru gəlməyə başladılar. Əllərinə ilk dəfə silah götürmüş döyüşçülər bunu görüb arxadakı səngərlərə qaçdılar. Onlar çox qorxmuşdular. Komandir qışqırdı: "Dayanın! Qorxmayın!"

Bir qədər sonra düşmənin atəş səsi azaldı. Səngərin bayırına baxdım. Onlar bizə çox yaxınlaşmışdılar. Birdən İbrahim dostlarımızdan bir neçəsi ilə birgə düşmənlərə hücum etdi. Onlar səngərdən bayıra qaça-qaça qışqırırdılar: "Allahu Əkbər!"

Bir neçə dəqiqə ərzində bir neçə iraqlı öldürüldü, on biri əsir götürüldü, qalanı isə qaçdı.

İbrahim tez onları şəhərə apardı. İbrahimin bu hərəkətindən bütün uşaqlar ruhlandılar. Bir neçə nəfər tez-tez əsirlərin fotosunu çəkirdi. Bəziləri də İbrahimlə yadigar şəkil çəkdirirdilər.

Bir saatdan sonra Sərpol şəhərinə girdik. Orada öyrəndik ki, yol bağlı olduğundan Qasimin cəsədi hələ qarnizonda qalıb. Biz də yola düşdük və müharibənin beşinci günündə Qasimin cəsədini öz avtomobili ilə Tehrana gətirdik.

Tehranda izdihamlı dəfn mərasimi keçirildi və müqəddəs müdafiənin ilk şəhidi torpağa tapşırıldı.

Dəfnə çoxlu adam gəlmişdi. Əli Xürrəmdil ucadan oxuyurdu:

"Ey şəhid komandirim! Yolun davam edəcək!"

# *İkinci iştirak*

**Əmir Məncər**

Sentyabrın 29-da korpusun Əməliyyat bölməsinin uşaqları ilə döyüş bölgəsinə getdik. Yolda Həmədan korpusunun qərargahında bir az dayandıq.

Günorta azanı idi. Korpus qüvvələri ilə döyüş bölgəsinə gedən qardaş Bürucerdini orada ziyarət etdik.

İbrahim azan verirdi. Uşaqlar namaza hazırlaşırdılar. Onlarda qəribə mənəvi hal yarandı. Məhəmməd Bürucerdi dedi: "Əmir ağa, bu İbrahim haralıdır?"

– Öz məhəlləmizdəndir, Xorasan meydanından.

– Gözəl səsi var. Onu bir-iki dəfə cəbhədə görmüşəm, cəsarətli gəncdir. Mümkün olsa, onu Kermanşaha bizim yanımıza gətir.

Camaat namazından sonra yola düşdük. İkinci dəfə idi Sərpol Zəhaba gedirdik. Əsğər Vüsali çox rəşadətli və qorxmaz komandirlərdən idi. O gələndən sonra bölgədə bir qədər sabitlik yaranmışdı. İbrahim onu çox sevir və həmişə deyirdi: "Əsğər kimi cəsarətli, qorxmaz və təşkilatçı bir partizan görməmişəm. O hətta həyat yoldaşını da cəbhəyə gətirib. Özünün silah anbarına bənzəyən peykan avtomobili ilə bütün cəbhələrə baş çəkir”.

Əsğər də İbrahim haqda yüksək fikirdə idi. Bir dəfə kəşfiyyat və əməliyyat planı olanda İbrahimə dedi: "Hazırlaş, kəşfiyyata gedək".

Əsğər kəşfiyyatdan qayıdanda dedi: "Mən inqilabdan öncə Livanda vuruşmuşam, Kürdüstandakı bütün döyüşlərdə iştirak etmişəm. Bu gənc isə heç bir hərbi təlim görmədən belə məharətlidir və hərbi sirləri çox yaxşı bilir".

Məhz buna görə də, əməliyyatlarda İbrahimdən yardım alırdı.

Onlar bir hücumda heç bir itki vermədən düşmənin 8 tankını partladıb çoxlu canlı qüvvəsini əsir tutdular.

Əsğər Vüsali Əbuzər qarnizonunun binalarından birini könüllü döyüşçülərə verdi, onları lazımi bölüklərə ayırıb şəhərdə nizam-intizam yaratdı.

Şəhər bir qədər qaydasına düşəndə İbrahim digər döyüşçülərlə birgə zorxana idmanını təşkil etdi. Hər gün səhər çağı bir qazanla zərb vurub isti nəfəsi ilə oxuyur, Əsğər də miyandar olurdu. J3 silahı zorxana milini əvəzləyirdi. Top mərmilərindən və digər silahlardan da idman alətləri hazırlamışdılar.

Komandirlərin biri deyirdi: "O günlərdə şəhərdə qalan əhalinin çoxu, habelə tibb işçiləri və döyüşçü uşaqlar səhərlər zorxanaya gəlirdilər".

Beləliklə, onlar şəhərə həyat və ümid ruhunu qaytardılar. İbrahim həqiqətən, böyük insan idi.

***

İmam Sadiq (ə) buyurur: "İnsanın gördüyü hər yaxşı işə bir savab təyin olunub, gecə namazından başqa. Bu namaz o qədər əhəmiyyətlidir ki, Allah onun savabını bəlli etməyərək buyurmuşdur: "Onlar ibadət üçün yataqlarından qalxar, qorxu və ümid içində Rəbbinə dua edər və onlara verdiyimiz ruzilərdən sərf edərlər. Etdikləri əməllərin mükafatı olaraq onlar üçün göz oxşayan nə cür nemətlər gizlənib saxlandığını heç kəs bilməz!"[1]

Sərpol Zəhabda qaldığımız qısa müddətdə İbrahim adətən, sübh azanına bir-iki saat qalmış yuxudan oyanır, uşaqlara baş çəkmək adı ilə istirahət yerindən uzaqlaşırdı.

---

[1] Səcdə, 16-17.

Mən şübhə etmirdim ki, o, gecənin oyaqlığından həzz alır və gecə namazı qılır.

Bir dəfə sübh azanına bir saat qalmış çətinliklə bir qab tapdı. Qüsl verib gecə namazı qılmağa hazırlaşırdı.

# *Təsbeh zikri*

**Əmir Sipehrnejad**

1980-ci ilin 2 oktyabrı idi. İbrahim iki gün idi yoxa çıxmışdı. Xəbər öyrənmək üçün Müharibə Əsirləri Komitəsinə getdim, amma faydası olmadı. Gecənin yarısına qədər çox narahat halda oyaq idim. Ən səmimi dostumdan heç bir xəbərim yox idi. Sübh namazından sonra bayıra çıxdım. Əbuzər Qarnizonuna qəribə sükut çökmüşdü. Həyətdə torpağın üzərində oturdum. İbrahimlə bağlı bütün xatirələrim gözlərim önünə gəlirdi.

Hava hələ işıqlanmamışdı. Birdən səs gəldi, qarnizonun qapısı açıldı və bir neçə nəfər içəri girdi. Havanın alaqaranlığında gözümü onların üzünə dikdim. Birdən diksinib yerimdən qalxdım. Özü idi, onlardan biri İbrahim idi. Qaçdım və onunla görüşüb qucaqlaşdıq.

O anın sevinci vəsfə sığmaz. Bir qədər sonra uşaqlarla birgə oturduq. İbrahim həmin üç gündə baş verənləri danışdı:

"Bir maşınla irəli getmişdik. İraqlıların haraya qədər gəldiklərini bilmirdik. Bir təpənin yanında mühasirəyə düşdük. Yüzə yaxın düşmən təpədən və düzənlikdən bizə atəş açırdı. Beşimiz də təpənin yanında bir çalaya uzanıb atəş açmağa başladıq. Axşama qədər müqavimət göstərdik. Hava qaralanda onlar geri çəkildilər. Yoldaşlarımızdan yolu tanıyan iki nəfər şəhid oldu.

Biz səngərdən çıxdıq. Ətrafda heç kim yox idi. Təpənin arxasındakı ağacların arasına girib şəhidlərin cəsədini gizlətdik. Yorulmuş və acmışdıq. Günəşin batdığı istiqamətdən qibləni təxmin edib namaz qıldıq. Namazdan sonra yoldaşlarıma dedim: "Bu problemi aradan qaldırmaq

üçün həzrət Zəhra (ə) təsbehini zikr edin. Qızı çox çətinlikdə olanda Peyğəmbərimiz bu zikri öyrətmişdi".

Zikrdən sonra qabaqkı səngərə qayıtdıq. İraqlılar yox idilər, bizim sursatımız da az idi. Birdən təpənin yanında bir neçə düşmən ölüsünü gördüm. Onların silahlarını, patronlarını və əl qumbaralarını götürdük. Yeməyə də bir şey tapıb yola düşdük. Lakin haraya getməli olduğumuzu bilmirdik.

Hava qaralmışdı və ətrafımızda geniş düzənlik vardı. Əlimdəki təsbehlə daim zikr deyirdim. Yorğun, qaranlıq gecə, özü də düşmənlərin arasında... Lakin çox soyuqqanlı idik.

Gecənin yarısı düzənlikdə torpaq bir yol tapıb getməyə başladıq. Böyük bir posta çatdıq. İçəridə radar da var idi, səngərlər də görünürdü. Oranı bir neçə gözətçi qoruyurdu. Biz harada olduğumuzu bilmirdik, qayıtmağa, sağ qalacağımıza ümidimiz yox idi. Buna görə qəribə bir qərara gəldik. Sonra təsbehlə istixarə etdim və yaxşı gəldi. Biz də işə başladıq.

Allahın köməyilə əl qumbarası və avtomat gülləələri ilə o postu dağıtdıq. Radarı zərərsizləşdirəndən sonra üçümüz də oradan uzaqlaşdıq və yolumuza davam etdik.

Səhərə yaxın təhlükəsiz bir yer tapıb bütün günü istirahət etdik. İnanılası deyildi, çox soyuqqanlı və sakit idik. Hava qaralanda yenə yola düşdük və Allahın köməyilə öz mövqelərimizə çatdıq".

Sonra İbrahim əlavə etdi: "Bu müddətdə bizim yaşadıqlarımızın hamısı Allahın lütfü idi. Həzrət Zəhra (ə) təsbehinin zikri bizim çoxlu problemlərimizi həll etdi. Düşmən də imansız olduğuna görə bizimkilərdən qorxur. Biz nizamsız döyüşləri bacardığımız qədər artırmalıyıq".

# *Əlməhdi qəsəbəsi*

**Əli Müqəddəm, Hüseyn Cahanbəxş**

Bir ay idi müharibə başlamışdı. İbrahim Hacı Hüseynlə və digər dostları ilə birgə Sərpol Zəhabın yaxınlığındakı Əlməhdi qəsəbəsinə gedib orada müdafiə səngərləri qurdular.

Cəm halda qılınan sübh namazı bitdi. Uşaqların İbrahimi axtardıqlarını duydum. Təəccüblə nə baş verdiyini soruşdum. Dedilər ki, axşamdan bəri İbrahimdən xəbər yoxdur.

Mən də uşaqlarla birgə səngərləri və nəzarət postlarını axtarmağa başladım. İbrahimi görən yox idi.

Bir saatdan sonra nəzarət postundakı uşaqların biri dedi: "Qarşıdakı cığırdan bir neçə nəfər buraya gəlir".

Həmin cığır düşmənlə bizim aramızda idi. Dərhal posta qalxıb baxdıq. Qolları bağlı on üç düşmən əsgəri bizə doğru gəlirdi. İbrahim və uşaqlardan başqa biri onların arxasından irəliləyirdi. Onlarda çoxlu silah, daraq və əl qumbarası var idi.

Heyrətamiz olsa da, İbrahim başqa bir döyüşçü ilə birgə belə bir qəhrəmanlıq etmişdi; özü də Əlməhdi qəsəbəsində silah-sursatın az olduğu bir şəraitdə. Orada bəzi döyüşçülərin silahı da yox idi.

Uşaqların biri sevincək yaxınlaşıb ilk düşmən əsgərinin üzünə möhkəm bir sillə vurdu.

- Muzdur iraqlı!

Bir anlığa hamı sakit oldu. İbrahim əsirlərin yanından keçib həmin gəncin qarşısında dayandı, silahları bir-bir çiynindən yerə qoydu və sonra qışqırdı: "Onu niyə vurdun?"

Gənc çox təəccübləndi və dedi: "Nə olar ki?! O, düşməndir".

İbrahim gözlərini onun üzünə dikib dedi: "Əvvəla o, düşmən olub, indi isə əsirdir. İkincisi isə bunlar nə üçün bizimlə vuruşduqlarını bilmirlər, sən belə başa salırsan?!"

Gənc döyüşçü bir neçə saniyədən sonra dedi: "Bağışlayın, mən bir az həyəcanlandım".

Sonra gedib iraqlı əsgərin alnından öpdü və üzr istədi. Təəccüblə bizim hərəkətlərimizi izləyən düşmən əsgəri İbrahimə baxdı. Onun baxışında çoxlu sözlər vardı.

***

Müharibə başlayandan iki ay sonra İbrahim məzuniyyətə gəldi. Dostlarla onu görməyə getdik.

İbrahim bizə müharibə xatirələrindən, orada baş verən hadisələrdən danışırdı, özü barədə isə heç nə demirdi. Söhbət döyüşçülərin namazından və ibadətindən düşəndə birdən gülüb dedi: "İlk günlərdə Əlməhdi bölgəsində bizə beş gənc qoşuldu. Onlar bir kənddən birlikdə cəbhəyə gəlmişdilər. Bir neçə gündən sonra bildim ki, namaz qılmırlar. Onlarla söhbət etdim. Çox sadə uşaqlar idilər; nə savadları vardı, nə də namaz qılmağı bilirdilər. Onlar yalnız İmam Xomeynini sevdiklərinə görə cəbhəyə gəlmişdilər.

Özləri də namazı öyrənmək istəyirdilər. Mən onlara dəstəmaz qaydasını öyrədəndən sonra uşaqların birini səsləyib dedim: "Bu ağa sizin pişnamazınızdır; nə etsə, təkrarlayın. Mən də sizin yanınızda dayanıb namazın zikrlərini ucadan deyəcəyəm ki, öyrənəsiniz”.

İbrahim burada özünü saxlaya bilməyib ucadan güldü. Bir az sonra sözünə davam etdi: "Birinci rəkətdə Həmd surəsini oxuyanda pişnamaz başını qaşımağa başladı. Gördüm ki, onların beşi də başlarını qaşıdılar. Məni bərk

gülmək tutdu, amma özümü saxladım. Pişnamaz səcdədən qalxanda möhür alnına yapışmışdı və oradan yerə düşdü. Pişnamaz möhürü götürmək üçün sol tərəfə əyildi. Bir də gördüm ki, onların hamısı sol tərəfə əyilib əllərini uzatdılar. Burada artıq özümü saxlaya bilməyib gülməyə başladım".

# *Problemləri həll edən insan*

## Şəhidin dostlarından biri

Peyğəmbərdən soruşdular ki, hansı mömininin imanı daha kamildir? Buyurdu ki, Allah yolunda canı və malı ilə mübarizə aparanın.[1]

Həzrət Rəsul diviziyasının keçmiş komandiri Məhəmməd Kövsəri İbrahim haqda deyirdi:

"Müharibənin ilk günlərində Sərpol Zəhabda İbrahimə dedim: "Qardaş Hadi, sizin maaşınız hazırdır, nə vaxt uyğun görsəniz, gəlib alın".

Cavabda çox yavaşdan dedi: "Siz Tehrana nə vaxt gedirsiniz?"

– Həftəsonu.

– Üç ünvan yazaram, Tehrana gedəndə maaşımı həmin evlərə verərsiz.

Mən dediyini etdim. Sonra bildim ki, hər üç ev başqasına ağız açmayan yoxsul ailələrin evləri imiş".

***

Cəbhədən qayıdırdım. Xorasan meydanına çatanda üstümdə heç bir pul qalmadı. Fikirli idim ki, evə çatanda yoldaşım və uşaqlarım məndən pul istəyəcəklər. Hələ evin kirayə pulunu da verməliyəm. Düşünürdüm ki, haraya gedim, kimə ağız açım? Qardaşımın yanına getmək istədim, amma onun da vəziyyəti yaxşı deyildi.

Arif dördyolunda dayanmışdım. Düşündüm ki, gərək yalnız Allah kömək etsin, mən nə edəcəyimi bilmirəm.

Bu fikirdə idim ki, birdən İbrahimi gördüm. Motosikletlə mənə doğru gəlirdi. Çox sevindim. Görən

---

[1] "Əl-Hikəm əl-zahirə", c. 2. s. 280.

kimi motosikletdən enib məni qucaqladı. Bir neçə dəqiqə söhbət etdik. Getmək istəyəndə soruşdu: "Maaş aldın?"

– Yox, hələ almamışam, amma önəmli deyil.

Əlini cibinə salıb bir dəstə pul çıxardı. Dedim ki, yox, sənin canın üçün almaram, özünün ehtiyacın var.

– Bu, borcdur, maaşını alanda qaytararsan.

Pulu cibimə qoyub motosikletə mindi və getdi.

O pul çox bərəkətli oldu, çox problemi həll etdi və bir müddət maddi çətinliyim olmadı.

Ona çox dua etdim. Həmin gün İbrahimi Allah yetirdi və o, həmişəki kimi problemi həll etdi.

# *Şəhid Əndərzqu dəstəsi*

**Mustafa Səffar Hərəndi**

Müharibənin başlanmasından bir qədər ötdü. Korpus rəhbərliyi ölkənin qərbində bir iclas keçirdi. Qərara alındı ki, könüllü qüvvələr və korpusun uşaqları müxtəlif bölgələrə bölünsünlər.

Beləliklə, uşaqların bir qismi Sərpol Zəhabdan Sumara, bir qismi Mehran və Salehabada, bir qismi də Bostana getdi. Əməliyyat bölgələrinin komandirlərindən olan Hüseyn Allahkərəm Gilanqərb və Neftşəhr korpusunun komandiri təyin olundu.

Hüseyn Allahkərəm korpusun səkkizinci və doqquzuncu batalyonlarından bir neçə bölüklə birgə Gilanqərbə yollandı. Zorxana dövründən onunla dost olan İbrahim də Gilanqərbə getdi və onun əməliyyat üzrə müavini təyin olundu.

Gilanqərb şəhəri müxtəlif dağların arasında yerləşir. Bu şəhər Neftşəhrdən və sərhəddən 50 km. aralıda, Sərpol Zəhabdan 70 km. cənubdadır. Səddamın qoşunları bu şəhərin yaxınlığına qədər gəlmiş və dağların çoxunu ələ keçirmişdi.

Müharibənin ilk günlərində İraqın dördüncü diviziyası Gilanqərbə girdi, amma şəhərin qeyrətli kişi və qadınlarının müqaviməti sayəsində geri çəkilməyə məcbur oldu. Həmin hücumlarda yerli bir qadın oraqla iki düşmən hərbçisini öldürmüşdü.

Ondan sonra əhalinin bir qismi şəhəri tərk etdi, qalanı isə gündüzlər şəhərə gəlir, gecələr İslamabad yolundakı çadır şəhərciyinə gedirdi.

Ordunun Zülfüqar briqadası Gilanqərb şəhərinin yaxınlığında düşərgə salmışdı.

Gilanqərb korpusunun fəaliyyətindən bir qədər ötürdü. Bu müddətdə uşaqların işi ancaq düşmənin gözlənilən hücumları qarşısında müdafiə olunmaqdan ibarət idi.

İclasda təklif etdilər ki, Doktor Çəmranın cənubda və Əsğər Vüsalinin Sərpol Zəhabda yaratdığı kimi, Gilanqərbdə də bir partizan dəstəsi yaradaq.

Partizan dəstəsi yaradıldı və onun rəhbərliyi İbrahimlə Cavad Əfrasiyabiyə tapşırıldı. Uşaqların təklifi ilə dəstəyə Doktor Behiştinin adı verildi. Lakin Ayətullah Behişti bölgəyə baxış keçirərkən bunu öyrənib dedi: "Siz partizan işi görürsünüzsə, dəstənin adını Şəhid Əndərzqu qoyun. Çünki islami partizan hərəkətlərinin banisi odur".

İbrahim İmam Xomeyninin, Ayətullah Behiştinin və Böyük Rəhbərin şəkillərini dəstənin qərargahına vurdu və bununla rəsmi fəaliyyət başlandı.

Bu nizamsız partizan dəstəsinin üzvləri adından göründüyü kimi, nizamsız idilər, orada hər cür adam vardı; yeniyetmədən tutmuş qocaya, savadsızdan tutmuş fəlsəfə doktoruna, çox dindar və gecə namazı qılanlardan tutmuş namazı yeni öyrənənlərə, hövzə təhsili almış uşaqlardan tutmuş tövbə etmiş kommunistlərə qədər. Beləliklə, müxtəlif zümrələri təmsil edən insanlar çox səmimi və sevimli bir ortamda bir araya gəldilər.

Üzvlərinin sayı təxminən 40 nəfərə çatan dəstənin ortaq xüsusiyyəti qorxmazlıq və ruh yüksəkliyi idi. Praktik olaraq dəstəyə başçılıq edən İbrahim həmişə deyirdi: "Bizim komandirimiz yoxdur". O, dəstəni dostluq və qardaşlıqla çox yaxşı idarə edirdi.

Dəstənin idarə sistemi elə qurulmuşdu ki, bütün işlər könüllü şəkildə görülürdü və təxminən heç kim başqasına bir söz demirdi.

Bütün işlər ümumi razılıqla görülürdü. Cavad Əfrasiyabi və Rza Qudini İbrahimin həmişəki yoldaşları idilər.

***

Dəstənin gündəlik işlərindən biri yerli əhaliyə kömək etmək idi. Gilanqərb sakinlərindən çoxu bu yolla dəstəyə qatıldı.

Əndərzqu dəstəsinin fəaliyyəti daha çox kəşfiyyatdan ibarət idi. Onlar dağlardan keçib düşmənin nəzarət etdiyi yerlərə dair dəqiq xəritələr hazırlayırdılar. İbrahimin kəşfiyyat üsulu çox gözəl idi: gecə yarısı bir neçə nəfərlə birgə düşmən mövqelərinə keçib onların yerləşdiyi yerlərə və imkanlarına dair çox dəqiq məlumatlar əldə edirdilər. O deyirdi ki, kəşfiyyatımız doğru və dəqiq olmasa, əməliyyatlarda uğur qazana bilmərik.

İbrahim öz üsulunu digər kəşfiyyatçılara da öyrədib deyirdi: "Qəlbində qorxu olan adam uğurlu kəşfiyyatçı ola bilməz". Sonra da kəşfiyyatda dəqiqliyin sirləri haqda danışırdı. Buna görə də, dəstədə çox yaxşı və seçilmiş kəşfiyyatçılar, hətta cəsarətli komandirlər yetişdi.

Nəcəf qərargahının kəşfiyyat qanadı olan Hürr briqadasının komandiri deyirdi: "İbrahim öz üsulları ilə bu briqadanın əsasını qoydu, lakin briqada yaranmazdan öncə şəhadətə qovuşdu".

Şəhid Əndərzqu partizan dəstəsi özünün birillik fəaliyyətində 52 əməliyyat keçirdi. Onlar İraqın qərbdəki dördüncü diviziyasını təngə gətirdilər və ağır itkilərə məruz qoydular.

Bu kiçik dəstədə böyük insanlar yetişdi. Bizim müqəddəs müdafiə dövrümüz onların rəşadətlərinə borcludur. İbrahimdən öyrənib onunla eyni dəstədə olduqlarına görə fəxr edən cəsur döyüşçülər bunlardır:

Həzrət Rəsul diviziyasının komandiri Şəhid Rza Çırağî, diviziyanın komandir müavini Şəhid Rza Dəstvarə, istiqamət komandiri Şəhid Həsən Zamani, Meysəm batalyonunun komandiri Şəhid Seyid Əbülfəz Kazimi, Hüneyn batalyonunun komandiri Şəhid Rza Qudini, Müslim ibn Əqil briqadasının komandir müavini Şəhid Məhəmmədrza Əlövsət, Malik batalyonunun komandiri Şəhid Daryuş Rizəvəndi, Miqdad batalyonunun komandir müavinləri Şəhid İbrahim Hisami və Şəhid Haşim Kəlhür, diviziyanın kəşfiyyat komandirlərindən Şəhid Cavad Əfrasiyabi və Şəhid Əli Xürrəmdil, həmçinin müqəddəs müdafiə dövrünün hazırda yaşayan və İslam qurluşunun fəxrlərindən olan bir neçə böyük komandiri.

## *Əsğər Vüsalinin şəhadəti*

**Əli Müqəddəm**

1980-ci ilin məhərrəmliyində mühüm bir hadisə baş verdi. Əsğər Vüsali və Əli Qurbani şəxsi heyətləri ilə birgə Sərpol Zəhabdan Gilanqərbə gəldilər. Qərara alındı ki, düşmən mövqelərini öyrənəndən sonra şəhərin şimal istiqamətindən əməliyyat hücumu olsun.

O günlərdə Əndərzqu partizan dəstəsi yeni təşkil olunmuşdu və onlar düşmən mövqelərinin bir qismini öyrənmişdilər. Aşura gecəsi bütün uşaqlar korpusun qərargahına toplaşdılar. Möhtəşəm əzadarlıq keçirildi. İbrahimin o məclisdəki məddahlığını uşaqların çoxu xatırlayır. O, qəribə şövqlə oxuyurdu, Əsğər Vüsali də əzadarların nizamlayıcısı idi. Aşura günü Əsğər uşaqların bir neçəsi ilə birgə Bəraftab bölgəsinə kəşfiyyata getdi. Günortaya yaxın xəbər gəldi ki, onlar İraqın bir pusqusu ilə döyüşə girmişlər. Uşaqlar özlərini çatdırdılar, düşmən qüvvələri də tez geri çəkildi. Lakin Əli Qurbani orada şəhadətə qovuşdu, ağır yaralandığına görə Əsğərin sağ qalacağına da ümid yox idi.

Əsğər Vüsalini tez geriyə yolladıq, amma o da şəhidlər karvanına qoşuldu.

Əsğərin şəhadətindən sonra İbrahim ucadan ağlayıb deyirdi: "Heç kim bilmir ki, necə komandiri əldən verdik. İnqilabımızın Əsğər kimilərə çox ehtiyacı vardı".

Əsğər, şəhid qardaşının qırxı çıxmamış Aşura günü şəhadət məqamına nail oldu.

İbrahim dəfn üçün Tehrana getdi və Əsğərin Gilanqərbdə qalmış peykan avtomobilini də apardı. Maşına o qədər qəlpə dəymişdi ki, demək olar, sağlam bir yeri qalmamışdı.

Şəhid Vüsalini dəfn edəndən sonra tez cəbhəyə qayıtdıq. İbrahim deyirdi ki, Əsğər şəhadətindən bir neçə gün qabaq qardaşını yuxuda görübmüş. Qardaşı ona demişdi: "Əsğər, sən Aşura günü Gilanqərbdə şəhid olacaqsan".

Ertəsi gün dəstənin uşaqları Əsğərə yas məclisi keçirdilər, əzadarlıq etdilər. Sonra söz verdilər ki, son damla qanlarına qədər cəbhədə qalıb Əsğərin intiqamını alsınlar.

Cavad Əfrasiyabi və uşaqların bir neçəsi dedilər: "Səddamı cəzalandırmayana qədər əzalı adamlar kimi saqqalımızı qırxmayacağıq".

## *Sadə görkəm*

**Şəhidin dostları**

Müharibənin ilk günlərində İbrahim çoxlu döyüşçülər üçün örnəyə çevrilmişdi. Çoxları onunla dost olmağa can atırdı. O isə tərif və şöhrətdən həmişə qaçırdı.

O, hərbi geyimə fikir vermir, uzun köynək və kürd şalvarı geyinirdi. Bununla həm yerli əhaliyə bənzəmək, həm də sadə görünməklə öz nəfsini ram etmək istəyirdi. Mən onu ilk dəfə görəndə qulluqçu sanmışdım.

İbrahim necə deyərlər, stereotipləri sındırırdı. O, zahiri görkəmdən çox məsələlərin məğzinə fikir verirdi. Uşaqlar da ondan öyrənirdilər.

O həmişə deyirdi: "Uşaqlara eyni hərbi forma verməkdən çox onların bilik və mənəviyyatları haqda düşünməli, onlarla yaxın dost olmalıyıq”.

Bu düşüncənin nəticəsi partizan əməliyyatlarında aydın görünürdü; hərçənd bəziləri onun düşüncələrini qəbul etmirdilər.

***

Kamifulyaj parça alıb bir dəst kürd paltarı tikdirmişdi. Geyinəndə çox yaraşıqlı göründü. Qərargahdan getdi. Bir saatdan sonra qayıdanda isə əsgər geyimində idi. Yeni paltarının harada olduğunu soruşdum. Dedi ki, kürd uşaqlardan birinin xoşu gəldi, mən də hədiyyə verdim.

Saatını da başqa birinə vermişdi. O adam saatı soruşmuşdu, İbrahim də saatını ona bağışlamışdı. Bu sadə işləri yerli kürdlərin onu sevmələrinə və Əndərzqu dəstəsinə qoşulmalarına səbəb oldu. İbrahim sadəliklə yanaşı siyasi məsələlərdən tam məlumatlı idi, siyasi cərəyanları yaxşı tanıyırdı.

İmam Xomeyninin və Şəhid Behiştinin şəkillərini qərargaha vurandan bir müddət sonra ozamankı prezident Bəni-Sədrin nəzarəti altında olan baş qərargahdan dəstənin buraxılmasına və ərzağının kəsilməsinə dair sərəncam verildi. Lakin bölgədəki ordu komandiri dəstənin qalmasını lazım bildi. Bizim bütün hücumlarımız bu dəstə vasitəsilə icra olunurdu. Həmin komandirin səyləri nəticəsində bir müddətdən sonra sözügedən sərəncam ləğv olundu.

Bir gün (xain prezident) Bəni-Sədrin Kermanşaha baxış keçirdiyini söylədilər. İbrahim, Cavad və başqa bir neçə nəfər Hacı Hüseynlə birgə Kermanşaha getdilər.

Hərbi komandirlər yaraşıqlı hərbi geyimdə Bəni-Sədri gözləyirdilər. Əndərzqu uşaqlarının görkəmi isə maraqlı idi. Onlar həmişəki geyimdə və enli kürd şalvarında prezidenti qarşılamağa getmişdilər. Əslində isə məqsədləri başqa idi. Onlar deyirdilər ki, biz bu adamla danışmaq istəyirik, görək hansı hərbi baxışla müharibəni idarə edir.

Həmin gün çox gözlədik, axırda elan etdilər ki, prezident helikopterdəki texniki nasazlığa görə Kermanşaha gəlməyəcək.

Bir müddətdən sonra həzrət Ayətullah Xamenei Kermanşaha gəldi. O zaman o, Tehranın cümə imamı idi. İbrahim bütün uşaqları özü ilə apardı. Onlar eyni sadə görkəmlə ağa ilə görüşdülər, bir-bir onu qucaqlayıb öpdülər.

# *İmam Həsən (ə) bölgəsi*

**Hüseyn Allahkərəm**

Düşmən mövqelərində ilk partizan əməliyyatlarına hazırlaşırdıq. Bu əməliyyat üçün İbrahim, Cavad Əfrasiyabi, Rza Dəstvarə, Rza Çıraği, mən və başqa dörd nəfər seçildik. Sonra yolları yaxşı tanıyan yerli kürdlərdən ikisi bizə əlavə olundu. Daha çox xurma və çörəkdən ibarət birhəftəlik azuqə götürdük. Çantalarımıza yetərincə silah, partlayıcı maddə və avtomobil əleyhinə mina qoyub yola düşdük.

Yüksəkliklərdən, sonra da İmam Həsən (ə) çayından keçib İmam Həsən (ə) bölgəsinə daxil olduq. Düşmənin bir briqadası oraya yerləşmişdi. Dərə-təpələrin arasında gizləndik.

Düşmən bizim o yüksəklikdən keçə biləcəyimizi güman etmirdi. Buna görə də, asanlıqla xəritə çəkməyə başladıq.

Üç gün orada qaldıq. Güclü yağıntı işlərimizə əngəl törətsə də, uşaqların səyi ilə yaxşı xəritələr hazırlandı.

Kəşfiyyat və xəritə işləri bitəndən sonra hərbi yolda avtomobil əleyhinə bir neçə mina quraşdırdıq, sonra cəld öz mövqelərimizə qayıtdıq.

Hələ çox uzaqlaşmamış bir neçə partlayış səsi gəldi. Düşmən maşınlarının yandığını gördük.

Biz sürətlə təhlükəli zonadan uzaqlaşdıq. Bir neçə dəqiqədən sonra düşmən tankları piyadalarla birgə bizi təqib etməyə başladı. Biz təpələrin arasından keçib özümüzü İmam Həsən (ə) çayına çatdırdıq. Çaydan keçəndən sonra isə tanklar bizi təqib edə bilmədi.

Çayın arxasında yaxşı bir yer tapıb istirahət etməyə başladıq. Bir neçə dəqiqədən sonra uzaqdan helikopter səsi gəldi.

Bu barədə düşünməmişdik. İbrahim dərhal xəritələri bir çantaya yığıb Rzaya verdi və dedi: "Cavadla mən qalırıq, siz tez gedin".

Başqa çarə yox idi. Əlavə daraqları və bir neçə qumbaranı onlara verdik, narahat halda onlardan ayrılıb yola düşdük.

Bütün bu əməliyyat həmin xəritələri əldə etməkdən ötrü idi. Bu, növbəti əməliyyatlarda qələbəyə çox kömək edəcəkdi.

Uzaqdan İbrahimlə Cavadın tez-tez yerlərini dəyişdirdiklərini və J3 silahı ilə helikopterə atəş açdıqlarını görürdük. Düşmən helikopteri də tez-tez dövrə vurub onlara atəş açırdı.

İki saatdan sonra yüksəkliyə çatdıq. Daha səs gəlmirdi. İbrahimi çox sevən uşaqların biri ağlayırdı. Bizim onlardan heç bir xəbərimiz yox idi, yaşayıb yaşamadıqlarını bilmirdik.

Yadıma düşdü ki, bir gün öncə dərənin içində gizlənəndə İbrahim xüsusi soyuqqanlılıqla yarış keçirir və oyun oynayırdı. O qədər soyuqqanlı idi ki, düşmən mövqelərində olduğumuz barədə əsla fikirləşmirdik.

Namaz vaxtı gələndə də ucadan azan vermək istəyirdi, lakin uşaqların israrı ilə çox yavaşca azan verdi və xüsusi mənəvi halla namaza başladı. O müddətdə İbrahim elə cəsarətli idi ki, uşaqların heç birində qorxu qalmamışdı. İndi isə axşam düşür və İbrahimlə son görüşümüzdən saatlar ötürdü.

Təyin olunmuş yerə çatdıq. İbrahim və Cavadla danışmışdıq ki, hava işıqlaşmadan öncə özlərini oraya çatdırsınlar. Biz bir neçə saat istirahət etdik, amma onlardan xəbər çıxmadı. Hava get-gedə işıqlanırdı. Oradan getməli idik. Uşaqlar daim zikr deyir, dua oxuyurdular.

Yola düşmək istəyəndə uzaqdan səs gəldi. Silahları hazırlayıb oturduq.

Bir neçə saniyədən sonra səsdən İbrahimlə Cavadı tanıdıq. Hamının üzündə sevinc yarandı. Yorğunluğunu çıxarmış uşaqlarla onlara yardıma getdik və tez oradan uzaqlaşdıq.

Həmin əməliyyatda əldə olunan xəritələr sonrakı hücumlarda çox işə yaradı. Bu isə qrupun cəsur uşaqlarının, o cümlədən İbrahim və Cavadın qəhrəmanlığı ilə mümkün olmuşdu. Ertəsi gün günorta İbrahimlə Cavad həmişəki kimi hazırlıqlı və enerjili idilər. Rza ilə İbrahimin yanına getdik. Mən dedim: "Dadaş İbrahim, dünən helikopter gələndə nə etdiniz?"

Özünəməxsus soyuqqanlılığı ilə cavab verdi: "Allah kömək etdi. Cavadla mən bir-birimizdən ayrıldıq. Tez-tez yerlərimizi dəyişdirib helikopterə atəş açırdıq. O da tez-tez dövrə vurub bizə atəş açırdı. Patronları bitəndə də dönüb getdi. Biz də piyada qüvvələr gəlməzdən öncə tez oradan uzaqlaşdıq. Əlbəttə, yadigar qalsın deyə bizə bir neçə xırda qəlpə dəydi”.

# *Əsir*

**Mehdi Fəridvənd, Mürtəza Parsaian**

İbrahim digərlərinə, hətta müharibə əsirlərinə də hörmət edirdi. O deyirdi: "Bu düşmənlərimizin çoxu cahil və məlumatsız adamlardır. Gərək həqiqi İslamı bizdən öyrənsinlər. Onda görəcəksiniz ki, onlar da Bəəs rejiminə qarşı çıxacaqlar". Məhz buna görə də bir çox əməliyyatlarda düşmənə atəş açmazdan öncə onları əsir tutmaq haqda fikirləşirdi. Əsirlərlə də çox yaxşı davranırdı.

Şəhərə üç düşmən əsiri gətirdilər. Hələ onları saxlamağa yer yox idi. Onları saxlamaq İbrahimə tapşırıldı. Bizə hansı ərzaq verilirdisə, nə yeyirdiksə, əsirlərə də ondan verirdi. Bu rəftar hamının, hətta əsirlərin də onu sevməsinə səbəb oldu.

Ərəbcə bir az bilirdi, bekar vaxtlarda oturub əsirlərlə danışırdı.

İki gün onların yanında oldu. Nəhayət, əsirləri aparmağa maşın gəldi. Onlar İbrahimdən soruşdular: "Siz də bizimlə gəlirsiniz?" "Yox" cavabı alanda isə çox narahat oldular, ağlayaraq yalvarır və deyirdilər: "Bizi burada saxla, nə istəsən, edərik. Hətta Bəəs ordusu ilə vuruşarıq da".

***

Bazideraz dağında əməliyyat başlandı. Başqa bir döyüşçü ilə birgə digərlərindən uzaqlaşıb dağın başına doğru getdik və irəlidə bir düşmən səngərinə çatdıq. Silahla işarə verdim ki, bayıra çıxsınlar. O qədər olacaqlarını düşünməzdim. Biz iki nəfər idik, onlarsa on beş nəfər. Dedim ki, bayıra çıxın, ancaq yerlərindən tərpənmədilər. Bizim aramızda elə qaldılar ki, hər an bizə

hücum edə bilərdilər. Bəlkə də bizim yalnız iki nəfər olduğumuzu düşünmürdülər.

Yenidən qışqırdım: "Hərəkət edin!" Əlimlə də işarə etdim, amma hamısı arxadakı komandirə baxırdı.

Bəəsçi zabit qaşlarını qaldırdı; yəni ki, getməyin. Çox qorxdum. O vaxta qədər elə vəziyyətə düşməmişdim. Qorxudan ağzım acılaşdı. Bir anlığa hamısını vurmağı fikirləşdim, amma bu, düzgün deyildi.

Hər an pis hadisə baş verə bilərdi. Qorxudan silahı möhkəm tutdum, Allahdan kömək istədim. Birdən səngərin arxasından İbrahimi gördüm. Bizə doğru gəlirdi. Çox rahatlaşdım. Yaxınlaşanda əsirlərə baxa-baxa dedim: "Ağa İbrahim, kömək!"

– Nə olub?

– Problem o zabitdir. Bunların çıxmasına icazə vermir.

Əlimlə zabiti göstərdim. Geyimi və poqonları fərqli idi. İbrahim silahını çiyninə atıb onlara yaxınlaşdı, bir əli ilə zabitin yaxasından, o biri əli ilə də kəmərindən tutub qaldırdı, bir neçə metr irəlidə qayanın yanına gətirdi.

Bütün iraqlılar qorxudan yerə oturub əllərini qaldırdılar. Zabit dayanmadan yalvarıb deyirdi: "Əl-dəxil! Əl-dəxil! Rəhm! Rəhm!"

Sevincimdən yerə-göyə sığmırdım. Bir qədər əvvəlki bütün qorxularım yox olmuşdu. Allah İbrahimi bizə köməyə göndərmişdi.

# *Şəbanın on beşi*

**Şəhidin dostları**

İbrahim şəban ayının on beşində axşamüstü qərargaha girdi. Gecədən ondan xəbər yox idi. Özü ilə bir düşmən əsiri də gətirmişdi.

- Ağa İbrahim, haradasan? Bu kimdir?

– Gecə düşmən mövqelərinə getmişdim. Yolun kənarında gizlənib maşınların get-gəlinə fikir verdim. Yol boşalanda gördüm ki, bir minik avtomobili mənə doğru gəlir. İçində sürücüdən başqa heç kim yox idi. Tez yolu kəsib düşmən zabitini əsir tutdum. Yolda öz-özümə dedim ki, bu da bizim İmam Mehdiyə (ə) hədiyyəmiz olsun. Lakin sonra sözümə peşman oldum, düşündüm ki, biz hara, İmam Mehdiyə (ə) hədiyyə vermək hara?!"

Həmin gün uşaqlarla bir yerə toplaşdıq. Hər bir mövzuda söhbət oldu. Bir nəfər İbrahimdən soruşdu: "Səncə, ən yaxşı komandirlər kimlərdir?"

İbrahim bir az fikirləşib dedi: "Korpusda Məhəmməd Bürucerdi kimisini tanımıram. Məhəmməd elə bir iş gördü ki, təxminən heç kimin ağlından keçmirdi. O qədər problemə rəğmən, Kürdüstanda müsəlman kürd peşmərgələrini yaratdı və Kürdüstanı qaydasına saldı. Ordu komandirləri arasında mayor Əli Səyyad Şirazi kimisi yoxdur. O, sadə könüllü uşaqlardandır. Ağa Səyyad hərbçi olmazdan öncə mömin və hizbullahçı bir gəncdir. Hərbi Hava Qüvvələrində də nə qədər axtarsan, kapitan Şirudidən yaxşısı tapılmaz. Şirudi Sərpol Zəhabda öz helikopteri ilə düşmənin bir neçə əks-hücumunun qarşısını aldı. O, aviabazanın komandiri olsa da, o qədər sadə yaşayır ki, görsəniz, təəccüb edərsiniz. Bədən Tərbiyəsi Komitəsindən bir neçə idman ayaqqabısı göndəriləndə

birini Şirudiyə verdim. Komandir olsa da, düz-əməlli ayaqqabısı yox idi”.

Həmin gün söhbət öz arzularımıza çatdı. Hərə bir söz dedi. Çoxunun arzusu şəhid olmaq idi.

Şəhid Seyid Əbülfəz Kazimi zarafata dedi: "Allah yaxşı və pak bəndələrini ayırır. Biz buna görə tez-tez günah edirik ki, mələklər yanımıza gəlməsinlər. Biz hələ yaşamaq istəyirik".

Uşaqlar gülüşdülər. Növbə İbrahimə çatdı. Hamı onun arzusunun nə olduğunu bilmək istəyirdi. O, bir az dayanıb dedi: "Mənim arzum şəhadətdir, amma hələ yox. Mən istəyirəm ki, İsraillə müharibədə şəhid olum".

***

Sübh çağı pusqu səngərlərindən Gilanqərbə qayıtdım. Korpusun qərargahına girdim. Həmişəkindən fərqli olaraq, orada heç kim yox idi.

Bir qədər axtardım, heç kimi tapmadım. Çox qorxdum. Düşündüm ki, birdən düşmənlər şəhəri ələ keçirmiş olarlar. Həyətdə qışqırdım: "Kimsə yoxdur?" Bir otağın qapısı açıldı, uşaqların biri işarə ilə məni yuxarı çağırdı.

Otağa girdim. Hamı sakit halda üzüqibləyə oturmuşdu.

İbrahim yandakı otaqda tək oturub yanıqlı səslə oxuyur, İmam Mehdi (ə) ilə dərdləşirdi. Səsində elə qəribə kədər vardı ki, hamı ağlayırdı.

# *Mükafat*

**Qasim Şəban**

Qərb bölgəsindəki partizan əməliyyatlarından biri bitdi. Uşaqları geri göndərdik.

Əməliyyatdan sonra bir-bir səngərlərə baxdıq. Heç kim qalmamışdı. Biz qayıdan son adamlar idik.

Gecə saat bir idi. Beşimiz bir müddət yol getdik. İbrahimə dedim: "Ağa İbrahim, çox yorulmuşuq, mümkünsə burada istirahət edək".

İbrahim razılaşdı və uyğun bir yerdə istirahətə başladıq.

Hələ yuxuya getməmiş düşmən tərəfdən kiminsə bizə yaxınlaşdığını hiss etdim. Yerimdən hoppanıb ehtiyatla baxdım. Düz anlamışdım, ay işığında aydın görünürdü: bir iraqlı bir nəfəri çiyninə atıb bizə yaxınlaşırdı.

Çox asta səslə İbrahimi çağırdım. Ətrafa yaxşı baxdım, başqa heç kim yox idi.

Bizə yaxınlaşanda yerimizdən çıxıb yolunu kəsdik. Düşmən əsgəri çox qorxdu və orada yerə oturdu. Çiynindəki bizim Bəsic uşaqlarımızdan biri idi. O, yaralanıb qalmışdı.

Çox təəccübləndim. Silahımı çiynimdən asdım. Uşaqların köməyi ilə yaralını götürdük. Rza soruşdu: "Sən kimsən? Burada nə edirsən?”

– Siz gedəndən sonra mən səngərləri gəzməyə başladım, birdən bu gənci gördüm. Ağrıdan qıvrılır, həzrət Əmirəlmömini (ə) və İmam Mehdini (ə) çağırırdı. Öz-özümə dedim ki, həzrət Əli (ə) xatirinə, nə qədər ki, qaranlıqdır və bizimkilər gəlməyiblər, bu gənci sizin səngərinizin yaxınlığına aparım. Biz şiə əsgərlər məcbur qalıb cəbhəyə gəlmişik.

Çox təəccübləndim. İbrahim iraqlı əsgərə dedi: "İstəsən, burada qal, qayıtma".

İraqlı əsgər köynəyinin cibindən bir şəkil çıxarıb dedi: "Bunlar mənim ailəmdir. Sizə qoşulsam, Səddam onları öldürər".

Sonra təəccüblə gözlərini İbrahimin üzünə dikdi. Bir neçə saniyə sükutdan sonra ərəb ləhcəsilə soruşdu: "Sən İbrahim Hadisən?"

Təəccüblə bir-birimizə baxdıq. İbrahim də heyrət dolu təbəssümlə soruşdu: "Adımı haradan bilirsən?!"

Mən zarafata dedim: "Dadaş İbrahim, demirdin ki, iraqlıların arasında da dostlarım var?!"

İraqlı əsgər dedi: "Bir ay öncə sizin və başqa bir neçə komandirin şəklini bütün birləşmələrə göndərib dedilər ki, bunların başını gətirən Səddam tərəfindən böyük mükafat alacaq!"

***

Həmin günlərdə xəbər gəldi ki, qərb korpusunun rəhbərliyindən Əndərzqu dəstəsinə bir başçı seçilib və Gilanqərbə gəlir. Biz də gözlədik, amma komandirdən xəbər çıxmadı. Nəhayət, öyrəndik ki, bir müddətdir dəstədə adi Bəsic üzvü kimi fəaliyyət göstərən Camal Tacik həmin komandirdir.

İbrahimlə və başqa bir neçə nəfərlə birgə Camalın yanına gedib soruşduq: "Nə üçün özünü təqdim etmədin? Nə üçün demədin ki, dəstənin başçısısan?"

Camal bizə baxıb dedi: "Başçılıq işin görülməsindən ötrüdür. Allaha şükür, burada iş ən gözəl şəkildə görülür. Mən də sizin aranızda olmaqdan məmnunam. Məni sizinlə tanış etdiyinə görə Allaha şükür edirəm. Siz heç kimə bir söz deməyin, qoy uşaqların mənə baxışı dəyişməsin".

Camal bir müddətdən sonra baş tutan Vəlfəcr-hazırlıq əməliyyatında hücumçu batalyonlardan birinin komandiri oldu və orada da şəhadətə qovuşdu.

# *Əbu-Cəfər*

**Hüseyn Allahkərəm, Fərəcullah Muradian**

1981-ci ilin martında uşaqların Bazideraz dağında başqa bir əməliyyat keçirdiklərini eşitdik. Qərara gəldik ki, Əndərzqu dəstəsinin uşaqları da düşmən mövqelərinə partizan hücumuna keçsinlər.

Bu işə İbrahim, Vahab Qəmbəri,[1] Rza Qudini və mən seçildik. Yerli kürdlərdən Şahrux Nurayi və Hişmət Kuhpeykər də bizimlə gəldi.

Özümüzlə ərzaq, silah və bir neçə mina götürüb hava qaralanda dağa doğru yola düşdük. Yüksəkliklərdən keçib Gilan düzünə çatdıq. Hava işıqlaşanda uyğun bir yerdə yerləşib gizləndik.

Günboyu istirahətlə yanaşı düşmən mövqelərini və yolları öyrəndik, xəritə hazırladıq. Qarşımızdakı düzdə iki yol vardı: biri asfalt, o biri isə torpaq yol idi və hərbi fəaliyyət üçün istifadə olunurdu. Bu iki yolun arasında təxminən 5 km. məsafə vardı. İraq ordusunun bir bölüyü təpələrdə və yolların kənarında yerləşib təhlükəsizliyi qoruyurdu.

Hava qaralanda namazı qılıb yola düşdük.

Rza Qudini ilə mən asfalt yola, digər uşaqlar da torpaq yola getdilər. Yolun kənarında gözlədik. Yol boşalan kimi cəld hərəkətə keçib çalalarda avtomobil əleyhinə iki mina

---

[1] O, yerli kürdlərdən və Kermanşah korpusunun əsasını qoyanlardan idi. Onun həm universitet təhsili vardı, həm də Quran və Nəhcül-bəlağəni yaxşı bilirdi. Çoxları Kermanşahın Kürdüstan fitnəsinə qoşulmamasını onun idarəçiliyinə və cəsarətinə borclu olduğunu düşünürlər. Vahab da zəhmətlərinin mükafatını alıb şəhidlər karvanına qoşuldu.

quraşdırdıq, üzərini bir qədər torpaqla örtüb torpaq yola doğru getdik.

Düşmən qüvvələrinin get-gəlindən onların hələ Baziderazın üstündə vuruşduqlarını bilmək olurdu. Əksər maşınlar və şəxsi heyət ora gedirdi. Hələ torpaq yola çatmamış dəhşətli bir gurultu eşitdik. Birdən hər ikimiz oturub geriyə baxdıq.

Bir düşmən tankı minaya düşmüşdü və yanırdı. Bir neçə saniyədən sonra tankın içindəki mərmilər də bir-bir partlamağa başladı. Tank elə yanırdı ki, bütün düz işıqlanmışdı. İraqlıların ürəyinə böyük qorxu və təşviş düşdü, keşikçilərin əksəri hara gəldi atəş açırdı.

İbrahimgilə çatanda onlar da işlərini bitirmişdilər. Birlikdə dağa doğru yola düşdük. İbrahim dedi ki, səhərə qədər vaxtımız çoxdur, silahımız və partlayıcı maddələrimiz də var. Gəlin pusqu qurub düşməni daha çox qorxudaq.

Hələ İbrahimin sözləri bitməmiş torpaq yoldan başqa bir gurultu qopdu. Bir düşmən avtomobili minaya düşüb partladı. Əməliyyatın uğurlu alındığına görə hamımız sevinirdik. Düşmənin atəşi daha çoxaldı. Bizim orada olduğumuzu bildiklərinə görə raket və fişəng atırdılar. Biz də tələsik dağa yollandıq.

Qarşımızda bir təpə vardı. Birdən onun arxasından bir SUV avtomobili bizə doğru gəlməyə başladı. O qədər yaxında idi ki, fikirləşməyə macal qalmadı.

Uşaqlar tez mövqe seçib avtomobilə atəş açmağa başladılar. Bir az sonra ona yaxınlaşdıq. Yüksək rütbəli bir zabitlə sürücüsü həlak olmuş, rabitəçi isə yaralanmışdı. Onun ayağına güllə dəymişdi və dayanmadan zarıyırdı.

Uşaqların biri silahını hazırlayıb rabitəçiyə doğru getdi. Rabitəçi dayanmadan deyirdi: "Əl-Aman! Əl-Aman!"

İbrahim özündən asılı olmadan qışqırdı: "Nə etmək istəyirsən?!"

– Heç, onu rahatlaşdırmaq istəyirəm.

– Dost, atəş açanda o bizim düşmənimiz idi, indi isə başının üstünə gəlmişik və o, əsirdir.

Sonra rabitəçiyə yaxınlaşdı, onu qaldırıb çiyninə atdı və yola düşdü. Hamı İbrahimin hərəkətinə təəccüblə baxırdı. Biri dedi: "Ağa İbrahim, bilirsən nə edirsən?! Buradan bizim mövqelərə qədər dağların arası ilə 13 km. yol var".

– Güclü bədəni Allah bu günlər üçün verib.

Sonra dağa doğru getməyə başladı. Biz də tez avtomobilin içindəki əşyaları və ratsiyanı götürüb yola düşdük. Dağın yamacında bir az istirahət edib iraqlı yaralının ayağının yarasını bağladıq, sonra yenidən yolumuza davam etdik.

Yeddi saat piyada gedəndən sonra təmas xəttinə çatdıq. İbrahim yolda iraqlı əsirlə danışır, o da dayanmadan İbrahimə təşəkkür edirdi. Sübh azanında təhlükəsiz bir yerdə camaat namazı qıldıq. Əsir də bizimlə namaz qıldı.

Orada onun şiə olduğunu bildim. Namazdan sonra bir qədər çörək yedik, nəyimiz vardısa, iraqlı əsir daxil, hamıya bərabər böldük.

Bizdən belə yaxşı rəftar gözləməyən əsir özünü təqdim etdi.

– Mənim adım Əbu-Cəfərdir, Kərbəla şəhərindənəm. Mən sizin belə olduğunuzu əsla düşünməzdim...

Çox danışdı, biz yalnız bəzi sözlərini başa düşdük.

Hələ hava işıqlanmamış yaxınlıqdakı Seyran mağarasına gedib istirahət etdik. Rza Qudini kömək yollamaq üçün öz mövqelərimizə getdi.

Bir saatdan sonra Rza maşınla və köməkçilərlə gəlib uşaqları səslədi. Rzadan vəziyyəti soruşanda dedi:

"Mağaraya qayıdanda birdən yerimdə donub qaldım. Mağaranın önündə silahlı adam oturmuşdu. Əvvəlcə dedim yəqin sizdən biridir, yaxınlaşanda isə gördüm ki, iraqlı Əbu-Cəfər əlində silah keşik çəkir. Onu görən kimi rəngim qaçdı. O isə məni salamladı və silahı təhvil verdi. Sonra da ərəbcə dedi: "Sizin yoldaşlarınız yatmışdılar. Mən iraqlı keşikçilərin buradan keçdiklərini duyub gəldim ki, yaxınlaşsalar, onları vurum".

Uşaqlarla düşərgəyə getdik. Əbu-Cəfəri bir neçə gün yanımızda saxladıq. Yolda çəkdiyi əziyyətə görə İbrahim xəstəxanaya getdi və bir neçə gündən sonra qayıtdı. Onu görəndə hamı sevindi. Dedim ki, qərb korpusunun uşaqları sənə təşəkkür etməyə gəliblər. Təəccüblə dedi: "Nəyə görə? Nə olub ki?" Dedim: "Gəl, görəcəksən".

İbrahimlə birgə korpusun qərargahına getdik. Korpusun işçisi danışmağa başladı: "Sizin gətirdiyiniz iraqlı əsir düşmənin dördüncü diviziyasının rabitəçisi imiş. O bizə olduqca dəyərli məlumatlar verdi. Bu əsir üç gündür danışır. Verdiyi məlumatların hamısı doğrudur. O, müharibənin ilk günündən bu bölgədə olub, İraq hərbçilərinin keçdiyi bütün yolları və bütün ratsiya parollarını bizə deyib. Buna görə sizə təşəkkür etmək istədik". İbrahim gülümsəyib dedi: "Əşi, biz kimik ki?! Bu, Allahın işi idi".

Ertəsi gün Əbu-Cəfəri əsir düşərgəsinə göndərdilər. İbrahim nə qədər çalışdısa, onun bizim yanımızda qalmasına nail ola bilmədi. Bunu onun özü xahiş etmişdi və Bəəs qüvvələri ilə vuruşmaq istəyirdi.

***

Bir müddətdən sonra iraqlı əsirlərin bir qisminin Təvvabin (tövbə edənlər) adlı bir qrup yaradaraq cəbhəyə gəldiklərini eşitdim. Onlar (mühacir iraqlılardan ibarət)

Bədr briqadasının döyüşçüləri ilə birgə Səddama qarşı vuruşurdular.

Axşamüstü idi. Dəstənin qədim uşaqlarından biri yanıma gəlib sevincək dedi: "Sənə yaxşı xəbər gətirmişəm: iraqlı Əbu-Cəfər Bədr briqadasında döyüşür".

Əməliyyatdan sonra dostlarla birgə Bədr briqadasına getdik. Fikirləşdik ki, nəyin bahasına olursa-olsun, Əbu-Cəfəri tapıb öz dəstəmizə gətirəcəyik. Briqadanın binasına daxil olanda isə yerimizdə donub qaldıq. Divara briqadanın şəhidlərinin şəkilləri vurulmuşdu. Biz axırıncı əməliyyatın şəhidləri arasında Əbu-Cəfərin fotosunu gördük.

Qəribə hisslər idi. Lal-dinməz şəklə baxdıq və daha binaya girmədik.

Həmin gecənin bütün xatirələri təsəvvürümdə canlandı: düşmənə hücum, İbrahimin fədakarlığı, iraqlı rabitəçi, əsir düşərgəsi, Bədr briqadası... sonra da şəhadət. Xoş halına!

# *Dost*

**Mustafa Hərəndi**

Çox gərgin idi, üzündən narahatlıq yağırdı. Nə baş verdiyini soruşanda dedi: "Axşam uşaqlarla kəşfiyyata getmişdik. Qayıdanda Maşallah Əzizi[1] minaya düşüb şəhid oldu. İraqlılar atəş açdıqlarına görə biz də qayıtmağa məcbur qaldıq”.

Narahatlığının səbəbini anladım.

Hava qaralanda getdi və gecənin yarısı sevinclə qayıtdı. Dayanmadan qışqırırdı: "Həkim! Həkim! Tez gəl, Maşallah sağdır".

Uşaqlar sevinib Maşallahı təcili-yardım maşınına qoydular. İbrahim isə bir tərəfdə fikirli oturmuşdu. Mən də yanında oturdum.

– Nə fikirləşirsən?

Bir qədər sükut etdi.

– Maşallah iraqlıların səngərinin yanında minaya düşmüşdü, mən gedəndə isə orada deyildi. Onu bir qədər geridə tapdım, düşməndən uzaqda, təhlükəsiz yerdə. Oturub məni gözləyirdi.

***

Ayağımdan çoxlu qan axmış, bədənim keyimişdi. İraqlılar əmin idilər ki, sağ deyiləm. Qəribə halda idim, yalnız dodaqaltı deyirdim: "Ya Sahibəzzaman! İmdada yet!"

Hava qaralmışdı. Nurlu bir gənc başım üstə gəldi. Gözlərimi çətinliklə açdım. Məni yavaşca qaldırıb

---

[1] Müharibə əlili Maşallah Əzizi Gilanqərb şəhərinin ixlaslı və təqvalı müəllimlərindən idi. Onun əlillik əhvalatı haqda Vüsal kitabında məlumat verilmişdir.

minalanmış sahədən çıxardı və təhlükəsiz bir yerdə yavaşca yerə qoydu.

Mən ağrı hiss etmirdim. O ağa mənimlə çox söhbət etdi və sonra buyurdu: "Bir nəfər gəlib səni xilas edəcək. O, bizim dostumuzdur".

Az sonra İbrahim həmişəki vüqarı ilə göründü. Məni çiyninə atıb yola düşdü. O nurlu gənc İbrahimi öz dostu adlandırmışdı. Xoş onun halına!

Bu sözləri Maşallah Gilanqərb cəbhəsinə dair xatirələrində yazırdı.

***

Maşallah Gilanqərbin ixlaslı və təqvalı müəllimlərindən idi. O, müharibənin ilk günündən sonuna qədər cəsarətlə döyüşdü, bütün əməliyyatlarda iştirak etdi və müharibədən sonra avtomobil qəzasında şəhid dostlarına qovuşdu.

## *Tanınmazlıq*

**Mustafa Hərəndi**

Sübh azanından öncə qayıtdı. Çiynində şəhid cəsədi vardı, üzündən yorğunluq yağırdı.

Səhər çağı məzuniyyət vərəqini alıb şəhidin cəsədi ilə birgə yola düşdük. Həm yorğun idi, həm də sevinirdi. O deyirdi: "Bir ay öncə Bazideraz dağında əməliyyat keçirdik. Yalnız bu şəhid qalmışdı. İndi ara sakitləşdiyinə görə Allahın lütfü ilə gətirə bildik".

Xəbər çox sürətlə Tehrana çatmışdı. Hamı şəhidin cəsədini gözləyirdi. Ertəsi gün Xorasan meydanından izdihamlı dəfn yürüşü başlandı. Tehranda bir neçə gün qalmaq istəyirdik, amma başqa bir əməliyyat xəbəri gəldi. Qərara gəldik ki, ertəsi gün axşam məsciddən yola düşək.

***

Namazdan sonra İbrahimlə və başqa bir neçə yoldaşla məscidin önündə dayanıb söhbət edirdik.

Bir qoca bizə yaxınlaşdı. Onu tanıdım; İbrahimin dağın başından gətirdiyi şəhidin atası idi. Salam verdik, o da cavabladı. Hamı sakit idi. Bizim gənc çevrəmizə yad gəlirdi, amma nəsə demək istəyirdi.

Bir az sonra sükutu pozub dedi: "Ağa İbrahim, minnətdaram, zəhmət çəkmisən, amma oğlum..."

Qoca bir qədər dayanıb əlavə etdi: "Oğlum səndən narazıdır".

İbrahimin həmişə gülər üzü ciddiləşdi, gözləri təəccübdən böyüdü.

– Axı nə üçün?

Qocanı qəhər tutdu, gözləri yaşardı. Səsi də titrəyirdi.

– Dünən oğlumu yuxuda gördüm. Mənə dedi ki, biz tanınmaz və itkin düşmüş halda yerdə qalanda seyidlər

anası həzrət Zəhra (ə) hər gecə bizə baş çəkirdi. İndi isə belə bir şey yoxdur. Oğlum dedi ki, tanınmaz və itkin şəhidlər həzrət Fatimənin (ə) xüsusi qonaqlarıdır...

Qoca daha heç nə demədi. Hamımız lal-dinməz dayandıq.

İbrahimə baxdım. Gözlərindən iri yaş giləleri axırdı. Ürəyini oxuya bilirdim. Onda yaxşı bir arzu yaranmışdı: tanınmazlıq və itkinlik.

***

Bu hadisədən sonra İbrahimin cəbhəyə və şəhidlərə baxışı çox dəyişdi. O deyirdi: "Daha şübhəm yoxdur ki, bizim şəhidlərimiz Allah rəsulunun (s) və İmam Əlinin (ə) səhabələrindən geri qalmırlar".

Ondan dəfələrlə bu sözü də eşitmişəm: "Kim Kərbəlada İmam Hüseynlə birgə olmağı arzulayırsa, buyursun, imtahan vaxtıdır".

İbrahim əmin idi ki, müqəddəs cəbhələr məqsədə, səadətə və insani təkamülə çatmaq yeridir. Ona görə də, hara gedirdisə, şəhidlərdən danışırdı, döyüşçüləri və cəbhə uşaqlarını tərifləyirdi. Onun əxlaqı və rəftarı da günbəgün dəyişdi, bütünlüklə mənəviyyata qərq oldu.

Əndərzqu düşərgəsində axşamlar adətən iki-üç saat yatır, sonra bayıra çıxırdı. Azan vaxtı da gəlib uşaqları sübh namazına səsləyirdi. Bir dəfə onun arxasınca gedib korpusun mətbəxinə keçdiyini gördüm. Ertəsi gün orada işləyən kişidən öyrəndim ki, mətbəxin uşaqlarının hamısı gecə namazı qılır. İbrahim bundan ötrü oraya gedirmiş. Bizim qərargahda qılsaydı, hamı bilərdi.

Axır zamanlarda İbrahimin hərəkətləri mənə İmam Əlinin (ə) Növf Bikkaliyə buyurduğu hədisi xatırladırdı:

"Mənim şiələrim gecənin abidləri, gündüzün aslanlarıdır!"

# *Yalnız Allah üçün*

**Şəhidin dostlarından biri**

Dostumu görməyə getmişdim. O, qərb bölgəsində bir əməliyyatda yaralanmış, ayağından güclü zədə almışdı. Məni görən kimi sevinib təşəkkür etməyə başladı.

- Seyid can, çox zəhmət çəkdin. Əgər məni geri gətirməsəydin, yüz faiz əsir düşəcəkdim.

- Sən nə danışırsan?! Mən hamıdan tez silah dolu maşınla geri qayıtdım və sonra məzuniyyətə getdim.

Dostum təəccübləndi.

- Yox əşi, sən idin. Mənə kömək etdin və ayağımın yarasını bağladın.

Məni kiminləsə səhv saldığını nə qədər deyirdimsə, qəbul etmirdi.

Bir müddət ötdü. Onun sözləri haqda yenidən fikirləşdim. Birdən yadıma bir şey düşdü və İbrahimin yanına getdim. O da həmin əməliyyatda iştirak etmişdi və məzuniyyətdə idi. İbrahimlə birgə o dostumun evinə getdik. Ona dedim: "Təşəkkür etməli olduğun adam ağa İbrahimdir, mən deyiləm. Çünki mən ümumiyyətlə, bir adamı hələ dağlıq bir yerdə 8 km. apara bilmərəm. Bundan anladım ki, İbrahimin işidir; az danışan, güclü, mənim kimi boy-buxunlu və məni tanıyan. Bildim ki, budur”.

İbrahim dillənmirdi.

- Ağa İbrahim, cəddim haqqı, əgər danışmasan, səndən inciyəcəyəm.

İbrahim də mənim hərəkətimə çox hirslənmişdi.

– Seyid, nə deyim?!

Sonra bir qədər dayandı və soyuqqanlılıqla davam etdi.

– Mən əliboş qayıdırdım, o da bir tərəfdə yıxılıb qalmışdı. Arxamda da kimsə yox idi, təxminən axırıncı

adam idim. O qaranlıqda ayağının yarasını çəkmənin ipi ilə bağladım və yola düşdük. Yolda mənə "Seyid" deyirdi, mən də bildim ki, sənin dostlarındandır. Buna görə bir söz demədim və onu təcili-yardım işçilərinin yanına apardım.

Bundan sonra İbrahim məndən çox incidi, bir neçə gün mənimlə danışmadı. O həmişə deyirdi ki, Allah üçün görülmüş işi deməyə gərək yoxdur.

***

Kəşfiyyat qrupu ilə düşmən mövqelərinə girdik. Ətrafı öyrənərkən birdən orada bir qoyun sürüsünün olduğunu duyduq.

Çoban yaxınlaşıb salam verdi və soruşdu: "Siz Xomeyninin əsgərlərisiniz?" İbrahim ona yaxınlaşdı.

– Biz Allahın bəndələriyik. Qoca, bu dağda-daşda nə edirsən?

– Yaşayıram.

– Qoca, çətinliyin varmı?

Qoca gülümsədi.

- Çətinliyim olmasaydı, burada qalmazdım ki.

İbrahim götürdüyümüz ərzaqdan ona bir qutu xurma, bir qədər çörək və digər şeylər verib dedi: "Bunlar İmam Xomeyninin sizə hədiyyəsidir". Qoca çox sevinib dua etdi və biz oradan uzaqlaşdıq.

Bəzi uşaqlar İbrahimə etiraz etdilər ki, biz bir həftə burada qalacağıq, sən ərzağın çoxunu ona verdin.

İbrahim dedi: "Əvvəla, bizim işimizin neçə gün sürəcəyi bəlli deyil, ikincisi isə əmin olun ki, bu qoca bizə düşmənçilik etməz. Şübhəniz olmasın ki, Allahın razılığı üçün görülən iş həmişə təsirli olur".

Azuqəmiz az olsa da, o kəşfiyyatda işimiz çox tez bitdi və hətta götürdüklərimizdən artıq da qaldı.

# *Böyüklərin hüzuru*

**Əmir Məncər**

Müharibənin birinci ili idi. Məzuniyyətə çıxmışdım. İbrahimlə birgə motosikletlə Xorasan meydanına doğru gedirdik. Bir xiyabandan keçəndə birdən dedi: "Əmir, dayan!"

Tez yolun kənarında dayandım və təəccüblə soruşdum: "Nə olub?"

– Əgər vaxtın varsa, bir Allah bəndəsini görməyə gedək.

– Yaxşı. Bir işim yoxdur.

İbrahimlə bir evə girdik. Bir neçə dəfə "ya Allah" deyib bir otağa daxil olduq. Bir neçə nəfər oturmuşdu. Məclisin başında qara əbalı bir qoca vardı. İbrahimlə birgə salam verib bir tərəfdə oturduq. Hacı ağanın bir gənclə söhbəti bitdi, üzünü bizə çevirib təbəssümlə dedi: "Ağa İbrahim, sən hara, bura hara?! Nə yaxşı gəldin!"

İbrahim başını aşağı salıb oturmuşdu. Ədəblə dedi: "Xəcalətliyəm, hacı ağa, hüzurunuza gəlməyə vaxt tapa bilmirəm".

Onların söhbətindən anladım ki, həmin qoca İbrahimi yaxşı tanıyır. Sonra o, digərləri ilə bir qədər söhbət etdi. Otaq boşalanda üzünü İbrahimə tutub təvazökarlıqla dedi: "Ağa İbrahim, bizə bir az nəsihət ver".

İbrahim xəcalətindən qızardı. Başını qaldırıb dedi: "Hacı ağa, siz Allah, bizi utandırmayın".

Sonra əlavə etdi: "Biz sizi ziyarət etməyə gəlmişik, inşallah həftəlik məclisdə hüzurunuza gələrik".

Sonra ayağa qalxıb sağollaşdıq və getdik.

Yolda ona dedim: "İbrahim can, sən də bu babaya bir az nəsihət verərdin, daha qızarıb-saralmağa nə gərək vardı?!"

Sözümü kəsib dedi: "Nə danışırsan, Əmir can, sən onu tanıdın?"

– Yox. Doğrudan, kim idi?

– Bu ağa Allah övliyalarındandır, amma çox adam bilmir. O, Hacı Mirzə İsmayıl Dolabidir.

Camaat Hacı ağa Dolabini illər sonra tanıdı. Mən Məhəbbət bağı kitabını oxuyandan sonra onun İbrahimə necə böyük söz dediyini anladım.

***

Ölkənin qərbində mühüm əməliyyatlardan biri sona çatdı. Bəzi danışıqlardan sonra döyüşçülərin çoxu həzrət İmam Xomeyninin ziyarətinə getdilər.

İbrahim həmin əməliyyatda iştirak etsə də, Tehrana getmədi. Ondan bunun səbəbini soruşanda dedi: "Bütün uşaqlar cəbhəni boşalda bilməzlər. Gərək bir neçə nəfər qalsın".

– Həqiqətən, buna görə getmədin?

Bir qədər dayanıb dedi: "Biz rəhbəri görmək üçün yox, əmrlərini icra etmək üçün istəyirik".

Sonra əlavə etdi: "Rəhbərimi görə bilməməyim önəmli deyil. Önəmli olan budur ki, əmrlərini yerinə yetirim və rəhbərim məndən razı qalsın".

İbrahim fəqih rəhbər məsələsinə çox həssas yanaşırdı və İmam Xomeyni barədə yüksək fikirləri vardı. O deyirdi: "Qədim və yeni alimlər arasında heç kim imam qədər cəsarətli deyil".

İmam Xomeyninin müraciətləri yayımlananda diqqətlə dinləyib deyirdi: "Əgər dünya və axirət istəyiriksə, imamın sözlərinə əməl etməliyik".

Gənclik çağından məhəllənin çoxlu ruhaniləri ilə əlaqəsi vardı. Əllamə Cəfəri bizim məhəllədə yaşayanda ondan

çox bəhrələnirdi. Şəhid Behiştini və Şəhid Mütəhhərini də gənc nəslə gözəl örnək hesab edirdi.

# *Ziyarət*

**Cabbar Sütudə, Mehdi Fəridvənd**

Müharibənin birinci ili idi. Əndərzqu dəstəsinin uşaqları ilə Gilanqərbin şimalındakı dağlardan birinə getdik. Sərhədə baxan təpələrin birinin başına çıxdıq. Zastava düşmənin əlində idi. İraq maşınları ətraf yollarda asanlıqda get-gəl edirdilər.

İbrahim dua kitabçasını açdı və uşaqlarla birgə Aşura ziyarətnaməsi oxuduq. Mən düşmən tapdağı altında qalmış bölgələrə həsrətlə baxıb dedim: "İbrahim can, sərhəd yoluna bax, düşmənlər rahatlıqla gedib-gəlirlər. Görəsən bir gün bizim xalqımız bu yollardan rahatlıqla keçib öz şəhərlərinə gedə biləcək?"

Fikri məndə deyildi, çox uzaqlara baxırdı. Birdən gülümsəyib dedi: "Nə danışırsan?! Bir gün gələcək bizim xalqımız bu yolla dəstə-dəstə Kərbəlaya gedəcək".

Qayıdanda uşaqlardan zastavanın adını soruşdum. Biri dedi: "Xosrovi sərhədi".

İyirmi ildən sonra Kərbəlaya gedəndə gözüm həmin dağa sataşdı. İbrahim onun başında Aşura ziyarətnaməsi oxumuşdu.

Sanki İbrahimi görürdüm; bizi yola salırdı. O dağ Xosrovi zastavasının düz qarşısında idi. Həmin gün avtobuslar sərhədə doğru gedir, xalqımız dəstə-dəstə Kərbəla ziyarətinə axışırdı.

***

Tehranda olanda ağa İbrahimin cümə axşamı proqramı həzrət Əbdüləzimi ziyarət etmək idi. O deyirdi: "Cümə axşamı Allahın rəhmət axşamıdır, Əbu Abdullah Hüseyni (ə) ziyarət gecəsidir. Bütün övliya və mələklər Kərbəlaya

gedirlər, biz də Əhli-beytin Kərbəla savabına bərabər göstərdiyi bir yerə gedirik".

Orada Kumeyl duasını oxuyur və gecə saat 1-də qayıdırdı. Bəsic proqramları başlayandan sonra isə ziyarətdən birbaş məscidə Bəsic uşaqlarının yanına gedirdi.

Bir gecə məqbərədən birlikdə çıxdıq. Mən tələsdiyimdən uşaqların birinin motosikleti ilə məscidə gəldim, İbrahim isə iki-üç saatdan sonra çatdı. Gecikməsinin səbəbini soruşanda dedi: "Məqbərədən piyada yola düşdüm, yolda Şeyx Səduqu da ziyarət etdim. Qədim tehranlılar deyirlər ki, İmam Mehdi (ə) cümə axşamları Şeyx Səduqun məzarını ziyarət edir".

– Bəs nə üçün piyada gəldin?

Düz-əməlli cavab vermədi.

– Sən məscidə gəlməyə tələsirdin, amma piyada gəldin. Bunun mütləq bir səbəbi olmalıdır.

Çox soruşandan sonra dedi: "Məqbərədən çıxanda çox ehtiyaclı bir adam yaxınlaşdı, mən də cibimdəki pulu ona verdim. Taksiyə minmək istəyəndə gördüm ki, pulum yoxdur. Buna görə piyada gəldim".

***

Son zamanlarda hər həftə ziyarətə gedirdik, gecə yarısı da Behişti-Zəhra (ə) şəhid məzarlığına yollanırdıq. İbrahim orada bizə rövzə oxuyurdu. O, bəzi gecələr qəbrə girib çox yanıqlı səslə Kumeyl duasını oxuyur, ağlayırdı.

# *Əl qumbarası*

**Əli Müqəddəm**

Vəlfəcr-hazırlıq əməliyyatına az qalırdı. Planları dəqiqləşdirməkdən ötrü Əndərzqu dəstəsinin qərargahında korpus və ordu komandirlərinin birgə iclası keçirildi.

İclasda mən, İbrahim, ordu və korpusun hərəsindən üç komandir iştirak edirdi. Uşaqların bir qismi də həyətdə təlim keçirdi.

İclasın ortasında, söhbət edən yerdə birdən otağın pəncərəsindən içəri bir əl qumbarası atıldı. Qumbara düz otağın ortasına düşdü. Qorxudan özümü itirdim. Oturduğum yerdə başımı əllərimlə tutub divara qısıldım. Bir neçə anlığa nəfəsim dayandı. Mənim kimi hərə özünü bir tərəfə çəkdi. Saniyələr ağır keçirdi. Nədənsə partlayış səsi gəlmədi. Çox ehtiyatla gözlərimi açdım, barmaqlarımın arasından otağın ortasına baxdım. Gördüyüm səhnə inanılmaz idi. Əllərimi yavaşca endirdim, başımı qaldırıb heyrət içində dedim: "Ağa İbrahim..."

Digərləri də bir-bir başlarını qaldırdılar. Hamının rəngi qaçmışdı və otağın ortasına baxırdı.

Çox qəribə səhnə idi. Biz otağın kənarlarında büzüşdüyümüz halda İbrahim qumbaranın üstünə uzanmışdı.

Bu əsnada təlim komandiri otağa girdi.

- Çox üzr istəyirəm. Bu, təlim qumbarası idi, səhvən otağa düşdü.

İbrahim qumbaranın üstündən qalxdı. Müharibənin birinci ili idi və o vaxta qədər heç bir yerdə belə bir hadisə baş verməmişdi.

Sanki o qumbara bizim mərdliyimizi sınamağa gəlmişdi.

## *Vəlfəcr-hazırlıq*

**Hüseyn Allahkərəm**

Bəni-Sədrin Ali Baş Komandanlıqdan ixrac edilməsindən bir müddət keçdi. İraq ordusunun qürurunu sındırmaqdan ötrü cənub, qərb və şimal cəbhələrində zəncirvari əməliyyatlar keçirildi.

Noyabrın 29-da ilk böyük əməliyyat olan Qüds yolu əməliyyatı baş tutdu və Bəəs qüvvələri ilk dəfə ağır məğlubiyyətlə üzləşdilər.

Komandirlərin razılaşmasına əsasən, ikinci əməliyyat Gilanqərbdən Bağdad şəhərinə ən yaxın cəbhə olan Sərpol Zəhaba qədər bir bölgədə aparılacaqdı. Buna görə bir müddət öncədən kəşfiyyat işlərinə və şəxsi heyətin hazırlığına başlandı.

Müvafiq istiqamətdə əməliyyat rəhbərliyi Gilanqərb korpusunun komandirlərinə tapşırıldı. Əndərzqu dəstəsinin bütün uşaqları fəaliyyətdə idilər. Düşmən bölgəsini öyrənmək işinə İbrahim başçılıq edirdi. Bu iş qısa müddətdə qüsursuz şəkildə baş tutdu. İbrahim məlumat toplamaqdan ötrü kürdlərin biri ilə düşmən mövqelərinə keçirdi. Onlar bir dəfə bir həftə ərzində Neftşəhrə qədər gedib-gəldilər.

İbrahim bu müddətdə əməliyyat bölgəsinə dair yaxşı xəritələr hazırladı, sonra da əsir tutduqları dörd iraqlı ilə düşərgəyə qayıtdılar.

İbrahim əsirləri dindirib lazımi məlumatları təkmilləşdirəndən sonra əməliyyat xəritələrini yekunlaşdırdı və komandirlərin iclasında təqdim etdi.

Ordunun Zülfüqar briqadasından polkovnik-leytenant Əliyari və mayor Salami də korpus qüvvələri ilə birgə hərəkət edirdilər. Bir çox yerli qüvvələr Sərpol Zəhabdan

Gilanqərbə qədər müəyyən batalyonlara bölünmüşdülər. Əndərzqu dəstəsinin əksər uşaqları bu birləşmələrə rəhbərlik edirdilər.

Korpusdan və könüllü qüvvələrdən ibarət bir neçə batalyon əməliyyata başlayıb ilk hücuma keçəcəkdilər.

Yekun iclasında komandirlər İbrahimi orta cəbhənin, Səfər Xoşrəvanı sol cinahın və qardaş Daryuş Rizəvəndini də sağ cinahın komandiri seçdilər. Əməliyyatın məqsədi də elan olundu: Gilan şəhərinə baxan dağları təmizləmək, sərhəd yüksəkliklərini, Hacian və Görk boğazlarını və zastavaları ələ keçirmək.

Əməliyyat bölgəsi 70 km.-ə yaxın idi. Qərargahdan xəbər gəldi ki, bu əməliyyatdan dərhal sonra Mərivan bölgəsində üçüncü hücum başlanacaq.

İşlər nəzərdə tutulduğu kimi gedirdi. Lakin əməliyyatdan bir neçə gün öncə korpus komandanlığından belə bir bildiriş gəldi: İraq tərəfi Bostanı yenidən ələ keçirmək üçün geniş əks-hücum hazırlayıb. Siz əməliyyatı tezləşdirməlisiniz ki, düşmənin diqqəti oradan yayınsın.

Bu səbəbdən əməliyyat ertəsi günə, yəni 10 dekabr 1981-ci il tarixinə salındı. Qəribə halda idik; bir gündən sonra ölkənin qərbindəki dağlarda ilk geniş əməliyyat keçiriləcəkdi. Heç nəyi proqnoz eləmək olmurdu. Həmin gecə uşaqların bir-birilə vidalaşması möhtəşəm səhnə yaratdı.

Nəhayət, deyilən gün gəldi. Uşaqların müxtəlif istiqamətlərdən geniş hücumu nəticəsində Hacian və Görk boğazları, Bəraftab bölgəsi, Sərtətan, Çərmiyan, Dizəkeş və Firidun Huşyar dağları, Şiyakuh yüksəkliklərinin bir qismi kimi bir çox mühüm və strateji bölgələr və Gilan düzünün bütün kəndləri azad olundu.

Orta cəbhədə bir neçə təpə və çayı ələ keçirəndən sonra qüvvələrimiz Nar təpələrinə doğru yola düşdü. Düşmən dəli kimi atəş yağdırırdı.

Bəzi batalyonlar təpələrdən keçib Şiyakuh dağlarına çatdılar, hətta dağların başına çıxdılar. Düşmən bilirdi ki, Şiyakuhu əldən verməsi İraqın Xaniqin şəhərini əldən verməsi demək idi. Buna görə də, çoxlu canlı qüvvəsini oraya yönəltdi.

Gecə yarısı ratsiyadan elan olundu: "Həsən Balaş, Camal Tacik və digər qüvvələr orta cəbhədən Şiyakuha çatmışlar və kömək istəyirlər. Bir qədər sonra İbrahim əlaqə saxlayıb dedi: "Bütün Nar yüksəklikləri azad olunub, yalnız mühüm mövqeyə malik bir təpə güclü müqavimət göstərir. Bizim də sayımız azdır".

İbrahimə dedim: "Sübh azanına qədər köməkçi qüvvələrlə sizə qoşulacağam. Ordu komandirləri ilə əlaqə saxlayın və nə olur-olsun, o təpəni də azad edin".

Köməkçi batalyonla orta cəbhəyə doğru yola düşdük. Yolda korpus komandirliyindən bizə dedilər: "Düşmən Bostana əks-hücum fikrindən daşınıb çoxlu canlı qüvvəsini sizin cəbhənizə yönəldib. Müqavimət göstərin ki, Hacı Əhməd Mütəvəssilianın komandirlik etdiyi Mərivan korpusu tezliklə növbəti əməliyyatlara başlasın". Həmçinin ordu və korpus uşaqlarının yaxşı əməkdaşlığına görə təşəkkür edib dedilər: "Gələn xəbərlərə görə, sizin əməliyyat istiqamətinizdə düşmən çox ağır itkilər verib. Onlar ehtiyat qüvvələrinin həmin bölgəyə getməsini əmr ediblər".

Hava işıqlanmaqda idi. Sübh namazını yolda qıldıq. Hələ Nar bölgəsinə çatmamış Qulaməli Piçəkin Gilanqərb cəbhəsində şəhid olduğunu eşitdik.

Nar dağlarına çatan kimi uşaqların biri mənə yaxınlaşıb Məşhəd ləhcəsi ilə dedi: "Hacı Hüseyn, xəbərin var? İbrahimi vurublar!"

Bütün bədənim titrədi, boğazım qurudu.

– Nə olub?!

– İbrahimin boğazına güllə dəyib.

Rəngim qaçdı. Qeyri-ixtiyari olaraq irəlidəki səngərlərə qaçdım. Yolda İbrahimlə bağlı bütün xatirələr gözlərim önündə canlandı. Təcili yardım səngərinə girib başının üstə dayandım.

İbrahimin boyun əzələsinə bir güllə dəymiş və o, çoxlu qan itirmişdi. Cavadı tapıb soruşdum: "İbrahimə nə oldu?"

Bir qədər dayanıb dedi: "Nə deyəcəyimi bilmirəm".

– Necə yəni?!

– Təpəyə necə hücum etmək barədə ordu komandirləri ilə danışdıq. İraqlılar güclü müqavimət göstərirdilər, təpənin başında və ətrafında çoxlu canlı qüvvələri vardı. Nə plan cızdıqsa, alınmadı.

Sübh azanına yaxın fikirləşdik ki, nə isə etməliyik, amma hansı işin daha yaxşı olduğunu bilmirdik. Birdən İbrahim səngərdən çıxıb təpəyə doğru getdi, böyük bir daşın üstündə üzüqibləyə dayanıb ucadan azan verməyə başladı. Biz qışqırırdıq ki, İbrahim, geri qayıt, indi səni vuracaqlar; o isə qulaq asmırdı.

Təxminən azanı sonuna qədər dedi. Düşmənin atəşi də dayanmışdı. Lakin sonda bir güllə atıldı və İbrahimə dəydi. Biz onu geri gətirdik".

## *Azanın möcüzəsi*

**Hüseyn Allahkərəm**

Nar dağında idik. Hava tam işıqlanmışdı. Tibb işçisi İbrahimin boynunun yarasını bağladı. Şəxsi heyəti mövqelərə bölür və ratsiyaya cavab verirdim.

Birdən uşaqların biri qaçaraq gəldi və dedi: "Hacı! Hacı! Bir neçə iraqlı əllərini qaldırıb bu tərəfə gəlir".

Onunla birlikdə təpənin göründüyü səngərlərin birinə getdik. Qarşıdakı təpədən təxminən iyirmi düşmən hərbçisi əllərində ağ parça bizə doğru gəlirdi. Tez dedim: "Uşaqlar, silahlı dayanın, bu, hiylə ola bilər".

Bir neçə saniyədən sonra biri zabit olmaqla on səkkiz düşmən hərbçisi təslim oldu. İstiqamətimizdə əsir tutduğumuza görə sevindim. Öz-özümə düşündüm ki, uşaqların yaxşı hücumu onları qorxudub və təslim olublar. Onların arasındakı zabiti səngərə apardım. Ərəbcə bilən uşaqlardan birini çağırdım.

– Adın nədir? Rütbəni və vəzifəni de.

Özünü təqdim edib dedi: "Mayoram, təpədə və onun ətrafındakı şəxsi heyətin komandiriyəm. Biz Bəsrədəki ehtiyat diviziyasındanıq”.

– Təpədə nə qədər canlı qüvvəniz var?

– İndi heç nə.

Təəccübləndim.

– Heç nə?!

– Biz idik və təslim olduq. Digərlərini də geriyə göndərdim. İndi təpə boşdur.

Yenidən təəccüblə ona baxdım.

- Nə üçün?

– Çünki təslim olmaq istəmirdilər.

Təəccübüm daha da artdı.

– Necə yəni?

İraqlı komandir mənə cavab vermək yerinə soruşdu: "Azançınız hanı?"

Daha çox təəccübləndim.

– Azançı?!

Gözləri yaşardı, boğazını qəhər tutdu və danışmağa başladı. Tərcüməçi də cəld tərcümə edirdi.

- Bizə demişdilər ki, siz məcusi və atəşpərəstsiniz və biz İslamdan ötrü hücum edib iranlılarla vuruşuruq. İnanın ki, bizim hamımız müsəlman və şiəyik. Biz komandirlərimizin araq içdiyini və namaz qılmadığını görəndə sizinlə vuruşmağa çox tərəddüd etdik. Bu gün səhər sizin döyüşçünün azan səsini eşidəndə vücudum titrədi, həzrət Əmirəlmömininin (ə) də adını çəkəndə öz-özümə dedim ki, sən öz qardaşlarınla vuruşursan. Birdən Kərbəla hadisəsi kimi...

Qəhərdən danışa bilmədi. Bir neçə dəqiqədən sonra sözünə davam etdi: "Buna görə qərara gəldim ki, günahımı ağırlaşdırmayıb təslim olum. Əmr etdim ki, heç kim atəş açmasın. Hava işıqlananda da hamını toplayıb dedim: "Mən iranlılara təslim olacağam, kim istəyirsə, mənimlə gəlsin". Bu gələnlər mənim əqidə dostlarımdır, digərləri geri qayıtdılar. Mən azançıya atəş açan əsgəri də gətirmişəm. Əmr etsəniz, onu öldürərəm. İndi xahiş edirəm, de görüm azançı sağdır, ya yox?”

Başını itirmiş adamlar kimi iraqlı komandiri dinləyirdim. Heç bir söz deyə bilmədim. Bir müddət sükutdan sonra dedim: “Hə, sağdır”. Birlikdə səngərdən çıxıb İbrahimin yanına getdik.

On səkkiz iraqlının hamısı İbrahimin əlini öpdü. Axırıncısı onun ayağına düşüb ağlayır və deyirdi: "Məni bağışla. Mən atəş açdım".

Boğazımı qəhər tutmuşdu. Əməliyyat və şəxsi heyət yadımdan çıxmışdı. Əsirləri geri göndərmək istəyəndə komandirləri məni səsləyib dedi: "O tərəfə bax. Xüsusi təyinatlı batalyon və bir neçə tank gəlir". Sonra əlavə etdi: "Tez gedib təpəni tutun".

Əndərzqu uşaqlarından bir neçəsini təpəyə göndərdim. Ora azad ediləndən sonra Nar bölgəsində əməliyyat tamamlandı.

Xüsusi təyinatlı batalyon hücuma keçdi, amma bizim lazımi hazırlığımız olduğundan şəxsi heyətin çoxunu məhv etdik. Sonrakı günlərdə Mərivanda "Məhəmməd Rəsulullah (s)) əməliyyatı baş tutdu və İraq ordusunun Gilanqərbə təzyiqi azaldı.

Hər halda, Vəlfəcr-hazırlıq əməliyyatı özünün bir çox məqsədlərinə nail oldu, ölkəmizin bir sıra bölgələri azad edildi. Baxmayaraq ki, Qulaməli Piçək, Camal Tacik və Həsən Balaş kimi komandirlər bu əməliyyatda şəhid oldular.

İbrahim bir neçə gündən sonra tam sağalıb yenidən dəstəyə qatıldı. Həmin gün belə bir elan verildi: "Ey Mehdi, imdada yet" parolu ilə baş tutan Vəlfəcr-hazırlıq əməliyyatında İraq ordusuna məxsus on dörd batalyondan artıq canlı qüvvə məhv edildi, düşmən tərəfi ümumilikdə iki min ölü və yaralı verdi, iki yüz hərbçisi əsir tutuldu və iki təyyarəsi vuruldu".

***

Vəlfəcr-hazırlıq əməliyyatından beş il ötdü. 1987-cı ilin qışında Şələmçədə Kərbəla-5 əməliyyatında iştirak edirdik.

Diviziyaların və əməliyyat kəşfiyyatının əməkdaşlıq işinin bir qismi bizə tapşırılmışdı. Mən Bədr diviziyasının uşaqları ilə danışmaq üçün oraya getdim.

Qərara görə, hamısı ərəbdilli uşaqlardan və Səddama müxalif iraqlılardan ibarət olan bu diviziyanın batalyonları əməliyyatın ikinci mərhələsində hərəkətə keçəcəkdilər.

Diviziya və batalyon komandirləri ilə söhbətdən sonra lazımi məsələləri razılaşdırıb hərəkətə hazırlaşdım. Bu zaman Bədr diviziyasının uşaqlarından birini gördüm. Uzaqdan baxa-baxa mənə yaxınlaşırdı. Bəsic üzvü idi. Mənə çatıb salam verdi və ərəb ləhcəsilə dedi: "Siz Gilanqərbdə deyildiniz?"

Təəccüblə dedim: "Bəli".

Fikirləşdim ki, yəqin qərb bölgəsinin uşaqlarındandır.

– Vəlfəcr-hazırlıq yadınızdadır? Nar dağı, axırıncı təpə?

Bir az fikirləşib dedim: "Aha".

– Əsir düşən on səkkiz iraqlını xatırlayırsınız?

– Bəli.

Sevincək cavab verdi: "Onların biri mənəm".

Təəccübüm daha da artdı.

– Burada nə edirsən?

– Hamımız bu batalyondayıq. Biz Ayətullah Həkimin zəmanəti ilə azad olunduq. O, məni yaxşı tanıyırdı. Danışdıq ki, cəbhəyə gələk və bəəsçilərlə vuruşaq.

Mənə çox qəribə gəldi.

– Bərəkallah! Sizin komandiriniz haradadır?

– O da bu batalyonda fəaliyyət göstərir. İndi təmas xəttinə gedirik.

– Özünüzün və batalyonunuzun adını bu kağıza yazın. İndi tələsirəm, əməliyyatdan sonra gəlib hamınızla görüşərəm.

O, uşaqların adlarını yaza-yaza soruşdu: "Sizin azançının adı nə idi?"

– İbrahim; İbrahim Hadi.

– Bizim hamımız bu müddətdə onu axtarmışıq. Komandirimizdən xahiş etdik ki, onu mütləq tapsın. O Allah adamını bir də görmək istəyirik.

Dinmədim. Boğazımı qəhər tutdu. Başını qaldırıb mənə baxdı.

– İnşallah cənnətdə bir-birinizi görərsiniz.

Çox narahat oldu. Kağızı mənə verdi. Mən də tez sağollaşıb yola düşdüm. Bu gözlənilməz görüş mənə çox maraqlı gəldi.

Əməliyyat 1987-ci ilin martında başa çatdı və şəxsi heyətin çoxu məzuniyyətə yollandı. Bir gün əşyalarımın arasından həmin iraqlı əsirin, daha doğrusu Bədr diviziyasının Bəsic üzvünün yazısını görüb Bədr uşaqlarının yanına getdim. Diviziyanın başçılarından birini görüb kağıza yazılmış batalyonu soruşdum. Cavab verdi ki, bu batalyon buraxılıb.

– Mən o uşaqları görmək istəyirəm.

– Bu batalyon diviziya komandiri ilə birgə Şələmçədə İraqın ağır əks-hücumlarının birinin qarşısında müqavimət göstərdi, düşmənə ağır zərbə vurdu, amma geri çəkilmədi.

Bir neçə saniyə dayandı.

– O batalyondan heç kim sağ qayıtmadı.

– Bu on səkkiz nəfər iraqlı əsirlərdən idilər, onların adları burada yazılıb. Mən onları görməyə gəlmişəm.

Yaxınlaşıb siyahını məndən aldı, başqa birinə verib harasa yolladı. Həmin adam bir neçə dəqiqədən sonra qayıdıb dedi: "Bunların hamısı şəhid olub".

Daha heç bir sözüm yox idi. Eləcə oturub fikirləşir və öz-özümə deyirdim: Gör İbrahim bir azanla nə etdi: Bir təpə azad olundu, bir əməliyyat qələbə çaldı, on səkkiz nəfər də Hürr kimi cəhənnəmdən çıxıb cənnətə getdi.

Sonra həmin iraqlı döyüşçüyə sözümü xatırladım: "İnşallah cənnətdə bir-birinizi görərsiniz".

İxtiyarsız olaraq gözlərimdən yaş axdı. Sağollaşıb oradan çıxdım.

Şübhəm yoxdur ki, İbrahim harada azan verməli olduğunu yaxşı bilirdi. O bununla hələ qəlblərində iman işığı qalmış insanları hidayət edirdi.

# *Çəfiyə*

**Abbas Hadi**

1982-ci ilin martı idi. İbrahim məzuniyyətə gəlmişdi.

Gecə evə gəldi və bir qədər söhbət etdik. Cibində böyük bir pul dəstəsi var idi.

– Doğrudan, dadaş, bu qədər pulu haradan gətirirsən? Mən neçə dəfə camaata kömək etdiyini, əzadarlıq heyətinə pul xərclədiyini görmüşəm. İndi də cibində bu qədər pul var.

Sonra zarafata keçdim.

– Düzünü de, xəzinə tapmısan?!

Güldü.

– Yox əşi. Bunları dostlar verirlər, özləri də deyirlər ki, hansı işə xərcləyim.

Ertəsi gün İbrahimlə bazara getdik. Bir neçə döngədən keçib bir mağazaya girdik.

Təxminən böyük bir mağaza idi. Mağazanın qoca sahibi və onun gənc köməkçisi İbrahimlə görüşüb öpüşdülər. Bildim ki, onu yaxşı tanıyırlar.

Bir qədər söhbətdən sonra İbrahim dedi: "Hacı, inşallah sabah Gilanqərbə gedirəm".

- İbrahim can, uşaqların nəyəsə ehtiyacı var?

İbrahim cibindən bir kağız çıxarıb qocaya verdi.

- Bunlardan əlavə bir videokameraya ehtiyacımız var. Çünki bu qəhrəmanlıqlar qeyd olunmalıdır. Gələcək nəsillər bu dinin və bu ölkənin necə qorunduğunu bilməlidirlər.

Sonra əlavə etdi: "Döyüşçü uşaqların özlərinə də bir qədər çəfiyə lazımdır".

Bu yerdə qocanın oğlu yaxınlaşıb dedi: "Kamera heç, amma ağa İbrahim, çəfiyə nə üçündür? Məgər siz lotu kimi boynunuza dəsmal atırsınız?”

İbrahim bir qədər dayanıb dedi: "Qardaş, çəfiyə boyun dəsmalı deyil. Döyüşçülər dəstəmaz alanda çəfiyə dəsmaldır, namaz qılanda səccadədir, yaralananda sarğıdır..."

Qoca İbrahimin sözünü kəsib dedi: "Baş üstə, ağa İbrahim, onu da həll edərik".

Ertəsi gün günortadan öncə həmin qoca yük dolu bir vanetlə[1] gəldi. Tez İbrahimi çağırdım.

Qoca İbrahimə bir videokamera və digər şeylər verib dedi: "İbrahim can, bu da bir vanet çəfiyə".

İbrahim sonralar dedi ki, o çəfiyələrdən Fəthülmübin əməliyyatında istifadə etdik.

Get-gedə çəfiyədən istifadə İslam döyüşçülərinin simvoluna çevrildi.

---

[1] Kiçik yük maşını

## *Zarafatcıllıq*

**Əli Sadiqi, Əkbər Növcavan**

Ciddi məsələlərdə çox ciddi, zarafat zamanı da çox zarafatçı idi. Çoxları onu buna görə sevirdilər.

Xörək yeməkdə xüsusi xarakteri vardı. Xörək bol olanda yaxşı yeyib deyirdi: "İdmana və ağır fiziki fəaliyyətə görə bədənimizin yaxşı qidaya çox ehtiyacı var".

Bir dəfə Gilanqərbin yerli uşaqlarının biri ilə birgə Kermanşaha kəlləpaça yeməyə getdilər. Onlar iki nəfərə üç heyvanın bütün kəlləpaçasını yemişdilər. Uşaqların biri İbrahimi nahara dəvət edib üç nəfərə altı yumurta, çoxlu düyü və digər yeməklər hazırlamışdı. Və təbii ki, heç bir xörəkdən artıq qalmadı.

***

İbrahim yaralananda onu görməyə getdim. Oradan motosikletlə dostların birinin evinə iftara yollandıq.

Ev sahibi İbrahimin yaxın dostlarından idi, tez-tez xörək təklif edirdi. İbrahimin isə təklifə ehtiyacı yox idi. Qısası, İbrahim əlindən gələni etdi və süfrədən təxminən heç nə qayıtmadı.

Bizim dostlarımızdan olan Cəfər Cəngru da orada idi. İftardan sonra tez-tez yandakı otağa keçib qonaqları çağırır, bir-bir İbrahimin yanına gətirib deyirdi: "İbrahim can, bu qardaş səni görmək istəyir”.

İbrahim həm çox yemişdi, həm də yaralı olduğuna görə ayağı ağrıyırdı. Lakin gələnlərə hörmət olaraq, ayağa qalxıb görüşməyə məcbur olurdu. Cəfər də arxada səssizcə gülürdü.

İbrahim oturanda Cəfər gedib başqa birini gətirirdi. Bu iş bir neçə dəfə təkrar olundu.

Çox əziyyət çəkən İbrahim xüsusi soyuqqanlılıqla dedi: "Eybi yox, Cəfər can, bizim də növbəmiz çatar".

Gecə qayıdanda İbrahim mənim motosikletimə minib dedi: "Tez getdik".

Cəfər də öz motosikletinə minib arxamızca gəlirdi. Onunla məsafəmiz çoxaldı. Yoxlanış yerinə çatanda dayandım. İbrahim ucadan dedi: "Qardaş, buraya gəl".

Silahlı gənclərin biri yaxınlaşdı.

– Əziz dost, mən müharibə əliliyəm. Bu sürücü də korpus uşaqlarındandır. Bizim arxamızca bir motosiklet gəlir...

Sonra bir qədər dayanıb əlavə etdi: "Mən bir söz deməsəm, yaxşıdır. Lakin çox ehtiyatlı olun. Məncə, silahlıdır".

Sonra icazə aldı və yolumuza davam etdik. Bir qədər irəliləyib səkidə dayandıq və ikimiz də gülməyə başladıq. Cəfərin motosikleti çatanda dörd əlisilahlı ətrafını sardı. Sonra belindəki tapançanı gördülər. Daha nə deyirdisə, heç kim əhəmiyyət vermirdi.

Təxminən yarım saat sonra başçıları gəlib Hacı Cəfəri tanıdı, çox üzr istədi və postun uşaqlarına dedi: "Bu, Seyyidüş-şühəda diviziyasının komandirlərindən olan Hacı Cəfər Cəngrudur".

Keşikçilər utanıb ondan üzr istədilər. Cəfər çox hirslənmişdi. Bir söz demədən silahını təhvil aldı və motosiklетə minib yola düşdü.

Bir qədər irəlidə İbrahimin səkidə dayanıb ürəkdən güldüyünü görəndə nə baş verdiyini anladı.

İbrahim yaxınlaşıb Cəfəri qucaqladı və öpdü. Cəfər də gülməyə başladı.

# *İki qardaş kimi*

**Əli Sadiqi**

Şəhid Şahbazinin yas məclisində iştirak etmək üçün sərhəd şəhərlərindən birinə yollandıq. Oranın adət-ənənəsinə uyğun olaraq, yas məclisi səhərdən günortaya qədər keçirilirdi.

Günorta qonaqlara aftafa-ləyən gətirdilər. Əllərini yuyandan sonra nahar yeməyi yeyəcəkdilər və bununla məclis bitəcəkdi.

İçəri girəndə gördüm ki, Cavad məclisin başında oturub, İbrahim də yanında. Mən də gedib İbrahimin yanında oturdum.

İbrahimlə Cavad iki qardaş kimi çox səmimi dost idilər. Onların zarafatları da maraqlı idi.

Məclisin sonunda şəhidin yaxınlarından ikisi su gətirdi. Onlar birinci Cavada yaxınlaşdılar.

Cavad bu mərasim barədə bir şey bilmirdi. İbrahim onun qulağına nəsə pıçıldadı. Cavad təəccüblə ucadan soruşdu: "Ciddi deyirsən?" İbrahim astadan dedi: "Yavaş!"

Sonra İbrahim üzünü mənə tutub çox ürəkdən, amma səssiz güldü. Mən dedim: "Nə olub, İbrahim? Ayıbdır, gülmə".

- Cavada dedim ki, aftafa ilə başını yumalısan.

Bir neçə saniyədən sonra elə də oldu. Cavad əllərini yuyandan sonra başını suyun altına tutdu. Üz-başından su axa-axa təəccüblə ətrafına baxırdı.

Dedim: "Nə etdin, Cavad?! Bura hamamdır?!"

Sonra çəfiyəmi verdim, başını quruladı.

***

İbrahim, Cavad və Rza Qudini bir neçə günlük kəşfiyyatdan qayıdırdılar. Sağ olduqlarını bilib çox

sevindik və onları qarşılamaq üçün Şəhid Əndərzqu qərargahının önünə toplaşdıq. Bir neçə dəqiqədən sonra maşınla gəldilər. İbrahimlə Rza düşdü. Uşaqlar sevincək onlara yaxınlaşdılar, görüşüb-öpüşdülər.

Uşaqların biri soruşdu: "Ağa İbrahim, Cavad haradadır?"

Bir anlığa hamı sakit oldu. İbrahim də bir qədər dayandı, sonra kədərlə "Cavad..." - deyib maşının arxasına baxdı.

Orada bir nəfər uzanmışdı, üstünə ədyal sərmişdilər. Bütün uşaqları sükut bürüdü.

İbrahim yenə dilləndi: "Cavad... Cavad..." Birdən gözlərindən yaş axdı. Uşaqların bir neçəsi ağlamağa başladı: "Cavad! Cavad!" Sonra maşının arxasına keçdilər. Hamının ağladığı yerdə birdən Cavad yuxudan oyanıb oturdu və dedi: "Nədi? Nə olub?" O, mat-məəttəl ətrafına baxırdı.

Gözüyaşlı uşaqlar hirslə İbrahimi axtarmağa başladılar. O isə artıq içəri girmişdi.

# *Tapança*

**Əmin Məncər**

1982-ci il, martın ortaları idi. Silahları və digər əşyaları təhvil alıb cənuba doğru hərəkətə hazırlaşdıq. Xuzistanda böyük bir əməliyyat olacaqdı. Korpusun və Bəsicin əksər şəxsi heyəti oraya gedirdi.

Əndərzqu dəstəsi Gilanqərb korpusunun uşaqları ilə birgə cənuba hazırlaşırdı. Son günlərdə isə Kermanşah korpusundan bir xəbər gəldi: "Qardaş İbrahim Hadi bir kolt tapançası alıb, hələ təhvil verməyib".

İbrahim onda kolt tapançasının olmadığını söylədi, amma faydası olmadı. Dedim ki, İbrahim, bəlkə almısan, təhvil vermək yadından çıxıb. Bir az fikirləşib dedi: "Yadıma gəlir ki, təhvil aldım, amma Məhəmmədə verdim ki, təhvil versin". Sonra soruşub öyrəndik ki, silah Məhəmməddə qalıb və hələ təhvil verməyib, özü də bir həftə öncə Tehrana qayıdıb. Tehrana gedib Məhəmmədin ünvanını soruşduq. Öyrəndik ki, oradan da gedib və İsfahan-Yəzd yolunda yerləşən Kuhpayə adlı kəndlərinə dönüb.

Silahı təhvil vermək İbrahim üçün çox vacib idi. Buna görə dedi ki, gəl birlikdə Kuhpayəyə gedək. Axşam İsfahana yola düşdük, oradan da Kuhpayə kəndinə getdik. Səhər tezdən kəndə çatdıq. Hava bir qədər soyuq idi. İbrahimə dedim: "Yaxşı, indi hara getməliyik?"

– Allah-Taalanın Özü yolu göstərəcək.

Kəndin içində bir qədər fırlandıq. Yolda qoca bir qarı yad adam olduğumuzu bilib bizə baxırdı. İbrahim maşından enib ucadan dedi: "Salam, ana".

Qarı gülərüzlə dedi: "Salam, canım. Kimi axtarırsan?"

– Nənə, Məhəmməd Kuhpayəni tanıyırsan?

– Hansı Məhəmməd?
– Cəbhədən təzə gəlib, təxminən 20 yaşı var.
Qadın gülümsəyib dedi: "Gəlin bura". Sonra evinə girdi.
Maşını kənara çəkib biz də evə girdik.
Qadın bizə rəngarəng səhər yeməyi hazırladı.
– Siz İslam əsgərlərisiniz, yeyin ki, güclü olasınız.
Sonra əlavə etdi: "Məhəmməd mənim nəvəmdir, bizdə yaşayır. İndi isə şəhərə gedib, axşama qədər də qayıtmayacaq".
İbrahim dedi: "Nənə, bağışlayın, sizin bu nəvəniz elə bir iş tutub ki, cəbhədən buraya qədər gəlmişik".
Qadın təəccüblə soruşdu: "Məgər nə edib?"
– Məndən tapança alıb, təhvil verməyib, özü ilə gətirib. İndi də mənə deyirlər ki, o silahı tapıb təhvil verməlisən.
Qadın ayağa qalxıb dedi: "Bu oğlanın işlərinə bax!"
– Ana, zəhmət çəkmə, biz əziyyət verməyəcəyik.
– Buraya gəlin.
İbrahimlə bir otağa girdik. Qadın dedi: "Məhəmmədin əşyaları bu şkafdadır. Mən gördüm, bir neçə gün öncə bir şey gətirib buraya qoydu. İndi özünüz qıflını açın".
İbrahim dedi: "Ana, icazəsiz kiminsə əşyalarını qurdalamaq yaxşı deyil".
– Bacarsaydım, özüm açardım.
Sonra gedib, bir vintaçan gətirdi və mən şkafın kiçik qıflını açdım.
Qapı açılan kimi əşyaların üstündə ağ parçaya bükülmüş tapança uzaqdan bilindi. Silahı götürüb çıxdıq.
Sağollaşanda İbrahim soruşdu: "Ana, bizə nə üçün inandın?"
– İslam əsgəri yalan danışmaz. Məgər siz bu nurani sima ilə yalan deyərsiniz?!

Tehrana yola düşdük. İsfahan yolunda gözüm ordunun bir artilleriya qarnizonuna sataşdı.

- Ağa İbrahim, yadındadır, Sərpol-Zəhabda ordu artilleriyasının bir komandiri vardı, əməliyyatlarda bizə çox kömək elədi.

– Ağa Məddahı deyirsən?

– Hə. İsfahan artilleriyasının komandiri olub, bəlkə də indi buradadır.

– Onda gedək ziyarət edək.

Qarnizonun önündə dayandıq. İbrahim maşından enib nəzarət-buraxılış məntəqəsindən soruşdu: "Salam. Ağa Məddah buradadır?"

Keşikçi İbrahimi başdan-ayağa süzdü. Kürd şalvarı və uzun köynək geyinmiş sadə bir adam qarnizonun komandirini soruşurdu! Mən yaxınlaşıb dedim: "Qardaş, biz ağa Məddahın dostlarıyıq, cəbhədən gəlmişik. İmkan varsa, onu görmək istəyirik".

Keşikçi əlaqə saxlayıb bizim gəlişimizi xəbər verdi. Bir neçə dəqiqədən sonra komandir qərargahından qapıya iki SUV avtomobili gəldi. Polkovnik-leytenant Məddah bizi görən kimi birinci İbrahim olmaqla ikimizi də qucaqlayıb öpdü, sonra israrla qərargaha dəvət etdi və iclas zalına apardı. Təxminən iyirmi zabitlə iclas keçirirmiş.

Ağa Məddah iclasın sədri idi. İki stul gətizdirdi və biz zabitlərin yanında oturduq. Sonra söhbətə başladı: "Dostlar, hamınız məni tanıyırsınız; həm inqilabdan öncə doqquzgünlük müharibədə, həm də müharibənin ilk ilində Cəsarət medalı almışam. Mənim artilleriya qrupum ən çətin tapşırıqları gözəl şəkildə yerinə yetirib və bütün əməliyyatlarda uğurla çıxış edib. Mən ölkə daxilində və xaricdə çox ağır və mühüm hərbi təlimlər keçmişəm.

Lakin mənim bütün öyrəndiklərimi sual altına aparan adamlar var".

Sonra bir misal çəkdi: "Dünya müharibələrinin qanunu deyir ki, hücum etdiyiniz yerdə yüz nəfər varsa, siz üç yüz nəfər olmalısınız; silah-sursatınız da onlardan çox olmalıdır".

Komandir bir qədər dayandı və sonra əlavə etdi: "Bu ağa Hadi və onun dostları çox qəribə işlər görürlər. Bunlar bir əməliyyatda yüz nəfərdən az şəxsi heyətlə düşmənə hücum etmiş, öz saylarından artıq düşmən öldürmüş və əsir tutmuşlar. O zaman mən onlara hava dəstəyi verirdim. Yadımdadır, bir dəfə Bazideraza hücuma keçmək istəyirdilər. Mən onların vəziyyətini görəndə dostuma dedim ki, mütləq məğlub olacaqlar. Lakin həmin əməliyyatda düşmən mövqelərini ələ keçirməkdən əlavə, öz saylarından da artıq düşmən qüvvəsini məhv etdilər".

İclasdakı gənc zabitlərin biri dedi: "Ağa Hadi, əməliyyatlarınızın hansı formada baş tutduğunu açıqlayın, biz də öyrənək".

İbrahim başını aşağı salıb oturmuşdu.

– Yox, qardaş, biz bir iş görməmişik. Ağa Məddah çox təriflədi, biz bir karə deyilik, hamısı Allahın lütfü olub.

Ağa Məddah dilləndi: "Onun və dostlarının bizə öyrətdiyi budur ki, şəxsi heyətin və silah-sursatın sayı əsas deyil, müharibədə birinci sözü deyən döyüşçülərin ruhiyyəsidir. Bunlar bir təkbirlə düşmənin canına elə qorxu salırdılar ki, yüz top və tankdan təsirli olurdu".

Sonra əlavə etdi: "Bunların fiziki baxımdan kiçik, amma qüvvə və cəsarətcə böyük olan bir dostları vardı. Adı Əsğər Vüsali idi. O, müharibənin ilk günlərində öz adamları ilə düşmənin qarşısını aldı və şəhadətə qovuşdu. Mən Bəsic üzvü olan bu ixlaslı uşaqlardan bu Quran

ayəsini öyrəndim: "İçərinizdə iyirmi dözümlü kişi olsa, iki yüz kafirə, yüz dözümlü kişi olsa, min kafirə qalib gələr". (Ənfal, 65)

Bir qədər sonra iclas iştirakçılarından üzr istəyib Tehrana yola düşdük. Mən yolda baş verənlər haqda fikirləşirdim.

İbrahim macəra dolu tapançasını korpusa təhvil verib Əndərzqu dəstəsinin uşaqları ilə Xuzistana getdi.

Təxminən 14 aylıq Gilanqərb dövrü bütün acı və şirin xatirələri ilə birgə sona çatdı. Bu dövrdə böyük qəhrəmanlıqlara şahid olduq. Bu müddət ərzində İraq ordusunun üç hərbi briqadası kiçik bir partizan dəstəsinin hücumları qarşısında aciz qalmışdı.

## *Fəthülmübin*

**Şəhidin dostları**

Xuzistanda əvvəlcə Şuş şəhərinə gedib həzrət Daniyal peyğəmbəri (ə) ziyarət etdik. Orada öyrəndik ki, Bəsic adlanan bütün könüllü qüvvələri batalyon və briqadalara bölmüşlər və böyük bir əməliyyata hazırlıq gedir.

Ziyarətdə Hacı Əli Fəzlini gördüm. O bizi sevinclə qarşıladı. Hacı Əli canlı qüvvənin bölgüsü haqda məlumat verib bizi özü ilə əl-Məhdi briqadasına apardı. Orada bir neçə Bəsic və bir neçə ordu batalyonu vardı.

Hacı Hüseyn Əndərzqu dəstəsinin uşaqlarını da batalyonlara böldü. Onların çoxu batalyonların kəşfiyyat bölüklərinə başçılıq etdilər.

Rza Qudini bir batalyona düşdü, Cavad Əfrasiyabi birinə, İbrahim də başqa birinə.

Hazırlıq işləri çox tez başa çatdı. Korpusun kəşfiyyatçı uşaqları aylar idi orada işləyirdilər. Düşmən işğalı altındakı bütün bölgə öyrənilmiş, hətta İraq ordusunun zirehli briqada və batalyonlarının yerləşdiyi yerlər də müəyyən edilmişdi. Beləliklə, 21.03.1982 tarixində "Ya Zəhra" parolu ilə Fəthülmübin əməliyyatı başlandı.

Həmin gün axşamüstü batalyon komandirlərini və komandir müavinlərini əməliyyat bölgəsinə apardılar, ərazini və hücum tərzini uzaqdan izah etdilər. Əməliyyatın ən çətin hissələrindən biri əl-Məhdi briqadasının batalyonlarına tapşırıldı.

Martın 21-də qürub çağı yaxınlaşanda şəxsi heyətdə fəallıq artdı. Namazdan sonra isə hərəkət başlandı.

Mən bir an da İbrahimdən ayrılmırdım. Nəhayət, bizim batalyonumuz da yola düşdü, lakin bəzi səbəblərdən onunla mən gecə saat 2-də yola düşdük.

Gecə qaranlıqda batalyona çatdıq. Yolda oturmuşdular. İbrahim soruşdu: "Burada nə edirsiniz?! Siz düşmən mövqeyinə hücum etməlisiniz".

Dedilər: "Komandirin əmridir".

İbrahimlə irəli getdik. O, komandirə dedi: "Uşaqları nə üçün bu düzənlikdə saxlamısınız? İndi hava işıqlanacaq. Burada gizlənməyə yer yoxdur, düşmənin düz gözü önündəsiniz".

Komandir dedi: "Qarşıdakı sahə minalanıb, aramızda da mina təmizləyən yoxdur. Qərargahla əlaqə saxladıq, gəlirlər”.

İbrahim dedi: "Gözləmək olmaz".

Sonra üzünü uşaqlara tutub dedi: "Canından keçməyə hazır olan bir neçə könüllü mənimlə gəlsin, yolu açaq".

Uşaqların bir neçəsi onun ardınca qaçdı. Onlar minalanmış sahəyə girib ayaqlarını sürüyə-sürüyə irəliləməyə başladılar.

Mat-məəttəl İbrahimə baxırdım. Yerimdə donub qalmışdım. Mən şəxsi heyətin yanında dayanmışdım, o isə minalanmış sahədə idi. Hər an partlayış səsini və İbrahimin şəhadətini gözləyirdim. Saniyələr ağır keçirdi. Nəhayət, yolun sonuna çatdılar. Allaha şükür ki, o hissədə mina yox idi.

Həmin gecə minalanmış sahədən keçib düşmən səngərlərinə hücum etdik və mövqeləri tutduq, amma çox irəliləmədik.

Səhərə yaxın İbrahim böyründən qəlpə yarası aldı. Uşaqlar onu tez geri göndərdilər.

Səhər İbrahimi təyyarə ilə şəhərə aparmaq istəyirdilər, amma o, israrla təyyarədən endi, tibb məntəqəsində yarasını tikdirib yenidən əməliyyat yerinə qayıtdı.

Birinci gecədə hücum zamanı batalyonumuzun komandiri və müavinləri yaralandılar. Əli Müvəhhid batalyonumuzun yeni komandiri seçildi.

Həmin gün komandirlərin bir neçəsi, o cümlədən Möhsün Vəzvayi ilə bir iclas keçirildi və əməliyyatın növbəti mərhələsi elan olundu.

Bu mərhələdə əsas iş düşmənin ağır artilleriyasını ələ keçirmək və Rəfaiyyə körpüsündən keçmək idi. Korpusun kəşfiyyatçıları uzun müddət idi bu plan üzərində işləmişdilər. Növbəti mərhələlərdə qələbə bundan asılı idi.

Növbəti gecə yenidən hərəkət başlandı. Partladıcı bölüyün uşaqları öndə gedirdilər, arxalarında Əli Müvəhhid, İbrahim və digərləri.

Nə qədər getdiksə, düşmən mövqelərinə çatmadıq, 6 km.-dən sonra yorulub dayandıq.

Əli Müvəhhidlə İbrahim ətrafı gəzdilər. Düşmən artilleriyasından əsər-əlamət yox idi. Düzənlikdə azmışdıq.

Buna baxmayaraq, uşaqlarda qəribə soyuqqanlılıq vardı. Təxminən hamı yarım saat yatdı.

İbrahim sonralar İnqilab sözü jurnalına müsahibəsində deyirdi: "Həmin gecə düzənlikdə nə qədər gəzirdiksə, uzun səhradan başqa bir şey görmürdük. Nə edəcəyimizi bilmirdik. Orada bir neçə dəqiqə səcdə halında qaldıq. Allahı həzrət Zəhraya (ə) və məsum imamlara and verib İmam Mehdiyə (ə) təvəssül etdik. Yadımıza düşən yeganə iş bu idi".

***

Həmin gecə nə baş verdiyini, o qəribə səcdədə Allaha nə deyildiyini heç kim bilmədi.

Bir neçə dəqiqədən sonra İbrahim qaranlıq çölün ortasında istirahət edən şəxsi heyətin sol istiqamətinə

getməyə başladı. Təxminən 1 km. gedəndən sonra böyük bir istehkama çatdı. İstehkamın arxasında çoxlu artilleriya və ağır texnika toplanmışdı.

Düşmən qüvvələri şirin yuxuda idilər. Ərazidə yalnız bir neçə keşikçi görünürdü. İbrahim cəld batalyonun yanına qayıdıb Əli Müvəhhidlə danışdı. Onlar uşaqları istehkamın arxasına gətirdilər. Yolda uşaqlara dedilər ki, biz deməyincə atəş açmayın, döyüş başlayandan sonra isə bacardığınız qədər əsir tutun. Möhsün Vəzvayinin başçılıq etdiyi Həbib batalyonu da digər tərəfdən İraq artilleriyasına hücuma keçdi.

Həmin gecə uşaqlar Allahu-Əkbər şüarı ilə başlayan qısa döyüş ərzində bütün topxananı ələ keçirdilər və çoxlu əsir tutdular. Artilleriyanın ələ keçirilməsi İraq ordusuna Xuzistanda ciddi problem yaratdı. Uşaqlar top lülələrini dərhal düşmən tərəfə çevirdilər, lakin artilleriyaçılar olmadığına görə onlardan istifadə olunmadı.

Topxana ələ keçirildi, biz də onun ətrafında təmizlənmə işlərinə başladıq. Bir neçə dəqiqədən sonra İbrahim bir İraq zabitini gətirib batalyonun uşaqlarına təhvil verdi.

- Ətrafda gəzişəndə mənə doğru gəlməyə başladı. Yazıq bu bölgələrin azad olunduğunu bilmirmiş. Dedim ki, təslim ol, o isə mənə hücum etdi. Silahı yox idi. Mən də onunla güləşib yerə yıxdım, sonra qollarını bağlayıb gətirdim.

Sübh namazını topxananın ətrafında qıldıq. Dəstək qüvvələri gələndən sonra yolumuza davam etdik. Hələ önümüz tam təmizlənməmişdi.

Birdən iki düşmən tankı göründü. Bizə doğru gəlirdilər, amma birdən dönüb qayıtdılar. İbrahim cəld onların arxasınca qaçdı, birinin üstünə hoppanıb üstündəki qapını

açdı və ərəbcə nəsə dedi. Tank dayandı və içindən bir neçə nəfər enib təslim oldu.

Hava hələ işıqlanmamış şəxsi heyət yenidən nizama salındı və irəliyə doğru yola düşdük. Yolda İbrahimə dedim: "Fikir verdin ki, biz topxananın arxasından düşmənə hücum etdik?"

Təəccüblə dedi: "Yox. Necə yəni?!"

– Düşmən irəliyə çoxlu qüvvə toplayıb bizi gözləyirmiş, lakin Allah istədi ki, biz başqa yolla gələk və topxananın arxasından hücum edək. Buna görə bu qədər əsir və qənimət götürə bildik. Digər tərəfdən, onlar gecə saat 2-ə qədər hazır vəziyyətdə imişlər, istirahətə başlayandan sonra biz hücuma keçdik.

Yenidən əsirləri toplayıb uşaqların bir qismi ilə geri yolladıq. Özümüz isə digər şəxsi heyətlə birgə əməliyyatın son mərhələsini yerinə yetirməkdən ötrü irəliyə yola düşdük.

# *Yaralanma*

**Mürtəza Parsaian, Əli Müqəddəm**

Bütün batalyonlar öz istiqamətlərindən irəlilədilər. Biz qarşımızdakı mövqelərdən və ətraf səngərlərdən keçməli idik. Hava işıqlananda isə iş çox çətinləşdi. Rəfaiyyə körpüsünün yaxınlığında vəziyyət mürəkkəbləşdi. Bir səngərin içindən pulemyot dayanmadan atəş açır, heç kim irəliləyə bilmirdi. Nə qədər çalışdıqsa, pulemyotun beton səngərini vura bilmədik.

İbrahimi çağırıb uzaqdan səngəri göstərdim. Diqqətlə baxıb dedi: "Yeganə yol yaxınlaşıb içəri qumbara atmaqdır".

Sonra məndən iki əl qumbarası alıb sürünə-sürünə düşmən səngərlərinə yaxınlaşdı. Mən də onun arxasınca yola düşdüm.

Səngərlərin birində mövqe seçdim, İbrahim isə irəlilədi. O, pulemyotçuya yaxın səngərlərin birində münasib bir yer tapdı. Bu zaman qəribə bir hadisə baş verdi. Oradakı azyaşlı bir Bəsic üzvü psixoloji müvazinətini itirdi, kalaşnikov avtomatını İbrahimin sinəsinə dirəyib dayanmadan qışqırmağa başladı: "Səni öldürəcəyəm, iraqlı!"

İbrahim oturub əllərini yuxarı qaldırdı. Heç nə demirdi. Hamı yerində donub qalmışdı. Həqiqətən, nə edəcəyimizi bilmirdik. Bir neçə saniyə keçdi. Düşmən pulemyotunun səsi kəsilmirdi.

Ehtiyatla sürünə-sürünə irəliləyib özümü həmin səngərə çatdırdım. Yalnız dua edib Allahdan kömək istəyirdim; deyirdim ki, dünəndən bəri düşmənlə problemimiz olmayıb, bu problemi də Özün həll elə.

Birdən İbrahim həmin Bəsic üzvünün üzünə bir sillə vurub silahını aldı, sonra da onu qucaqladı. Sanki özünə gəlmiş gənc ağlamağa başladı. İbrahim məni çağırıb gənci təhvil verdi və dedi: "İndiyə qədər heç kimin üzünə vurmamışdım, amma burada lazım idi". Sonra pulemyota doğru getdi.

Bir neçə saniyədən sonra ilk qumbaranı atdı, amma nəticəsiz oldu. Ayağa qalxıb qaça-qaça ikinci qumbaranı atdı. Bir andan sonra isə pulemyot səngəri dağıldı. Uşaqlar "Allahu-Əkbər" qışqırıb hücuma keçdilər. Mən də sevinib uşaqlara baxırdım. Birdən dönüb səngərin yanına baxdım. Gülümsədiyim yerdə donub qaldım. İbrahim qanın içində yerə yıxılmışdı. Silahımı atıb ona sarı qaçdım.

Düz partlayış anında bir güllə üzünə, bir güllə də ayağının arxasına dəymişdi. O, çoxlu qan itirmişdi və təxminən huşsuz halda idi. Qışqırdım: "İbrahim!"

Uşaqların köməyi ilə onu və digər bir neçə yaralını maşına qoyub ordunun Dezfuldakı tibb məntəqəsinə çatdırdıq.

İbrahim son mərhələsinə qədər əməliyyatda iştirak etdi, düşmənin son səngərlərini alanda yaralandı.

Yolboyu ağlayırdım, narahat idim ki, birdən İbrahim... Yox, Allah eləməsin! İbrahim əməliyyatın birinci gecəsində də yaralanmışdı, onda da bədəni çox qan itirmişdi. Bilmirdim ki, indi müqavimət göstərə biləcək, yoxsa yox.

Dezfulda həkim dedi: "Üzünə dəyən güllə möcüzəvi şəkildə boynundan çıxıb və bir yerə xəsarət yetirməyib. Ayağına dəyən güllə isə arxa sümüyünü parçalayıb. Digər tərəfdən, böyrünün yarası da açılıb və qanayır. Bu baxımdan, müalicə üçün Tehrana göndərilməlidir".

İbrahim Tehranın Nəcmiyyə xəstəxanasında bir ay müalicə olundu. Onu bir neçə dəfə cərrahiyyə əməliyyatı edib bədənindən bir neçə qəlpə çıxardılar.

İbrahim xəstəxanada verdiyi müsahibədə demişdi: "Uşaqlar bu əməliyyatdan ötrü aylarla zəhmət çəkmiş və kəşfiyyat işləri görmüşdülər. Lakin biz Allahın lüftü ilə Fəthülmübində əməliyyat keçirmədik, yalnız "ya Zəhra" şüarı ilə yürüş etdik. Orada baş verənlər həzrət Fatiməyi-Zəhranın (ə) duasının nəticəsi idi".

İbrahim həmçinin demişdi: "Səhrada uşaqları o tərəf-bu tərəfə aparanda və hamısı yorulanda səcdəyə gedib İmam Mehdiyə (ə) təvəssül etdim. Başımı qaldıranda uşaqlar artıq istirahətdə idilər, çoxu yatmışdı. Sərin meh də əsirdi. Mən mehin əsdiyi istiqamətə getdim, bir qədər irəlidə isə artilleriya düşərgəsinin ətrafındakı istehkama çatdım".

Sonda jurnalistin "Xalqa bir sözünüz varmı?" sualına İbrahim belə cavab vermişdi: "Biz bu xalqdan xəcalətliyik. Onlar öz süfrələrindən kəsib döyüşçülərə göndərirlər. Bu xalqa borcumu ödəmək üçün gərək onun uğrunda parça-parça olum".

Ayağının sümüyü sındığına görə yeriyə bilmirdi. Bir müddət xəstəxanada qalandan sonra evə getdi və təxminən altı ay cəbhədən uzaq düşdü. O, bu müddətdə məhəllə və məscid uşaqları arasında ictimai və dini fəaliyyətlər göstərirdi.

# *Məddahlıq*

## Əmir Mənсər və Cavad Şirazi

İbrahim yuxarı siniflərdə oxuyarkən dostları ilə birgə İslam vəhdəti heyətini yaratmış, çoxlu dostlarına xeyir səbəbi olmuşdu. Tez-tez tövsiyə edirdi ki, dini ruhiyyəni qorumaqdan ötrü məhəllələrdə heyətlər yaradın; özü də dini söhbət orada əsas məsələ olsun.

Dostlarından biri deyir: "İbrahimin şəhadətindən illər sonra Tehran məscidlərinin birində dini işlərlə məşğul idim. Bir gün fikirləşirdim ki, uşaqları hansı yolla məscidə və dini fəaliyyətlərə yaxınlaşdırmaq olar.

Həmin gecə İbrahimi yuxuda gördüm. O, məscidin bütün uşaqlarını toplayıb "Həftəlik heyət məclisləri təşkil edib uşaqları qoruyun" – dedi, sonra da iş tərzini izah etdi.

Biz həmin işi gördük. Əvvəldə uğurlu olacağını düşünmürdük, lakin illər ötdükcə bəhrəsini gördük və indi də həftəlik heyət məclisi vasitəsilə uşaqlarla əlaqə saxlayırıq”.

İbrahimin məhəllə uşaqları ilə əlaqə vasitəsi də bu idi. O, gəncləri idmana cəlb edir, sonra heyətə və məscidə sövq edib deyirdi: "Uşaqların əli İmam Hüseynin (ə) əlinə çatsa, problem həll olacaq, ağanın özü onlara lütf edəcək".

İbrahim hələ orta məktəbi bitirməmiş məddahlığa başladı. O, digərlərini də oxumağa həvəsləndirirdi. İslam vəhdəti heyətində hər həftə Şəhid Abdullah Misgərlə birgə məddahlıq edirdi.

Ora bir heyətin fövqündə duran birlik idi. O, uşaqların etiqadi, hətta siyasi məsələlərdə inkişafına da çox təsir edirdi.

Əllamə Məhəmmədtəqi Cəfəri, Hacı ağa Nəcəfi kimi din alimlərini, siyasi və dini şəxsiyyətləri söhbətə cəlb

etmək bu heyətin fəaliyyətlərindən idi. Buna görə SAVAK məmurları onun fəaliyyətini xüsusi nəzarətdə saxlayırdılar. Bir neçə dəfə məclislərinin qarşısı alınmışdı.

İbrahimin məddahlığı həmin heyətdən və zorxana idmanından başladı, inqilab dövründə və ondan sonra isə çox genişləndi. Onun riayət etdiyi əsas məqam başqa idi. O deyirdi: "Mən öz ürəyim üçün oxuyuram. Çalışıram ki, daha çox özüm bəhrələnim və məddahlıq zamanı qeyri-ilahi bir niyyətim olmasın".

***

Motosikletdə oturmuşdu. Gözəl səsilə həzrət Zəhranın (ə) mədhinə yazılmış şeirlər oxumağa başladı.

Çox gözəl və yanıqlı şeir idi. Heyətin bir məclisində xahiş etdim ki, həmin şeiri oxusun, amma razılaşmayıb dedi: "Burada məddah var. Mənim ümumiyyətlə, yaxşı səsim yoxdur”.

Bilirdim ki, Allah üçün olmayan və ya özünün təriflənməsinə səbəb olan işlərdən qaçır. Məddahlıqda qəribə adətləri vardı, mikrofon, əks-səda və s. vasitələr istəməzdi, dəfələrlə mikrofonsuz oxumuşdu.

O deyirdi ki, Əhli-beyt hər şeyini İslam yolunda verib, biz də heç olmasa, yaxşı sinə vurmalıyıq.

Toy və əza mərasimlərində harada oxumalı olduğunu düşünsəydi, oxuyardı. Lakin orada başqa bir məddah olsaydı, oxumaz və onu dinləyərdi.

İbrahim həzrət İmam Rzanın (ə) bu hədisinin real nümunəsi idi: "Bizim müsibətlərimizə ağlayan və ağladan şəxsin əcrini Allah Özü verəcək. Bizim faciələrimizə görə gözü yaşaran və ağlayan şəxsi Allah qiyamətə bizimlə birgə gətirəcək".[1]

---

[1] "Müstədrək əl-Vəsail", c. 1, s. 386.

Əzadarlıq zamanı yüksək mənəvi halda olurdu. Çoxları onun iştirakından və əzadarlığından həvəslənirdilər.

İbrahim olduğu hər bir yeri Kərbəlaya çevirirdi, onun ağlayıb-sızlaması qəribə ab-hava yaradırdı. Bunun bir nümunəsini 1982-ci ilin ərbəin günündə Hüseyn aşiqləri heyətində gördük.

Heyət uşaqları o günü heç vaxt unutmazlar. İbrahim həzrət Zeynəbi (ə) yad edirdi. O, məclisə böyük coşqu qatmışdı. Sonra da huşunu itirib özündən getdi. Həmin gün uşaqlarda misilsiz bir hal yarandı. Əminəm ki, İbrahimin isti nəfəsinə və mənəvi yanğısına görə məclis elə dəyişmişdi.

İbrahim məddahlıq barədə maraqlı sözlər deyirdi. O düşünürdü ki, məddah Əhli-beytin hörmətini qorumalı, hər sözü deməməli, uyğun şərait olmadıqca rövzə oxumamalıdır.

İbrahim özünü məddah hesab etmirdi, lakin harada oxuyurdusa, gözəl mənəvi mühit yaradırdı.

O, şəhidləri heç vaxt yaddan çıxarmırdı. Şəhidlərin, xüsusən də Əsğər Vüsalinin və Əli Qurbaninin adları keçən bir neçə beyt şeir hazırlamışdı və əksər məclislərdə oxuyurdu.

***

Tasua axşamı idi. Məsciddə böyük əzadarlıq keçirildi. İbrahim əvvəldə çox yaxşı sinə vururdu, amma sonra kənara çəkildi. Qaranlıqda bir tərəfdə dayanıb yavaşca sinə vururdu.

Mərasim çox uzandı və gecə saat 12-də bitdi.

Ehsan vaxtı hamı İbrahimin ətrafına yığışdı. Mən dedim: "Necə gözəl əzadarlıq idi! Uşaqlar çox yaxşı sinə vururdular".

İbrahim mənə və uşaqlara mənalı tərzdə baxıb dedi: "Eşqinizi özünüzə saxlayın".

Bizim təəccübümüzü görəndə sözünə davam etdi: "Bu camaat həzrət Əbəlfəzl rövzəsi dinləməyə gəlib. Əzadarlıq uzananda onlar da yorulurlar. Siz bir qədər əzadarlıqdan sonra ehsanı verin, sonra isə nə qədər istəyirsiniz, sinə vurun və eşqinizi bildirin. Elə edin ki, camaat Əhli-beyt məclisində yorğunluq hiss etməsin".

## *Həzrət Zəhra (ə) məclisi*

**Şəhidin dostları**

Hacı Əbülfət məscidində məclisə getmişdik. Məclisdə İbrahimin həzrət Zəhra (ə) barədə yazdığı şeirlər oxundu, sonda Hacı Əli İnsani rövzə oxudu.

İbrahim özündə deyildi, şeir dəftərçəsini bağlayıb ucadan ağlayırdı. Mən onun bu rəftarına çox təəccübləndim. Məclisdən sonra evə gedəndə yolda dedi: "Adam həzrət Zəhra (ə) məclisinə daxil olanda gərək onu orada hiss etsin, çünki məclis o həzrətə məxsusdur".

***

Bir dəfə mənim israrımla eydi-Zəhra məclisinə getdik. Həzrət Fatimə aşiqi olduğuna görə çox sevinəcəyini zənn edirdim.

Məclisin məddahı guya həzrət Zəhranı (ə) sevindirmək üçün bəzi səhabələrə qarşı kobud sözlər işlədirdi. Məclisin ortasında İbrahim mənə işarə verdi və birlikdə məclisdən çıxdıq. Yolda soruşdum: "Deyəsən narahat oldun, eləmi?"

O, həmişəki kimi soyuqqanlı deyildi. Üzünü mənə tutdu və əlini hirslə tərpədib dedi: "Bu məclislərdə Allahı tapmaq olmaz. Həmişə elə yerə get ki, Allahdan və Əhli-beytdən danışsınlar".

Bu cümləni bir neçə dəfə təkrarladı. Sonralar din alimlərinin o məclislər barədə, habelə müsəlmanların birliyini qorumaq haqda fikirləri ilə tanış olanda İbrahimin dəqiqliyini alqışladım.

***

Fəthülmübində yaralananda onu cəld Dezfula, ordunun tibb məntəqəsinə apardıq. Zalda çox adam vardı, yaralılar zarıyırdılar. Nəhayət, küncdə bir yer tapıb onu yerə qoyduq. Tibb işçiləri onun boynunun və ayağının yarasını

bağladılar. O şəraitdə hamının əsəbi pozulmuşdu, yaralıların səs-küyü olduqca çox idi. Birdən İbrahim ucadan oxumağa başladı.

O, həzrət Zəhranı (ə) vəsf edən gözəl bir şeir oxudu. Həmin əməliyyatın parolu da o həzrətin adından ibarət idi. Bir neçə dəqiqə zalı qəribə sükut bürüdü, heç bir yaralı sızlamadı, sanki hər şey qaydasına düşdü.

Hər tərəfdən rahatlıq yağır, yaralıların və tibb işçilərinin gözlərindən yaş damlaları axırdı.

İbrahim oxuyub qurtaranda digərlərindən yaşlı olan və hicabı kamil olmayan bir xanım doktor ona yaxınlaşdı. O, çox təsirlənmişdi. Yavaşca dedi: "Sən də mənim oğlum kimisən. Siz gənclərə qurban olum!"

Sonra oturub İbrahimin başından öpdü. İbrahimin üzü qulaqlarına qədər qızardı. Sonra xəcalətindən mələfəni üzünə çəkdi.

İbrahim həmişə deyirdi: "Allaha təvəkküldən sonra məsumlara, xüsusən də həzrət Zəhraya (ə) təvəssül etmək problemlərin açarıdır”.

***

İbrahimi görmək üçün Nəcmiyyə xəstəxanasına getmişdim. Bir yerdə oturmuşduq. İbrahim icazə alıb həzrət Zəhra (ə) haqda rövzə oxumağa başladı. İki həkim uzaqdan bizə baxırdı. Yaxınlaşıb soruşdum ki, bir şey olub?

- Yox. Biz təyyarədə onun yanında idik. Tez-tez huşunu itirirdi, amma o vəziyyətdə də gözəl səslə həzrət Fatimənin (ə) mədhinə yazılmış şeirlər oxuyurdu.

## *Yay*

**Mürtəza Parsaian**

Yaralandığına görə Tehranda müalicə olunan İbrahim 1982-ci ilin yayında məktəb məsələləri ilə maraqlandı. O, xidmətlə yanaşı təkmilləşdirici kurslara qatıldı və həmin qısa müddətdə bir neçə dini-mədəni fəaliyyətlə çıxış etdi.

***

Onu əsa ilə maarif şöbəsinin pilləkənlərindən qalxarkən gördüm. Yaxınlaşıb salam verdim.

– Ağa İbrahim, nə olub? Əgər bir işin varsa, de, biz görək.

– Yox, özüm həll edəcəm.

Bir neçə otağa girib imza aldı. İşləri bitəndən sonra soruşdum: "Bu kağız nə idi? Nə üçün özünü bu qədər əziyyətə saldın?”

– Bir Allah bəndəsi var, iki il müəllim işləyib, amma hələ işədüzəlmədə problem yaşayır. Onun işini gördüm.

– Cəbhə uşaqlarındandır?

– Güman etmirəm. Məndən xahiş elədi, mən də gördüm ki, bacararam. Ona görə gəldim.

Sonra sözünə davam etdi: "Adam gərək Allah bəndələri üçün bacardığı işi görsün. Xüsusən də belə yaxşı xalqımıza gərək əlimizdən gələni edək. İmam Xomeyni buyurub ki, xalq bizim nemət sahibimizdir".

***

Məhəllədə İbrahimi hamı tanıyırdı. Hamı bir ünsiyyətlə onun rəftar və düşüncələrinə aşiq olurdu.

İbrahimgilin evi həmişə dostları ilə dolu olurdu. Cəbhədən gələn uşaqlar öz evlərindən öncə onlara gedib İbrahimə baş çəkirdilər.

Bir gün Məhəmmədiyyə məscidinin imamı sübh namazına gəlməmişdi. Camaat israrla İbrahimi önə çıxardı və onun arxasında namaz qıldı.

Hacı ağa bunu eşidəndə çox sevinib dedi: "Əgər mən də olsaydım, məmnuniyyətlə ağa Hadinin arxasında namaz qılardım".

***

İbrahim əsa ilə küçədən keçirdi. Bir neçə dəfə göyə baxıb başını aşağı saldı.

Yaxınlaşıb soruşdum: "Ağa İbrahim, nə olub?"

Əvvəlcə cavab vermək istəmədi. İsrarımdan sonra isə dedi: "Hər gün bu vaxta qədər ən azı bir Allah bəndəsi bizə yaxınlaşırdı və birtəhər problemini həll edirdik. Bu gün isə səhərdən indiyə qədər heç kim müraciət etməyib. Qorxuram ki, hansısa əməlimə görə Allah Öz bəndələrinə xidmət səadətini məndən almış olar".

## *Tərbiyə üsulu*

**Cavad Məclisirad, Mehdi Həsən Qumi**

Bizim evimiz ağa İbrahimgilə yaxın idi. O vaxt mənim 16 yaşım vardı. Hər gün küçədə uşaqlarla voleybol oynayır, sonra da damda quş uçururduq.

O vaxt təxminən 170 göyərçinim var idi. Azan veriləndə qardaşım məscidə gedirdi. Mənsə məscid adamı deyildim.

Axşamüstü idi və biz yenə voleybol oynayırdıq. İbrahim evlərinin önündə əsa ilə dayanıb bizə baxırdı. Oyun zamanı top onun yanına düşdü. Mən topu götürməyə gedəndə o götürdü və baş barmağı üzərində gözəl şəkildə fırladıb dedi: "Buyurun, ağa Cavad".

Adımı bilməsinə çox təəccübləndim. Oyunun sonuna qədər bir gözüm onda idi. Fikirləşirdim ki, mənim adımı haradan bilir.

Bir neçə gündən sonra yenə oynayanda yaxınlaşıb dedi: "Dostlar, məni də oyuna alırsınız?"

- Əlbəttə. Siz voleybol da oynayırsınız?

– Bilməsəm də sizdən öyrənərəm.

Əsanı kənara qoyub axsaya-axsaya oynamağa başladı.

Mən o vaxta qədər elə yaxşı oyunçu görməmişdim. O hələ yaralı idi və yerindən tərpənmirdi. Topa çox güclü zərbə vurur, servisləri də çox yaxşı götürürdü.

Axşam qardaşıma dedim: "Ağa İbrahimi tanıyırsan? Yaxşı voleybol oynayır".

Qardaşım gülüb dedi: "İbrahim məktəblər arasında voleybol çempionu olub. Həm də güləş üzrə çempiondur".

Təəccüblə dedim: "Doğru deyirsən?! Bəs nə üçün bizə heç nə demədi?"

- Bilmirəm. Ancaq bil ki, o, çox böyük adamdır.

Bir neçə gündən sonra biz voleybol oynayanda yenə gəldi. Hamı onu öz komandasına istəyirdi. Yenə oynadıq və çox gözəl oyun göstərdi.

Oyunun ortasında məsciddə günorta azanı başladı. İbrahim topu saxlayıb dedi: "Uşaqlar, birlikdə məscidə gedəkmi?"

Dedik: "Gedək".

Sonra birlikdə camaat namazına getdik.

Bir neçə gün ötdü. Ağa İbrahimi çox istəyir, ona görə məscidə gedirdim. Bir dəfə bizi nahar yeməyinə dəvət etdi və birlikdə çox söhbətləşdik. Ondan sonra hər gün ağa İbrahimi axtarırdım. Onu bir gün görməyəndə darıxır, həqiqətən narahat olurdum. Bir dəfə onunla zorxana idmanına getdik. Onun əxlaq və rəftarını çox sevirdim. O, sevgi və dostluqla bizi namaza və məscidə aparırdı.

Yaralı dövrünün sonları idi. Cəbhəyə qayıtmaq istəyirdi. Bir axşam küçədə oturanda mənə Fəthülmübin əməliyyatındakı 13-14 yaşlı uşaqlardan danışdı və bir cümlə ilə sözünü dedi: "Onlar yaş və bədən baxımından səndən kiçik olsalar da, Allaha təvəkkül edib böyük qəhrəmanlıqlar yaradırlar. Sən də burada oturub gözünü göyə dikmisən ki, görüm göyərçinlər nə edirlər".

Ertəsi gün bütün göyərçinləri başqasına verib cəbhəyə yollandım.

O hadisədən illər ötür. İndi təhsil məsələləri üzrə ekspertəm və başa düşürəm ki, İbrahim öz tərbiyə işini necə düzgün və dəqiq görürmüş. O, çox gözəl şəkildə yaxşı işlərə dəvət edir, pis işlərdən çəkindirirdi. Onun gözəl rəftarı tərbiyə iddiaçılarına örnək idi; özü də elə bir zamanda ki, tərbiyə üsulları haqda heç bir söhbət getmirdi.

***

Şəbanın on beşi idi. İbrahimlə küçəyə girdik. Küçə çox gözəl bəzədilmişdi. Məhəllə uşaqları küçənin sonunda toplaşmışdılar. Onlara yaxınlaşanda kart oynadıqlarını gördük.

İbrahim çox hirslənsə də, heç nə demədi. Mən yaxınlaşıb ağa İbrahimi təqdim etdim.

– O, mənim dostlarımdan, voleybol və güləş çempionudur.

Uşaqlar İbrahimlə salamlaşıb hal-əhval tutdular.

Sonra heç kim duymadan İbrahim mənə pul verib dedi: "Tez on ədəd dondurma al, gəl".

Həmin axşam İbrahim bir qədər dondurma ilə, habelə deyib-gülməklə bizim məhəllə uşaqlarımızla dostlaşdı. Sonda da kartın haram olmasından danışdı.

Biz küçədən çıxanda artıq bütün kartlar cırılıb kanala tökülmüşdü.

# *Düzgün rəftar*

## Şəhidin dostları

17 Şəhrivər xiyabanı ilə gedirdik. Motosikletdə İbrahimin arxasında oturmuşdum. Birdən küçədən sürətlə bir motosiklet çıxdı, qarşımıza keçib sərt şəkildə əyləcə basdı.

Zahiri görkəmi dinə çox da uymayan gənc motosikletçi qışqırdı: "Huu! Nə edirsən?!" Sonra da dayanıb hirslə bizə baxdı.

Hamı onun günahkar olduğunu bilirdi. Mənim də ürəyimdən keçirdi ki, İbrahim aşağı enib onun dərsini versin. Lakin o, cavanın kobud rəftarına cavab olaraq təbəssümlə dedi: "Salam. Yorulmayasınız!"

Hirsli motosikletçi belə bir rəftar gözləmədiyinə görə yerində donub qaldı. Bir qədər duruxub dedi: "Salam. Üzr istəyirəm". Sonra yola düşüb getdi, biz də yolumuzu davam etdirdik.

İbrahim yolda danışmağa başladı və beynimdəki suallara cavab verdi.

– Gördün nə baş verdi?! Bir salamla hirsi soyudu, hələ üstəlik üzr də istədi. Əgər mən də qışqırıb dalaşsaydım, əsəblərimi və əxlaqımı korlamaqdan başqa bir iş görmüş olmayacaqdım.

İbrahimin yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmə üsulu çox gözəl idi. Bir işdən çəkindirmək istəyəndə onu dolayısı ilə deyirdi. Məsələn, həmin işin tibbi, ictimai və digər mənfi nəticələrini sayırdı ki, qarşı tərəf özü nəticə çıxarsın. Sonda da dindən dəlil gətirirdi.

İbrahimin dostlarından biri şorgöz idi, daim qeyri-əxlaqi rəftarlarla məşğul olurdu. Dostlarından bir neçəsi

qışqırmaq və küsməklə onun bu vərdişinin qarşısını ala bilməmişdi.
Elə bir şəraitdə onu az adam saya salırdı. İbrahim isə onunla çox yaxın münasibətini davam etdirirdi; onu özü ilə zorxanaya gətirir, digərlərinin yanında ona hörmət edirdi.

İbrahim bir müddətdən sonra onunla danışdı. Əvvəlcə onda qeyrət hissini oyadıb dedi: "Əgər kimsə sənin ana-bacını baxışları ilə incitsə, nə edərsən?"

Həmin oğlan hirslə dedi: "Gözlərini çıxararam".

İbrahim çox soyuqqanlılıqla dedi: "Yaxşı, oğlan, öz namusun üçün bu qədər qeyrətin var, nə üçün həmin səhv işi görürsən?"

Sonra əlavə etdi: "Bax, əgər hamı başqasının namusuna baxsa, cəmiyyətdə nizam-intizam pozular".

Sonra İbrahim naməhrəmə baxmağın haramlığından danışıb Peyğəmbərin bu hədisini söylədi: "Gözlərinizi naməhrəmdən qoruyun ki, qeyb aləmini görəsiniz".[1]

Sonra başqa səbəblər də göstərdi və həmin oğlan təsdiqlədi.

– Özün qərara gəl. Əgər bizimlə dost qalmaq istəyirsənsə, bu işi tərk etməlisən.

İbrahimin yaxşı rəftarı və dəlilləri onun vərdişini tərk etməsinə səbəb oldu. Sonra o, bütün yanlış işlərini kənara qoyub məhəllənin yaxşı uşaqlarından birinə çevrildi. O, İbrahimin yaxşı rəftarla və yerində gətirdiyi dəlillə dəyişdirdiyi insanlardan yalnız biridir.

İndi məhəlləmizin küçələrindən birinə həmin oğlanın adı verilib.

---

[1] "Mizan əl-hikmə", c. 10, s. 72.

1982-ci ilin payızı idi. Motosikletlə Azadlıq meydanına gedirdik. İbrahim cəbhəyə gedirdi və mən onu Qərb avtovağzalına aparırdım.

Yanımızdan bahalı bir maşın keçdi. Sürücünün yanında düzgün hicabı olmayan bir qadın oturmuşdu. O, İbrahimə baxıb kobud bir ifadə işlətdi.

İbrahim dedi: "Tez onun ardınca sür".

Mən də sürətlə həmin maşını təqib etdim. Ona işarə ilə sağa çəkməsini bildirdik. Öz-özümə dedim ki, bu dəfə mütləq dava olacaq.

Avtomobil xiyabanın kənarında dayandı. Biz də motosikleti onun yanında saxladıq.

İbrahimin nə edəcəyini gözləyirdim. O, oturduğu yerdən sürücüyə salam verib hal-əhvalını soruşdu.

- Mən çox üzr istəyirəm. Sizin xanımınız mənə və bütün saqqallılara pis bir söyüş söydü. Bilmək istəyirəm ki...

Sürücü İbrahimin sözünü kəsib dedi: "Mənim yoldaşım qələt elədi, səhv elədi".

- Yox, ağa, mən yalnız bilmək istəyirəm ki, onun mənim boynumda bir haqqı qalıbmı, yaxud mən haradasa yanlış bir iş görmüşəmmi belə deyir?

Sürücü əsla belə rəftar gözləmirdi. Maşından enib İbrahimin üzünü öpdü və dedi: "Yox, əziz dost, siz heç bir səhv etməmisiniz. Biz səhv etdik və çox üzr istəyirik".

Çox üzrxahlıqdan sonra bizdən ayrıldılar.

İbrahimin özü də elə bir zamanda belə rəftarları bizə çox qəribə gəlirdi. Lakin o, bu işlərlə bizə insanlarla düzgün davranış qaydalarını öyrədirdi. O həmişə deyirdi ki, digərlərinin qəzəbi qarşısında səbirli olub məntiqsiz iş görməyən adam həyatda daha böyük uğurlar qazanar".

Onun belə davranış tərzi mənə bir Quran ayəsini xatırladırdı: "Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları zaman salam deyərlər".[1]

[1] Furqan, 63.

# *İlan hadisəsi*

**Mehdi Əmizadə**

Axşam saat 10 idi. Küçədə futbol oynayırdıq. Ağa İbrahimin adını məhəllə uşaqlarından eşitmişdim, amma onunla ünsiyyətim olmamışdı.

Oyun əsnasında küçənin başından bir nəfərin əsa ilə gəldiyini gördüm. Uzun saqqalından və axsaq ayağından bildim ki, odur.

Kənarda dayanıb oyunumuza tamaşa etdi. Uşaqların biri soruşdu: "Ağa İbrahim, oynayırsan?"

– Bu ayaqla oynaya bilmərəm, amma istəsəniz, qapıda dayanaram.

Mənim oyunum çox yaxşı idi, lakin nə qədər etdimsə, ona qol vura bilmədim. Peşəkar qapıçılar kimi oynayırdı.

Yarım saatdan sonra topu ayağının altında saxlayıb dedi: "Uşaqlar, sizcə, gec deyil?! Camaat yatmaq istəyir".

Topu və qapıları yığışdırıb onun yanında oturduq. Uşaqlar dedilər: "Mümkünsə, bizə cəbhə xatirələrindən danış".

Orada eşitdiyim xatirə heç vaxt yadımdan çıxmaz.

- Qərb bölgəsində Cavad Əfrasiyabi ilə kəşfiyyata getmişdik. Gecənin yarısı idi. Düşmən səngərlərinin yaxınlığında gizlənmişdik. Hava işıqlaşanda düşmən mövqelərinə dair məlumatlarımızı tamamlamağa çalışdıq. İşimizi görən yerdə birdən çox böyük bir ilanın düz bizim gizləndiyimiz yerə gəldiyini gördüm. O vaxta qədər elə böyük ilan görməmişdim. Yerimizdə donub qaldıq. Əlimizdən bir şey gəlmirdi.

Atəş açsaydıq, iraqlılar bilər, qaçsaydıq, görərdilər. İlan da sürətlə yaxınlaşırdı. Fikirləşməyə macal yox idi.

Boğazım qurudu. Qorxu içində yerə oturdum, gözlərimi bağlayıb "Bismillah" dedim və Allahı həzrət Fatimeyi-Zəhraya (ə) and verdim.

Zaman ağır keçirdi. Bir neçə saniyədən sonra Cavad qoluma vuranda gözlərimi açdım. İlan bizim yanımıza qədər gəlmiş, sonra yolunu dəyişmişdi.

Həmin axşam ağa İbrahim bizə bir neçə gülməli xatirə də danışdı və biz çox güldük. Sonra dedi: "Çalışın camaat yatmaq istəyəndə oynamayın".

Ondan sonra hər gün ağa İbrahimi axtarırdım. Sübh namazına məscidə getdiyini biləndən sonra mən də ona görə məscidə getməyə başladım.

Ağa İbrahimin mənə və digər məhəllə uşaqlarına təsiri o qədər böyük idi ki, namazı da onun kimi astadan və diqqətlə qılırdıq.

Bir müddətdən sonra cəbhəyə getdi. Biz də dayana bilməyib onun ardınca cəbhəyə yollandıq.

## *Allahın razılığı*

### Abbas Hadi

İbrahimin xarakteri elə idi ki, adətən, yanında olub görənlərdən başqa heç kim işlərindən xəbər tutmurdu. Lakin özü zəruri bildiyi məqamlarda bəzi işlərindən danışırdı. Həmişə deyirdi ki, Allahın razılığı üçün görülən işi deməyə gərək yoxdur. Həmçinin deyirdi: "Bizim problemimiz budur ki, hamının razılığından ötrü iş görürük, Allahdan başqa".

Həzrət Əli (ə) buyurur: "Kim qəlbini və əməllərini Allahdan qeyrisindən təmizləsə, Allahın nəzərində olar".[1]

Böyük ariflər də öz sözlərində bildirirlər ki, Allah üçün görülən iş dəyərli olar. Yaxud deyirlər ki, insan Allahdan qeyrisi üçün çəkdiyi hər bir nəfəsə görə axirətdə peşman olacaq.

İbrahim yaralananda Tehranın zorxanalarından birinə gedib birküncdə oturduq. Hər bir təcrübəli idmançı içəri girəndə mürşidin zəngi səslənir, idman bir neçə saniyəliyə dayanırdı. O da uzaqdan idmançılara əl yelləyir, gülümsəyir və otururdu.

İbrahim diqqətlə insanların hərəkətlərinə baxdı və sonra dönüb yavaşca mənə dedi: "Gör bunlar zəngin səslənməsinə necə sevinirlər. Bəzi adamlar zorxana zənginə aşiqdirlər. Onlar Allaha bu qədər aşiq olsaydılar, daha yer üzündə qalmaz, göylərdə yeriyərdilər. Dünya belədir: adam nə qədər ki dünya aşiqidir və bu dünyaya yapışıb, halı və günü budur. Lakin başını göyə qaldırsa və işlərini Allahın razılığı üçün görsə, əmin ol ki, həyatı dəyişər, yaşamağın mənasını anlayar. Zorxanada çoxları

---

[1] "Qürər əl-hikəm", s. 538.

bilmək istəyir ki, kim daha güclüdür və kim daha tez yorulur. Əgər bir gün miyandar olsan və birinin yorulduğunu görsən, Allahın razılığından ötrü tez idmanı dəyiş".

İbrahim deyirdi: "İnsan hər bir işi, hətta şəxsi işlərini də Allahın razılığından ötrü görməlidir".

***

Cümə səhəri yaxınlaşırdı. İbrahim qanlı köynəkdə evə gəldi. Çox yavaşca paltarlarını dəyişdi. Namazını qılandan sonra dedi: "Abbas, mən yuxarıda yatmağa gedirəm".

Günortaya yaxın həyətdən səs gəldi. Kimsə dayanmadan qapını döyürdü. Anam gedib qapını açdı. Qonşu qadın idi. Hirslə salam verəndən sonra dedi: "Sizin bu İbrahim mənim oğlumla tay-tuşdur?! Axşam oğlumu motosikletlə aparıb, sonra da qəzaya düşüblər, oğlumun ayağı sınıb".

Sonra əlavə etdi: "Bax, xanım, mən oğlumu ən yaxşı liseyə qoymuşam və sənin oğlun kimilərlə oturub-durmasını istəmirəm".

Anamızın heç nədən xəbəri yox idi. Çox narahat oldu, üzr istəyib dedi: "Mən nə dediyinizi, nədən danışdığını bilmirəm, amma baş üstə, mən İbrahimə deyərəm, siz bağışlayın..."

Mən onların danışığını eşidib yuxarı mərtəbəyə qaçdım, İbrahimi oyadıb dedim: “Dadaş, nə etmisən?”

– Nə olub ki?

– Motosikletiniz qəzaya düşüb?

Yerindən hoppanıb təəccüblə soruşdu: "Qəza?! Nə danışırsan?!”

– Bəs eşitmədin? Qapıdakı Məmmədin anası idi, haray-həşir salmışdı...

Bir qədər fikirləşib dedi: "Yaxşı. Allaha şükür, mühüm bir şey deyil".

Həmin gün axşamüstü Məhəmmədin ata-anası bir dəstə gül və bir qutu şirniyyatla İbrahimi görməyə gəldilər. Qonşu qadın dayanmadan üzr istəyirdi. Bizim anamız təəccüblə dedi: "Hacı xanım, nə səhərki sözlərindən bir şey anladım, nə də indiki işindən".

- Vallah, xəcalətimdən nə deyəcəyimi bilmirəm. Məhəmməd hər şeyi danışdı. Əgər ağa İbrahim olmasaydı, Allah bilir başına nə gələrdi! Məhəllə uşaqları biz narahat olmayaq deyə İbrahimlə Məhəmmədin qəzaya düşdüklərini söyləmişdilər. Hacı xanım, mən tez mühakimə yürütdüyümə görə üzr istəyirəm. Sən Allah, məni bağışla. Atasına da dedim ki, çox ayıbdır, ağa İbrahim neçə aydır yaralanıb, bizsə hələ onu görməyə getməmişik. Buna görə əziyyət verdik.

- Məhəmmədə nə olub ki?

- Cümə axşamı gecə məscidin Bəsic üzvləri məhəllədə keşik çəkirmişlər. Məhəmməd küçədə digər uşaqların yanında imiş. Birdən əli çaxmağa keçir və səhvən silahından açılan güllə öz ayağına dəyir. O, yaralanıb yıxılır və ayağından çoxlu qan axır. Bu zaman ağa İbrahim motosikletlə gəlib, uşaqların köməyi ilə Məhəmmədin ayağının yarasını bağlayıb və sonra xəstəxanaya aparıb".

Qonşu qadının söhbəti bitəndən sonra dönüb İbrahimə baxdım. Xüsusi soyuqqanlılıqla bir küncdə oturmuşdu. O, yaxşı bilirdi ki, Allahın razılığından ötrü bir iş görmüş adam camaatın sözlərinə fikir verməməlidir.

# *İxlas*

**Abbas Hadi**

İdmandan söhbət edərkən dedi: "İdmana və yarışa gedəndə həmişə dəstəmazlı olurdum. Güləş yarışından öncə də həmişə iki rəkət namaz qılırdım”.

– Nə namazı?

– İki rəkət müstəhəb namaz qılıb Allahdan istəyirdim ki, yarışda kiminsə qəlbinə dəyməyim.

İbrahim əsla günaha yaxınlaşmazdı. Elə buna görə bütün dostlara örnək idi. Hətta günahdan söz düşəndə tez mövzunu dəyişdirirdi.

Uşaqların kiminsə qeybətini etdiyini görəndə tez-tez deyirdi: "Salavat deyin". Və ya başqa bir yolla mövzunu dəyişdirirdi. O heç vaxt kiminsə pis əməlindən danışmazdı.

İbrahim heç vaxt dar köynək geyinməzdi, həmişə özünü ağır işlərə verərdi. Bunun səbəbini soruşanda deyirdi: "Bu işlər insan nəfsi üçün lazımdır".

Şəhid Cəfər Cəngru deyirdi: "Əzadarlıq bitəndən sonra oturub birlikdə söhbət edirdik. İbrahim isə başqa bir otaqda öz halında idi. Uşaqlar gedəndən sonra İbrahimin yanına keçdim. O hələ mənim gəlişimi duymamışdı, hər neçə saniyədən bir iynəni üzünə və kirpiyinin arxasına vururdu. Birdən təəccüblə dedim: "Nə edirsən, dadaş İbrahim?!"

Orada olduğumu bilib yerindən qalxdı və özünə gəldi. Bir az sonra dedi: "Heç nə, heç nə. Bir şey deyil".

– Sənin canın üçün olmaz, gərək iynəni nə üçün üzünə vurduğunu deyəsən.

Bir az sükut etdi və qəhərli adamlar kimi çox sakitcə danışmağa başladı.

– Naməhrəmi görən gözün cəzası budur.

O vaxt İbrahimin nə dediyini və bu sözün mənasının nə olduğunu anlamadım, amma sonralar böyük insanların tarixini oxuyanda gördüm ki, onlar da günaha düşməmək üçün özlərini tənbeh edərmişlər.

Onun şəxsiyyətinin əsas xüsusiyyətlərindən biri də naməhrəmdən uzaq gəzmək idi. Hətta qohumlardan bir naməhrəm qadınla danışanda əsla başını qaldırmazdı. Dostları deyirdilər ki, İbrahimin naməhrəmə allergiyası var.

Və İmam Baqir (ə) necə gözəl buyurmuşdur: "Naməhrəm qadınla danışmaq şeytanın oxlarındandır".

***

İbrahim ehsan verməyə də çox əhəmiyyətli yanaşırdı, həmişə dostlarını yeməyə dəvət edirdi.

Yaralanıb evdə müalicə aldığı dövrdə hər gün yemək hazırlayır və ziyarətə gələnləri süfrəyə dəvət edirdi. O bu işdən hədsiz həzz alır, dostlarına deyirdi: "Biz vasitəçiyik. Bu, sizin ruzinizdir. Möminlərin ruzisi bərəkətlidir".

Əzadarlıqda və dini məclislərdə də belə idi. Ev sahibinin ehsan verməyə çətinlik çəkdiyini görəndə heç bir söz demədən bütün qonaqlara xörək təşkil edirdi. O deyirdi: "İmam Hüseyn (ə) məclisi hər cəhətdən gözəl olmalıdır".

Cümə axşamları Bəsicin proqramından sonra uşaqlara şam yeməyi hazırlayırdı. Yeməkdən sonra kollektiv şəkildə həzrət Əbdüləzimin ziyarətinə və ya Behişti-Zəhra (ə) məzarlığına gedirdik. Bəsic və heyət uşaqları o dövrü heç vaxt unutmazlar. Hərçənd o gözəl və unudulmaz dövr çox sürmədi.

Bir dəfə İbrahimə dedim: "Dadaş, bu qədər pulu haradan gətirirsən? Məktəbdən ayda 2000 tümən maaş alırsan, amma dəfələrlə artığını digərlərinə xərcləyirsən".

Üzümə baxıb dedi: "Ruzini yetirən Allahdır. Mən bu işlərdə yalnız vasitəçiyəm. Mən Allahdan istəmişəm ki, cibim heç vaxt boş olmasın, Allah da güman etmədiyim yerdən xeyir işlərə şərait yaradır".

# *İnsanların ehtiyacı və Allahın neməti*

## Şəhidin dostları

Uzaq bir yerdən evə qayıdırdıq. Yolun kənarında ailəsi ilə birgə bir qoca dayanmışdı. Bizə əli ilə işarə verdi və mən dayandım.

Bir ünvan soruşurdu. Yerini deyəndən sonra problemlərini danışmağa başladı. Zahiri görkəmindən narkomana və ya dilənçiyə bənzəmirdi. İbrahim motosikletdən enib şalvarının ciblərini axtardı, amma heç nə tapmadı. Mənə dedi: "Əmir, üstündə bir şey var?"

Mən də ciblərimi axtardım. Təsadüfən, məndə də pul yox idi.

İbrahim dedi: "Sən Allah, yenə bax".

Yenə axtardım, amma bir şey tapmadım. Kişidən üzr istəyib yolumuza davam etdik. Yolda güzgüdən İbrahimi gördüm; gözlərindən yaş axırdı.

Motosikleti sağa çəkib təəccüblə dedim: "İbrahim can, ağlayırsan?!"

Üzünü silib dedi: "Biz ehtiyaclı bir insana kömək edə bilmədik".

– Pulumuz yox idi. Bu ki günah deyil.

– Bilirəm. Amma ona çox yazığım gəldi. Həm də kömək etmək səadətindən məhrum olduq.

Daha heç bir söz demədim və yolumuza davam etdik. Ürəyimdə isə onun halına və mənəvi saflığına qibtə edirdim.

Ertəsi gün İbrahimi görəndə dedi: "Dünənki hadisənin təkrarlanmaması üçün daha heç vaxt evdən pulsuz çıxmayacağam".

Onun insanların problemlərinə qarşı diqqəti mənə şəhidlər ağası İmam Hüseynin (ə) gözəl bir hədisini

xatırladır: "İnsanların sizə ehtiyacı Allahın nemətlərindəndir. Onların ehtiyacını aradan qaldırmaqda səhlənkarlıq etməyin, çünki bu nemət əlinizdən çıxa bilər".[1]

***

Yaralı dövrünün sonları idi. Zəng vurdu və salamlaşandan sonra dedi: "Maşınından bu gün istifadə edəcəksən?"

- Yox, evin önündədir.

Sonra gəlib maşını aldı və dedi: "Axşamüstü qayıdaram".

Axşamüstü maşını gətirdi. Hara getdiyini soruşanda dedi: "Sərnişin daşıdım".

Gülüb dedim: "Zarafat edirsən?"

– Yox. İndi də işin yoxdursa, qalx gedək, bir neçə yerdə işimiz var.

Evə girmək istəyəndə dedi: "Evdə istifadə etmədiyin düyü, yağ – nə varsa, gətir".

Gedib bir qədər düyü və yağ gətirdim, sonra bir mağazaya getdik. İbrahim bir qədər ət, yumurta və digər ərzaq məhsulları alıb maşına mindi. Satıcıya verdiyi xırda pullardan bildim ki, həqiqətən sərnişin daşıyıb.

Sonra birlikdə şəhərin cənubuna bir neçə nəfərin evinə getdik. Mən onları tanımırdım. İbrahim qapını döyüb əşyaları təhvil verir və deyirdi: "Biz cəbhədən gəlmişik. Bunlar sizin payınızdır". Elə danışırdı ki, qarşı tərəf əsla xəcalət çəkməsin. Özünü də təqdim etmirdi.

Sonradan öyrəndim ki, getdiyimiz evlər bir neçə döyüşçünün evi imiş. Evin kişisi cəbhədə vuruşduğuna görə İbrahim onlara kömək edirmiş.

---

[1] "Bihar əl-ənvar", c. 78, s. 121.

Onun işləri mənə İmam Sadiqin bu hədisini xatırladır: "Müsəlmanın ehtiyacını aradan qaldırmağa çalışmaq Allahın evini yetmiş dəfə təvaf etməkdən üstündür və qiyamətdə təhlükəsizliyə səbəb olar".[1]

Bu nurlu hədis İbrahimin həyat devizi idi. O, insanların problemlərini aradan qaldırmaq üçün əlindən gələni edirdi.

***

Orta məktəb dövrü idi. İbrahim günortadan sonra bazarda çalışıb pul qazanırdı. O, qonşulardan birinin güclü maddi problemi olduğunu öyrəndi. Onlar ailə başçılarını əldən vermişdilər və ehtiyaclarını təmin edə bilmirdilər.

İbrahim heç kimə bir söz demədən hər ay maaşını alanda o ailənin əksər xərcini ödəyirdi. Evdə hər dəfə artıq xörək bişəndə mütləq o ailəyə göndərirdi. Bu iş illərlə, İbrahimin şəhadətinə qədər davam etdi və anasından başqa heç kim bundan xəbər tutmadı.

***

Yanına bir nəfər gəlmişdi. O, çayçı işləmiş, indi isə işsiz qalmışdı və ondan kömək istəyirdi. İbrahim maddi kömək yerinə dostlarından bir neçəsinə müraciət edib ona uyğun bir iş tapdı.

O, insanların problemini həll etmək üçün bacardığını edirdi. Öz əlindən bir şey gəlməyəndə dostlarının yanına gedir və onlardan kömək alırdı. Lakin bu işdə bir məsələyə riayət edirdi: çalışırdı ki, insanlara kömək etməklə dilənçi yetişdirməsin.

İbrahim həmişə dostlarına deyirdi: "Ehtiyaclı insan sizin yanınıza gəlib utana-utana əl açmazdan öncə onun problemini aradan qaldırın”.

---

[1] "Bihar əl-ənvar", c. 74, s. 318.

O, çətinliyi olan dostlarının hər birinə, maddi probleminin olduğunu güman etdiyi hər kəsə kömək edirdi. Bu işi gizli şəkildə və qarşı tərəf ağız açmadan edir və sonra deyirdi: "Hələlik mənim ehtiyacım yoxdur. Bunu da sizə borc verirəm, nə vaxt olsa, qaytararsız".

Əslində, o pulların qayıtmasını gözləmirdi. O bu köməklərdə insanların şəxsiyyətinə çox diqqət yetirirdi. Həmişə elə rəftar edirdi ki, qarşı tərəf utanmasın.

Din böyükləri tövsiyə edirlər ki, öz problemlərinizin həll olunmasını istəyirsinizsə, bacardığınız qədər xalqın problemlərini həll edin. Həmçinin tövsiyə edirlər ki, bacardığınız qədər digərlərinə ehsan verin. Bununla çoxlu problemləriniz aradan qalxar.

Ramazan ayı və günbatan çağı idi. İbrahim bizə gəldi, salamlaşandan sonra məndən bir qazan istədi, sonra xaşxanaya girdi. Arxasınca girib dedim: "İbrahim can, iftara kəlləpaça? Çox ləzzət edər".

– Doğru deyirsən, amma mənim deyil.

Bir dananın kəlləpaçasını və bir neçə səngək çörəyi aldı, bayıra çıxanda İrəc motosikletlə gəldi. İbrahim minib sağollaşdı.

Öz-özümə dedim ki, yəqin bir neçə dost yığışıb birlikdə iftar edəcəklər. Həm də mənə təklif etmədiklərinə görə narahat oldum. Ertəsi gün İrəci görüb soruşdum: "Dünən haraya getdiniz?"

– Çehltən parkının arxasında kiçik bir ev vardı. Qapını döyüb kəlləpaçanı onlara verdik. Qapıya çıxan bir neçə uşaq və bir qoca kişi çox təşəkkür etdilər. İbrahimi yaxşı tanıyırdılar. Çox yoxsul bir ailədir. Sonra da İbrahimi evlərinə apardım.

***

İbrahimin şəhadətindən 26 il sonra onu yuxuda gördüm. Hərbi maşınla Tehrana gəlmişdi. Sevincimdən yerə-göyə sığmırdım. Üzü çox nurlanmışdı. Yaxınlaşdım və bir-birimizi qucaqladıq. Sevindiyimdən qışqırıb deyirdim: "Uşaqlar, gəlin, ağa İbrahim qayıdıb!"

İbrahim dedi: "Gəl min, çox işimiz var".

Birlikdə hündür bir binanın yanına getdik. Binanın sahibi və bütün mühəndislər ağa İbrahimlə salamlaşıb halını soruşdular. Hamı onu yaxşı tanıyırdı. İbrahim üzünü binanın sahibinə tutub, "mən bu ağa seyidi tapşırmağa gəlmişəm; mənzillərin birini ona ver". dedi, sonra da bizdən aralıda dayanmış bir nəfəri göstərdi.

Binanın sahibi dedi: "Ağa İbrahim, bunun nə pulu var, nə də kredit götürə bilir. Mən bir mənzili ona necə verim?!"

Mən də onun sözünü təsdiqləyib dedim: "İbrahim can, bu işlərin dövrü bitdi, artıq hamı pulu tanıyır!"

İbrahim mənə mənalı tərzdə baxıb dedi: "Mən onun kimi bir neçə nəfərin problemini həll etməyə qayıtmışdım. Olmursa, burada işim yoxdur".

Sonra maşına doğru getdi. Mən də ardınca gedəndə birdən mobil telefonumun zəngi çalındı və yuxudan oyandım.

# *Xums*

**Mustafa Səffar Hərəndi**

Mərhum atam Hacı ağa Hərəndi İbrahimin çox sevdiyi din alimlərindən biri idi. O həm də parçasatan idi.

1982-ci il, yayın sonları idi. İbrahimlə birgə hacı ağanın yanına getdik. O, iki köynəklik parça aldı. Sonrakı həftə namaz vaxtı da məscidə gəlib hacı ağa ilə görüşdü. Mən də onlara yaxınlaşdım. İbrahim illik gəlirlərini və xumsunu hesablayırdı.

Məni gülmək tutdu. O özünə heç nə saxlamırdı, nəyi vardısa, digərlərinə xərcləyirdi. Fikirləşdim ki, nəyin xumsunu hesablayır.

Hacı ağa hesablayıb dedi ki, sizin xumsunuz 400 tüməndir. O da xumsunu verdi.

İbrahimin işi mənə İmam Sadiqin (ə) bir hədisini xatırlatdı: "Allahın haqqını ödəməyən şəxs onun iki qatını batil yolda sərf edər".[1]

Namazdan sonra İbrahimlə birgə hacı ağanın mağazasına getdik. O, hacıya dedi: "Qabaqkı kimi iki köynəklik parça istəyirəm".

Hacı təəccüblə baxıb dedi: "Oğlum, sən o gün məndən parça aldın. Bunlar dövlət parçasıdır, mən bir nəfərə bu qədər verə bilmərəm”.

İbrahim heç nə demədi, mənsə məsələdən xəbərdar olduğuma görə dedim: "Hacı ağa, ağa İbrahim öncəki parçaları başqalarına bağışlayıb. Zorxananın bəzi uşaqlarının maddi durumu yaxşı deyil, İbrahim köynəyi onlara verir".

---

[1] "Asar əl-sadiqin", c. 5, s. 466.

Hacı sözlərimi təəccüblə dinləyə-dinləyə İbrahimin üzünə baxıb durdu və dedi: "Bu dəfə parçanı sənin üçün kəsirəm, kiməsə bağışlamağa haqqın yoxdur. Kim istəsə, göndər bura".

# *Biz səni sevirik*

**Cavad Məclisi**

1982-ci ilin payızı idi. Yenidən İbrahimlə birgə əməliyyat bölgəsinə yollandıq. İbrahimin həzrət Zəhraya (ə) təvəssülləri dillər əzbəri olmuşdu, hara gedirdiksə, mövzu bu idi.

Uşaqların çoxu onun əməliyyatlardakı qəhrəmanlıqlarından danışırdı. Onların hamısı həzrət Fatiməyə (ə) təvəssüllə baş tutmuşdu.

Sumar bölgəsinə getdik. Hansı səngərə baş çəkirdiksə, İbrahimdən məddahlıq etməsini və həzrət Zəhradan oxumasını xahiş edirdilər.

Axşam idi. İbrahim bir batalyonun şəxsi heyəti arasında məddahlığa başladı. Yorğun olduğuna və məclislərin uzun sürdüyünə görə səsi tutulmuşdu.

Mərasimdən sonra dostlarımızın bir-ikisi İbrahimlə zarafat edib səsini yamsıladılar. Sonra da bəzi sözlər dedilər və o, çox narahat oldu.

Həmin gecə yatmazdan öncə hirsli idi. Mənə dedi: "Mən önəmli deyiləm, bunlar həzrət Zəhranın (ə) məclisini ələ salırlar. Buna görə daha oxumayacağam".

Dedim ki, onların sözlərinə fikir vermə, sən öz işini gör. Razılaşmadı.

Gecə vaxtı öz qərargahımıza qayıtdıq. Yenidən and içdi ki, daha oxumayacağam. Gecə saat 1 idi. Yorğun halda yatdıq.

Sübh azanından qabaq kiminsə qolumu tərpətdiyini hiss etdim. Gözlərimi çətinliklə açıb başım üstə İbrahimin nurlu üzünü gördüm. Məni səsləyib dedi: "Qalx, indi azan veriləcək".

Mən qalxdım. Öz-özümə dedim ki, deyəsən bu adam yorğunluğun nə demək olduğunu bilmir.

Digər uşaqları da səslədi, sonra azan verdi və sübh namazını cəm halda qıldıq.

İbrahim namaz və zikrdən sonra dua, sonda da həzrət Zəhranın (ə) mədhinə şeirlər oxumağa başladı. Onun gözəl şeirləri hamını ağlatdı. Gecə and içdiyini gördüyümə görə çox təəccübləndim, amma heç nə demədim.

Səhər yeməyindən sonra uşaqlarla birgə Sumara qayıtdıq. Bütün yolboyu onun qəribə işləri haqda düşündüm.

İbrahim mənə mənalı tərzdə baxıb dedi: "Soruşmaq istəyirsən ki, and içdiyim halda nə üçün oxudum?!"

– Hə. Sən gecə and içdin ki...

Sözümü kəsdi.

– Səbəbini deyirəm, amma nə qədər ki sağam, heç yerdə danışmayacaqsan.

Sonra bir qədər dayanıb əlavə etdi: "Gecə gözümə yuxu getmirdi, amma sonra bir qədər yata bildim. Yuxuda həzrət Fatimeyi-Zəhranı (ə) gördüm. Mənə dedi: "Oxumayacağam" - demə. Biz səni sevirik. Kim "oxu" desə, sən də oxu!"

Onu ağlamaq tutdu və daha danışa bilmədi.

# *Zeynəlabidin (ə) əməliyyatı*

**Cavad Məclisi**

1982-ci ilin dekabrı idi. İbrahim haraya getsəydi, yaxşı qarşılanırdı. Komandirlərin çoxu onun qəhrəmanlıqları haqda eşitmişdilər.

Bir dəfə bizim batalyonumuza gəldi və birlikdə söhbət etdik. Söhbətimiz uzun çəkdi. Qayıdanda komandir harada olduğumu soruşdu.

– Dostların biri gəlmişdi, mənimlə işi vardı. İndi gedir.

– Adı nədir?

– İbrahim Hadi.

Birdən təəccüblə dedi: "Ağa İbrahim dedikləri odur?"

– Hə. Necə məgər?!

Hərəkətdə olan maşına baxa-baxa dedi: "O, müharibənin qədim döyüşçülərindəndir, səninlə necə dost olub?"

Xüsusi qürurla cavab verdim: "O bizim qonşumuzdur".

Mənə baxıb dedi: "Bir dəfə buraya gətir, uşaqlar üçün söhbət etsin".

Mən də öyünüb dedim: "Başı qarışıqdır, amma görüm neyləyirəm".

Ertəsi gün onu görmək üçün kəşfiyyat qərargahına getdim. Bir qədər söhbət edəndən sonra dedi: "Gözlə, səni aparım, komandirinlə də görüşüm".

Sonra bir toyota ilə batalyonumuzun düşərgəsinə getdik.

Yolda bir arxa çatdıq. Hər dəfə maşınla keçəndə orada ilişirdik.

– Ağa İbrahim, qayıt, yuxarıdan get, maşın batacaq.

– Vaxt yoxdur, buradan keçərik.

– Gəlmən lazım deyil. Bura qədər gətirdin, sağ ol, qalanını gedərəm.

– Otur yerində, mən sizin komandiri görmək istəyirəm.

Sonra yola düşdü.

Ürəyimdə dedim ki, bu qədər sudan necə keçə bilər?! Suda ilişib qalsa, nə yaxşı olar! Lakin İbrahim ucadan bir “Allahu-Əkbər” və bir “Bismillah” deyib oradan keçdi.

Qarşı tərəfə keçəndən sonra dedi: "Biz hələ Allahu-Əkbərin qüdrətini bilmirik. Bilsək, çoxlu problemlərimiz həll olar".

***

Batalyon yeni əməliyyat üçün lazımi hazırlıqları tamamladı. Bir neçə gündən sonra Sumara doğru hərəkət zamanı gəldi. Mən əvvəlcə gedib üçyolda dayandım.

İbrahim günəş batmazdan öncə gələcəyini demişdi, onu gözləyirdim. Batalyonumuz yola çıxmışdı, mənsə torpaq yolun sonuna baxırdım. Nəhayət, İbrahimin gözəl siması uzaqdan göründü.

Həmişə kürd şalvarı ilə və silahsız gəzirdi, bu dəfə isə hərbi kamifulyaj geyimdə idi, alnında lent və əlində kalaşnikov vardı. Yaxınlaşıb dedim: "Ağa İbrahim, əlinə silah götürmüsən..."

Gülüb dedi: "Komandirə tabe olmaq vacibdir. Mənim komandirim belə əmr edib”.

– Ağa İbrahim, icazə verirsən mən də sizinlə gəlim?

– Yox, öz uşaqlarınızla get. Mən sizin arxanızdayam, bir-birimizi görəcəyik.

Bir neçə kilometr gedib gecənin qaranlığında düşmən mövqelərinə çatdıq. Mən minomyotçu olduğuma görə digərlərindən öndə batalyon komandirinin yanında gedirdim.

Bölgəyə qəribə sükut çökmüşdü. Özümü yaxşı hiss etmirdim, içimdə gərginlik vardı. Biz ensiz bir dərədən mülayim yoxuşla təpənin başına doğru yola düşdük.

Yuxarıda düşmən səngərləri aydın görünürdü. Mənim vəzifəm çatan kimi onları vurmaq idi.

Bir anlıq ətrafa baxdım. Təpənin yamacında hər iki tərəfdən zirvəyə doğru səngərlər qalxırdı. İraqlılar bizim o dərədən keçəcəyimizi yaxşı bilirmişlər. Boğazım qurudu. Ehtiyatla yeriyirdim ki, heç bir səs gəlməsin. Digərləri də mənim kimi həyəcanlı idilər.

Hələ təpənin başına çatmamış birdən başımızın üstünə bir fişəng atıldı, sonra da üç tərəfdən atəş yağmağa başladı. Hamımız yerə yapışdıq. Düşmənin hədəfində idik, dayanmadan üstümüzə bomba və güllə yağırdı. Yaralı uşaqların qışqırtısı hər tərəfi bürüdü.

O qaranlıqda heç bir iş görə bilmirdik. Ürəyim istəyirdi ki, yer yarılıb məni gizlətsin. Ölümü gözlərimlə görürdüm. Bu vəziyyətdə bir nəfər sürünə-sürünə yaxınlaşıb ayağımdan tutdu.

Başımı azca qaldırıb arxaya baxanda gözlərimə inanmadım; İbrahim idi.

Birdən dedi: "Sənsən?!" Sonra RPG minomyotunu məndən alıb irəli keçdi, "Allahu-Əkbər" deyib raketi atdı.

Önümüzdən ən güclü atəş açan səngər məhv edildi. İbrahim yerindən qalxıb qışqırdı: "Ey Əli tərəfdarları! Qalxın! Mövla bizim arxamızdadır!"

Uşaqlar ruhlandılar. Mən də qışqırdım: "Allahu-Əkbər!" Digərləri də ayağa qalxdılar. Hamı atəş açırdı. Təxminən bütün düşmənlər qaçdılar. Bir neçə saniyədən sonra isə İbrahim təpənin başında dayanmışdı.

İraqlıların mühüm saydıqları təpəni çox sürətlə ələ keçirdik. Bəzi düşmən qüvvələri əsir alındı. Uşaqların qalanı yola davam etdilər.

Mən də komandirlə irəliləməyə başladım. Yolda mənə dedi: "Hamının əməliyyatda İbrahimin yanında olmağa can atması əbəs deyil. O, çox cəsarətli insandır!"

Gecə yarısı yenə İbrahimi gördüm. O dedi: "Mövlamın lütfünü gördün?! Düşmənin qaçması üçün yalnız bir Allahu-Əkbər bəs edir!”

***

Bizim istiqamətimizdə əməliyyat bitdi, bütün şəxsi heyət geri qayıtdı. Bəzi batalyonlar öz şəhid və yaralılarını geri gətirə bilmədilər. İbrahim qışqıra-qışqıra o batalyonların birinin komandiri ilə danışırdı. Çox hirslənmişdi. O vaxta qədər onun hirsləndiyini görməmişdim.

– Sizin şəxsi heyətiniz və imkanlarınız vardı. Bəs geri qayıdarkən nə üçün batalyonunuzun uşaqlarını fikirləşmədiniz? Nə üçün yaralıları orada qoydunuz?..

Öz dostlarından olan istiqamət komandiri ilə danışdı, Cavad Əfrasiyabi və başqa bir neçə nəfərlə birgə düşmən mövqelərinə qayıtdılar.

Onlar bir neçə gecə ərzində orada qalmış şəhid və yaralıların bir qismini geri gətirdilər. Bölgənin həssas olduğuna görə düşmən təmizləmə əməliyyatı keçirə bilməmişdi.

İbrahimlə Cavad düşmənin nəzarətində olan mövqelərdən təxminən on səkkiz yaralı və doqquz şəhid cəsədi gətirdilər. Hətta bir şəhidin cəsədini düşmən səngərinin düz onmetrliyindən xüsusi taktika ilə çıxarmışdılar.

Bu əməliyyatdan sonra İbrahim xəstələndi. Birlikdə Tehrana getdik. O, bir neçə həftə orada qalıb dini fəaliyyətlərini davam etdirdi.

# *Son günlər*

**Əli Sadiqi, Əli Müqəddəm**

Dekabrın ortalarında İbrahimlə birgə Tehrana qayıtdıq. Yorğun olsa da, çox sevinirdi.

– Düşmən bölgəsində heç bir şəhid və yaralı qalmadı, hamısını gətirdik. Bu axşam nə qədər yolda qalmış gözləri sevindirdik. Hansı şəhidin anası övladının qəbri üstünə getsə, bizə də savab çatacaq.

Mən dərhal fürsətdən yararlanmağa çalışdım.

– Ağa İbrahim, bəs nə üçün özün dua edirsən ki, cəsədin tapılmasın?!

Bu sualı gözləmirdi. Bir qədər dayanıb dedi: "Mən anamı hazırlamışam, demişəm ki, məni gözləməsin. Hətta itkin şəhid olmağım üçün dua etməsini də istəmişəm".

Yenə istədiyim cavabı vermədi.

Bir neçə həftə Tehranda qaldıq. Uşaqlar hər axşam İbrahimin yanında idilər; hara gedirdisə, heyət uşaqları və döyüşçülər də oraya gedirdilər.

***

Yanvar ayı idi. İbrahimin halı çox dəyişmişdi, avamcasına sözləri və zarafatları azalmışdı.

Əksər uşaqlar onu Şeyx İbrahim çağırırdılar.

Saqqalını qısaltsa da, üzünün nurluluğu əvvəlki kimi idi. Şəhadət uşaqların hamısının arzusu idi, İbrahim üçün isə başqa bir aləm idi.

Axşam gəzişəndə soruşdum: "Sənin arzun şəhid olmaqdır, eləmi?!”

Güldü. Bir neçə saniyədən sonra dedi: "Şəhadət mənim arzularımın bir zərrəsidir. İstəyirəm ki, məndən heç nə qalmasın, kəfənsiz ərbabım İmam Hüseyn kimi tikə-tikə olum. Cənazəmin qayıtmasını da istəmirəm".

Bu sözünün səbəbini əvvəllər eşitmişdim. O deyirdi: "Seyidlər anasının qəbri olmadığı kimi, mən də qəbrimin olmasını istəmirəm".

Sonra zorxanaya getdik və bütün uşaqları ertəsi gün nahar yeməyinə dəvət etdi.

Günorta onlara getdik. Yeməkdən öncə camaat namazı qılındı. İbrahimi irəli göndərdik. Namazda qəribə halı vardı. Sanki bu dünyada deyildi, bütün vücudu ruhani aləmdə pərvaz edirdi.

Namazdan sonra gözəl səslə Fərəc duasını oxudu. Uşaqların biri dedi: "İbrahim çox qəribə olub, indiyə qədər namazda belə ağladığını görməmişdim".

Heyətin əzadarlıqlarında həzrət Fatimeyi-Zəhraya (ə) təvəssül edirdi. Məddahlıq zamanı həmişə cəbhələri və döyüşçüləri xatırlayır, seyidlər anası kimi məzarı və ünvanı olmayan bütün itkin şəhidləri yada salırdı.

***

Fevralın əvvəlləri idi. Axşam saat 9-da bir nəfər küçədə qışqırdı: "Hacı Əli, evdəsən?" Pəncərəyə yaxınlaşdım. İbrahimlə Əli Nəsrullah idi. Sevinib küçəyə çıxdım.

Əvvəl İbrahimi, sonra da Əlini qucaqlayıb öpdüm. Evə gəldik. Hava çox soyuq idi. Evdə tək idim. Onlara dedim: "Şam yemisiniz?" İbrahim dedi: "Yox, zəhmət çəkmə".

– Sizə yumurta bişirəcəyəm.

Sonra yüngül bir şam yeməyi hazırladım.

– Bu axşam uşaqlar evdə deyillər, bir işiniz yoxdursa, burada qalın, soba da qızıb.

İbrahim qəbul etdi. Sonra gülərək dedim: "Dadaş İbrahim, bu soyuqda kürd şalvarı ilə gəzirsən?! Üşümürsən?"

O da güldü.

- Yox, axı dördünü üst-üstə geyinmişəm.

Şalvarlardan üçünü çıxarıb sobaya yaxınlaşdı. Mən də Əli ilə danışmağa başladım.

Bilmirəm İbrahim yuxulamışdı, yoxsa yox, amma birdən yerindən qalxıb üzümə baxdı və dedi: "Hacı Əli, sən mənim canım, düzünü de, mənim üzümdə şəhadət əlaməti görürsən?"

Belə bir sual gözləmirdim. Bir qədər üzünə baxıb sakitcə dedim: "Şəhadət zamanı bəzi uşaqlarda qəribə hal olur, amma İbrahim can, sən həmişə bu haldasan".

Otağı sükut bürüdü. Ayağa qalxıb Əliyə dedi: "Qalx, gərək tez yola düşək".

Təəccüblə dedim: "Ağa İbrahim, hara?"

– Gərək tez məscidə gedək.

Sonra şalvarlarını geyindi və Əli ilə getdi.

## *Son görüş yeri: Fəkkə*

**Əli Nəsrullah**

Gecənin yarısı məscidə getdik. İbrahim orada uşaqlarla, sonra da evə gedib anası və bacı-qardaşları ilə sağollaşdı. Anasından xahiş etdi ki, şəhadəti üçün dua etsin. Səhər tezdən cəbhəyə yola düşdük.

İbrahim az danışır, daha çox zikr deyir və Quran oxuyurdu.

Fəkkənin şimalında diviziyanın düşərgəsinə çatdıq. Batalyonlar əməliyyat manevri edirdilər. Döyüşçülər İbrahimin qayıtdığını eşidib çox sevindilər. Hamı onu görməyə gəldi. Çadır bir an da boşalmırdı.

Hacı Hüseyn də gəldi. İbrahimi görməyinə çox sevinirdi. Salamlaşandan sonra İbrahim soruşdu: "Hacı Hüseyn, uşaqların hamısı məşğuldur, bir xəbər var?"

- Sabah əməliyyata başlayırıq. Bizimlə gəlsən, çox sevinərik.

Sonra əlavə etdi: "Yeni əməliyyatda kəşfiyyat uşaqlarını batalyonlara böləcəyəm. Hər bir batalyonda bir-iki kəşfiyyatçı olmadılır".

Sonra İbrahimin önünə bir siyahı qoydu.

- Bu uşaqlar haqda fikrin nədir?

İbrahim siyahıya baxıb bir-bir fikrini bildirdi. Sonra soruşdu: "Hacı, şəxsi heyətin bölgüsü necədir?"

– İndi bütün canlı qüvvə bir neçə korpusa bölünüb. Bir neçə diviziyanı birləşdirib bir korpus yaratmışıq.

Hacı Himmət Qədr korpusunun komandiridir, 27 saylı diviziya da həmin korpusdadır. Korpusun kəşfiyyat işlərini də bizə tapşırıblar.

İbrahim həmin gün axşamüstü saçını qısaltdı və saqqalını səliqəyə saldı.

Qürub çağı nəzarət postlarından birinə getdik. İbrahim xüsusi durbinlə əməliyyat bölgəsinə baxdı və kağıza bəzi qeydlər etdi.

Uşaqların bir qismi posta gəlib deyirdilər: "Ağa, tez ol, biz də baxmaq istəyirik".

İbrahim hirslənib dedi: "Məgər bura kinoteatrdır?! Biz sabah üçün plan hazırlayırıq, hərəkət yolunu müəyyən etməliyik".

Sonra da hirslə oranı tərk etdi.

Mənə dedi: "Ürəyim çox həyəcanlıdır".

Qədr korpusunun komandirlərindən birinin yanına getdik. İbrahim dedi: "Hacı, bu bölgə başqa cürdür. Yer yumşaq qumdur, şəxsi heyətin hərəkəti çox çətin olacaq. Düşmən də bu qədər maneə düzəldib. Səncə, bu əməliyyat uğurlu olacaq?"

Komandir dedi: "İbrahim can, bu, komandirlərin əmridir. Biz onu yerinə yetirəcəyik, nəticəsi Allaha aiddir".

***

Ertəsi gün axşamüstü batalyonların şəxsi heyəti hazır oldu. Həzrət Rəsul (s) diviziyasından on bir batalyon özünün son ərzaq payını təhvil aldı. Hamı Fəkkəyə hazırlaşırdı.

Uzaqdan İbrahimin üzünü görən kimi ürəyim üzüldü. Üzü çox nurlanmışdı, həmişəkindən ağ idi. Başına ərəb çəfiyəsi atmış, əyninə yaraşıqlı gödəkcə geyinmişdi. Bütün uşaqlara əl verib salamlaşdı. Onu kənara çəkib dedim: "Dadaş İbrahim, çox nurani olmusan".

Dərin nəfəs alıb həsrətlə dedi: "Doktor Behişti şəhid olanda çox narahat oldum, amma öz-özümə dedim ki, xoş halına, şəhadətlə getdi. Onun təbii ölümlə dünyadan köçməsi heyf olardı. Əsgər Vüsali, Əli Qurbani, Qasim

Təşəkküri və dostlarımızdan çoxları da gediblər. İndi bizim Tehrandan çox Behişti-Zəhrada (ə) dostumuz var".

Bir qədər dayanıb əlavə etdi: "Xürrəmşəhr də azad edildi. Qorxuram ki, müharibə bitər və şəhadət şansı əldən çıxar. Hərçənd, təvəkkülümüz Allahadır".

Sonra dərin ah çəkib dedi: "Şəhid olmağı çox sevirəm, amma ən qəşəng şəhadəti istəyirəm".

Təəccüblə ona baxdım. Sözünün davamını gözləyirdim. Gözlərindən yaş damlaları axdı.

- Heç kimin əlinin çatmadığı bir yerdə qalasan, səni heç kim tanımaya, ağa ilə özün olasan. Mövla da gəlib başını dizinin üstünə qoya. Bu, ən qəşəng şəhadət olar.

- Dadaş İbrahim, sən Allah, belə danışma.

Sonra söhbəti dəyişməyə çalışdım.

- Gəl komandir heyəti ilə gedək. Beləsi daha yaxşıdır; harada ehtiyac olsa, kömək edərsən.

- Yox, mən Bəsic üzvləri ilə getmək istəyirəm.

Sonra birlikdə yola düşüb ilk hücuma keçən batalyonlara yaxınlaşdıq. Onlar son hərbi hazırlıqlarını görürdülər.

- Dadaş İbrahim, silah-sursatdan sənə nə götürüm?

- Yalnız iki əl qumbarası götür. Silah lazım olsa, iraqlılardan alarıq.

Hacı Hüseyn Allahkərəm uzaqdan gözlərini İbrahimə dikmişdi. Ona yaxınlaşdıq. Hacı gözlərini İbrahimin üzündən çəkmirdi. O, ixtiyarsız olaraq İbrahimi qucaqladı, bir neçə saniyə o vəziyyətdə qaldı. Sanki bunun son görüş olduğunu bilirdi.

Sonra da İbrahim qol saatını açıb dedi: "Hüseyn, bu da sənə yadigar olsun".

Hacı Hüseynin gözü yaşardı.

- Yox, İbrahim can, özündə qalsın, ehtiyacın olar.

İbrahim xüsusi soyuqqanlılıqla dedi: "Yox, mənim buna ehtiyacım yoxdur".

Hacı da çox dəyişmişdi. O, söhbəti əvəzləyib dedi: "İbrahim can, əməliyyat üçün iki keçidimiz var. Uşaqlar birinci keçiddən keçəcəklər, mən bəzi komandir və kəşfiyyatçılarla ikinci keçiddən keçəcəyəm. Sən də bizimlə gəl”.

- Mən birinci keçiddən Bəsic uşaqları ilə gedərəm. Problem olmaz ki?

- Yox. Necə istəyirsən.

İbrahim son maddi bağlardan da ayrılıb əməliyyatda ilk hücuma keçəcək batalyonların yanında oturdu.

# *Vəlfəcr-hazırlıq*

**Əli Nəsrullah**

Kumeyl batalyonu cənub istiqamətindən, zastava tərəfdən hücuma keçəcəkdi. Komandirlərin biri batalyonun uşaqları ilə danışmağa başladı:

"Qardaşlar! Bu axşam Vəlfəcr əməliyyatı üçün Fəkkəyə yola düşəcəyik. Düşmən sizin yolunuzda sərhədlə paralel olaraq üç böyük kanal qazıb. Başqa maneələr də var. Siz inşallah, bu maneə və kanallardan keçəcəksiniz və əməliyyat baş tutacaq. Siz Tavusiyyə və Rüşeydiyyə zastavalarının ətrafında yerləşəndə əməliyyatın birinci mərhələsi bitmiş olacaq. Sonra Seyyidüş-şühəda diviziyasının təzə nəfəsli uşaqları və digər döyüşçülər sizin yanınızdan keçib əməliyyatı İraqın əl-Ümarə şəhərinə doğru davam etdirəcəklər".

Komandir hərəkət tərzi, maneə və yollar haqda danışıb dedi: "Siz minalanmış sahələrin içindəki ensiz bir yoldan keçəcəksiniz. Hamınız Fəkkənin cənub istiqamətinin mövqe yaran hücumçularısınız və inşallah, nəzərdə tutulmuş məqsədlərə çatacaqsınız".

Onun sözləri bitəndən dərhal sonra İbrahim məddahlığa başladı, amma həmişəki kimi yox, çox qəribcəsinə rövzə oxuyur, özü də ağlayırdı.

O, həzrət Zeynəb rövzəsinə başladı, sonra uşaqlar sinə vurdular. Mən bu gözəl beyti ilk dəfə onda eşitdim:

Aman Zeynəbin ürəyindən!

Necə qan oldu Zeynəbin ürəyi!

Uşaqlar da sinə vururdular. İbrahim sonra həzrət Zeynəbin əsirliyindən və Kərbəla şəhidlərindən rövzə oxudu və axırda dedi: "Uşaqlar! Bu gecə ya yarın

görüşünə gedəcəksiniz, ya da seyidlərin bibisi kimi əsir düşüb qəhrəmancasına müqavimət göstərməlisiniz”.[1]

İbrahimin gözəl məddahlığından sonra uşaqlar yaş üzlərlə ayağa qalxıb şam namazlarını qıldılar. İbrahim gələndən bəri kölgə kimi arxasınca gəzirdim, ondan bir an da ayrılmırdım.

İkimiz ağır hərəkətli körpülərin birini götürüb yola düşdük.

Fəkkənin qumları üzərində getmək çox çətin idi. Hər bir döyüşçünün iyirmi kilodan artıq yükü vardı, biz isə bu yükdən əlavə ağır bir körpünü də tabut kimi çiynimizə qoymuşduq.

Hamı bir sıra ilə minalanmış sahələrin arasındakı yoldan keçirdi. Təxminən 12 km. piyada yol gedəndən sonra Fəkkənin cənubundakı birinci kanala çatdıq. Uşaqlarda taqət qalmamışdı.

Fevralın 6-sı, axşam saat 21:30 idi. Hərəkətli körpüləri və nərdivanları düzüb kanaldan keçdik. Bölgəni qəribə sükut bürümüşdü. İraqlılar bir güllə də atmırdılar.

15 dəqiqədən sonra ikinci kanala çatdıq. Onu da keçəndən sonra ratsiya ilə komandirə xəbər verildi.

Bir neçə dəqiqədən sonra üçüncü kanala çatdıq. İbrahim hələ ikinci kanalın yanında idi və uşaqlara kömək edirdi. Kanalların ətrafı minalanmış sahələrlə və müxtəlif maneələrlə dolu idi.

Üçüncü kanala çatmaq sərhəd zastavalarının yanında olmaq və əməliyyatın başlanması demək idi. Lakin batalyon komandiri uşaqları saxlayıb dedi: "Xəritədə göstərilənlərə görə, daha çox yol getməli idik, amma qəribədir ki, həm tez çatdıq, həm də zastavalar yoxdur”.

---

[1] Qəribədir ki, həmin Kumeyl batalyonunun təxminən bütün uşaqları ya şəhid oldular, ya da əsir düşdülər.

Təxminən bütün uşaqlar ikinci kanaldan keçdilər. Birdən Fəkkənin səması gündüz kimi aydın oldu. Sonra atəş açmağa başladılar. Onlar pulemyotdan tutmuş bomba və raketlərə qədər hər şey atırdılar. Hər tərəfdən üstümüzə atəş yağırdı. Sanki düşmən bütün qüvvəsini toplayıb bizi gözləyirmiş.

Uşaqlar heç bir iş görə bilmirdilər. Günəşəbənzər istehkam milləri və mina sahələri hər bir hərəkətin qarşısını alırdı.

Uşaqların kiçik bir qismi üçüncü kanala girdi, çoxu isə qumların üzərində qaldı. Hamı oyan-buyana gedirdi.

Bəzi uşaqlar istehkam millərindən keçib düzənlikdə mövqe seçmək istəyirdilər, amma minalara düşüb şəhadətə qovuşdular.

Yolun ətrafı mina ilə dolu idi. İbrahim bunu bilirdi. Buna görə də, üçüncü kanala qaçdı və qışqırıb heç kimi ətrafa səpələnməyə qoymadı. Əlimizdən heç nə gəlmirdi. İraq artilleriyası bizim hansı yerdən keçəcəyimizi yaxşı bilir və oranı vururdu.

Aləm bir-birinə dəymişdi. Hərə bir tərəfə qaçırdı. Vəziyyətin idarəsi mümkün deyildi. Nisbətən təhlükəsiz yer kanalların içi idi. O qaranlıqda və qarışıqlıqda İbrahimi itirdim.

Üçüncü kanala qədər getdim, amma kimisə tapmaq mümkün deyildi. Dostlardan birini görüb İbrahimi soruşdum. Dedi: "Bir neçə dəqiqə öncə buradan keçdi".

Eləcə oyan-buyana qaçırdım. Komandirlərin birini gördüm. Məni tanıyıb dedi: "Tez keçidə get, yoldakı uşaqları geri göndər. Kanalın içində nə yer var, nə də təhlükəsizlik. Get və tez qayıt".

Komandirin əmrinə uyğun olaraq, ikinci kanalın ətrafındakı və yoldakı uşaqları geri qaytardım. Hətta çoxlu yaralılara da kömək edib geriyə çatdırdıq.

Bu iş iki-üç saat sürdü. Qayıtmaq istəyəndə diviziyanın uşaqları dedilər: "Qayıda bilməzsən". Təəccüblə soruşdum: "Nə üçün?"

Dedilər: "Geri çəkilmə əmri verilib, irəli getməyin faydası yoxdur. Digər uşaqlar da səhərə qədər qayıdacaqlar".

Bir saatdan sonra sübh namazımı qıldım. Hava yavaş-yavaş işıqlanırdı. Yorulmuşdum və ümidsiz idim. Qayıdan bütün uşaqlardan İbrahimi soruşurdum, amma heç kimin xəbəri yox idi. Bir neçə dəqiqədən sonra Müctəbanı gördüm. Üz-başı tozlu və yorğun halda əməliyyat yerindən qayıdırdı. Məyus səslə soruşdum: "Müctəba, İbrahimi görmədin?"

Mənə yaxınlaşa-yaxınlaşa dedi: "Bir saat öncə birlikdə idik".

Sevindim.

- Bəs indi haradadır?

– Bilmirəm. Ona dedim ki, geri çəkilmə əmri verilib, nə qədər ki hava qaranlıqdır, gəl qayıdaq. O isə dedi ki, uşaqlar kanaldadırlar, mən onların yanına gedirəm, hamımız birlikdə qayıdarıq.

Müctəba əlavə etdi: "Mən İbrahimlə danışanda Aşura diviziyasının bir batalyonu oraya gəldi. İbrahim tez onların komandiri ilə danışıb geri çəkilmə əmrini çatdırdı. Yolu tanıdığıma görə, məni onlarla geri göndərdi. Özü isə bir RPG minomyotu və bir neçə mərmi götürüb kanala getdi. Daha ondan xəbərim olmadı".

Bir saatdan sonra Meysəm Lətifini gördüm, bir neçə yaralı ilə geri qayıdırdı. Onlara kömək etdim. Meysəmdən

vəziyyəti soruşanda dedi: "Biz bu yaralı uşaqlarla birgə kanaldan irəlidə təpələrin arasında qalmışdıq. İbrahim Hadi bizə yardım etdi".

Birdən təəccüblə dedim: "Dadaş İbrahim?! Yaxşı, sonra nə oldu?"

– Çətinliklə bizi toplayıb alatoranlıqda geri gətirdi. Yolda bir kanala çatdıq. Çox enli kanal idi, içi də palçıqla dolu. İbrahim iki xərək tapıb körpüyə bənzər bir şey düzəltdi, bizi keçirib geri göndərdi, özü isə qayıtdı".

Səhər saat 10-da komandirlər diviziyanın Fəkkədəki qərargahına get-gəl edirdilər. Deyirdilər ki, bir neçə batalyon düşmən mühasirəsində qalıb.

# *Kumeyl kanalı*

**Əli Nəsrullah**

Kəşfiyyat komandirlərindən birini görüb soruşdum: "Necə yəni batalyonlar mühasirədədirlər?! İraqlılar irəli gəlməyiblər, uşaqlar da ikinci və üçüncü kanaldadırlar".

Komandir dedi: "Bizim kəşfiyyatda gördüyümüz üçüncü kanal bu kanal kimi deyildi. Düşmən bu kanalı və bir neçə kiçik kanalı son iki-üç gündə qazıb. Bu kanallar düz sərhədlə paralel düzəldilib, amma daha kiçikdir və maneələrlə doludur. Hücumçu batalyonlar atəş altında qalmamaq üçün kanala girdilər. Hava işıqlananda da tanklarla iki tərəfini bağladılar və kanalı atəşə tutdular".

O, bir qədər dayanıb dedi: "Düşmən uşaqların önündə 16 növ maneə yaradıbmış. Maneələrin uzunluğu da 4 km.-ə yaxın imiş. Münafiqlər bu əməliyyatın bütün sirlərini düşmənə ötürübmüşlər".

Halım çox pis oldu, boğazımı qəhər tutdu.

– İndi nə etmək lazımdır?

– Əgər uşaqlar müqavimət göstərə bilsələr, əməliyyatın ikinci mərhələsini yerinə yetirib onları geri gətirəcəyik.

Bu əsnada qərargahın rabitəçisi dedi: "Mühasirədəki batalyonlardan xəbər var".

Hamı sakit qaldı.

– Deyir ki, qardaş Sabitniya qardaş Əfşurdə ilə əl görüşdü.

Bu qısa, kodlu xəbər Kumeyl batalyonunun komandirinin şəhid olması demək idi.

Günortadan sonra xəbər gəldi ki, batalyon komandirinin müavini Hacı Hüseyni də şəhadətə qovuşub, komandirin digər müavini Bonəkdar isə yaralıdır. Hamı narahat oldu.

***

Fevralın doqquzunda uşaqlar Fəkkəyə növbəti hücuma hazırlaşdılar. Qərargahdan gələn bir dostumu görüb soruşdum: "Vəziyyət necədir?"

– İndi Kumeyl batalyonunun rabitəçisi əlaqə saxladı. Hacı Himmət danışıb dedi ki, ratsiyanın şarjı bitmək üzrədir. Uşaqların çoxu şəhid olub. Bizim üçün dua edin, imama salamımızı çatdırın və deyin ki, biz son ana qədər müqavimət göstərdik.

Sınıq və narahat qəlblə dedim: "Bizim vəzifəmiz nədir? Biz nə etməliyik?"

– Allaha təvəkkül! Get hazırlaş, bu axşam əməliyyatın növbəti mərhələsi başlayır.

Qürub çağı idi. Ordunun artilleriyası çox diqqətlə düşmən istehkamlarına atəş açırdı.

Hənzələ batalyonu və digər bir neçə batalyon yola düşdü. Onlar Kumeyl kanalının yaxınlığına qədər irəlilədilər, hətta maneələri aşıb üçüncü kanala da çatdılar, amma düşmən atəşinin güclü olduğuna görə mühasirədəki uşaqların yalnız kiçik bir qismi gecənin qaranlığında kanaldan çıxıb geri qayıda bildi.

Bu hücum da uğursuz oldu. Biz sübh namazından öncə öz istehkamımıza qayıtdıq. Hənzələ batalyonunun əksər döyüşçüləri isə sərhəd kanallarda qaldılar. Bu hücumda uşaqların sərrast atəşi ilə düşmənin bir çox zirehli texnikası məhv edildi.

1983-cü ilin 10 fevralı idi. Hələ kanalın içindən seyrək atəş səsləri gəlirdi.

Bu onu göstərirdi ki, kanalın içindəki uşaqlar hələ müqavimət göstərirlər. Lakin dörd gündən sonra hansı imkanlarla müqavimət göstərdiklərini anlamaq olmurdu. Günbatan çağı əməliyyatın bitdiyi elan olundu, bütün şəxsi heyət geri qayıtdı.

Bir gün öncə kanaldan çıxan uşaqların birini gördüm. O deyirdi: "Bilmirsən nə vəziyyətdə idik; nə yemək vardı, nə su. Sursatımız çox az, kanalların ətrafı isə minalarla dolu idi. Biz hər neçə dəqiqədən bir güllə atırdıq ki, hələ sağ olduğumuzu bilsinlər. İraqlılar tez-tez mikrofonla elan edirdilər ki, təslim olun".

Günəşin qürub anları çox kədərli idi. Hündür bir yerə çıxıb durbinlə baxırdım. Kanalın ətrafında hələ pərakəndə partlayışlar görünürdü. Səmimi dostum İbrahim orada idi və mənim əlimdən heç bir iş gəlmirdi.

Həmin gecə bir qədər istirahət etdim və ertəsi gün yenidən mövqeyə qayıtdım.

İraqlılar 11 fevral gününə çox həssas idilər.[1] Həmin gün onların atəşlərinin həcmi olduqca çoxaldı. Birinci istehkamlarımız da boşaldıldı və biz geri çəkildik.

Öz-özümə dedim: Bəlkə İraq tərəfi irəliləmək istəyir? Amma çətin! Çünki düzdükləri maneələr onların irəliləməsinə də imkan verməz.

Axşamüstü atəş azaldı. Durbini götürüb kanalın ətrafının nisbətən yaxşı göründüyü bir yerə çıxdım. Gördüklərim inanılmaz idi. Kanaldan qatı tüstü qalxırdı və tez-tez partlayış səsi gəlirdi.

Tez kəşfiyyatçı uşaqların yanına gedib dedim: "Düşmən kanalın işini bitirir". Onlar da durbinlə baxdılar. Gördükləri yalnız alov və tüstü idi.

Mən hələ ümidvar idim. Öz-özümə dedim: İbrahim bundan da ağır vəziyyətlərdən çıxıb. Lakin onun əməliyyatdan öncəki sözlərini xatırlayanda məyus oldum.

---

[1] 11 fevral İran İslam İnqilabının qələbə çaldığı gündür.

# *Qanlı qürub*

**Əli Nəsrullah**

1983-cü ilin 11 fevral gününün günbatan çağı mənim üçün olduqca cansıxıcı keçdi.

Kəşfiyyat uşaqları səngərlərinə getdilər, mənsə hələ durbinlə baxırdım. Qüruba yaxın uzaqdan bir şeyin hərəkət etdiyini hiss etdim. Diqqətlə baxdım. Üç nəfərin bizə doğru qaçdığı aydın görünürdü. Yolda tez-tez yıxılıb-qalxırdılar. Yaralı və yorğun idilər. Kanaldan gəlirdilər.

Qışqırıb uşaqları çağırdım. Onlarla təpəyə çıxdıq. Uşaqlara dedim ki, atəş açmayın.

Qürubun qızartısında həmin üç nəfər nəhayət, bizim istehkamımıza çatdılar. Onlar çatan kimi qaçıb soruşdum: "Haradan gəlirsiniz?" Danışmağa taqətləri yox idi. Biri su istədi. Tez ona bir qumquma verdim.

Aclıqdan və zəiflikdən birinin bədəni əsirdi. Üçüncüsü isə başdan-ayağa qanın içində idi. Bir az özlərinə gələndən sonra dedilər: "Kumeyl batalyonundanıq".

Həyəcanla soruşdum: "Digər uşaqlar nə oldular?" Biri güclə başını qaldırıb dedi: "Bizdən başqa kiminsə sağ qaldığını düşünmürəm". Həyəcanlandım və yenidən təəccüblə soruşdum: "Bu beş gündə necə müqavimət göstərdiniz?"

Danışmağa taqətləri yox idi. Bir qədər dayandı, ağzı boşalandan sonra dedi: "Biz son iki gündə cəsədlərin arasında gizlənmişdik, amma bu beş gündə kanalı ayaqda saxlayan bir nəfər vardı".

Yenidən nəfəsini dərib yavaşca dedi: "Qəribə adam idi. Bir tərəfə minomyotla atəş açırdı, bir tərəfə pulemyotla. Çox güclü idi". O birisi sözünü kəsib dedi: "Bütün şəhidləri kanalın sonunda yan-yana düzmüşdü, yeməyi və

suyu bölürdü, yaralılarla məşğul olurdu. O, yorğunluğun nə olduğunu bilmirdi".

– Məgər batalyon komandirləri və müavinləri şəhid olmadılar?! Bəs siz kimdən danışırsınız?

– Bir cavan oğlan idi, tanımırdım. Saçı qısa idi, əynində kürd şalvarı vardı.

O birisi dilləndi: "Birinci gün də boynuna ərəb çəfiyəsi dolamışdı. Qəşəng səsi də vardı. Rövzə oxuyub bizi ruhlandırırdı".

Ruhum bədənimdən çıxmaq üzrə idi. Boğazım qurudu. Bunlar İbrahimin xüsusiyyətləri idi.

Nigaran halda oturub əlini tutdum və təəccüblə dedim: "Ağa İbrahimi deyirsən, düzdür? İndi haradadır?"

– Hə, deyəsən qədim uşaqların bir-ikisi onu ağa İbrahim çağırırdı.

Yenidən ucadan soruşdum: "İndi haradadır?"

O birisi dilləndi: "Düşmənin atəş açdığı son ana qədər sağ idi. Bizə dedi ki, düşmən öz qüvvələrini geri çəkdi, yəqin raketlə vuracaq. Əgər halınız varsa, nə qədər ki sakitlikdir, qaçın". Özü yaralıların yanına getdi, bizsə geri qayıtdıq".

Başqa birisi dedi: "Mən gördüm, onu vurdular. İlk partlayışlarda yerə yıxıldı".

Bədənimin bütün taqəti çəkildi və gözlərimdən yaş axmağa başladı. Çiyinlərim dayanmadan tərpənirdi. Daha özümü ələ ala bilmədim, başımı torpağa qoyub ağlayırdım. İbrahimlə bağlı bütün xatirələrim gözlərim önündə canlandı; zorxana meydançasından Gilanqərbə qədər...

Kəskin barıt qoxusu ilə partlayış səsi bir-birinə qarışmışdı. İstehkamın yuxarısına qalxdım, kanala tərəf getmək istəyirdim. Uşaqların biri önümdə dayanıb dedi:

"Nə edirsən?! Sənin getməyinlə İbrahim qayıtmayacaq ki. Gör necə atəş yağır!"

Həmin gecə hamımızı Fəkkədən geri çəkdilər. Bütün uşaqlar mənim günümdə idi. Çoxları dostlarını orada qoymuşdular. Biz Dokuhəyə girəndə Hacı Sadiq Ahəngəranın səsi gəlirdi:

Ey səfərdən qayıdanlar!

Hanı şəhidləriniz? Hanı şəhidləriniz?

Uşaqlar ucadan ağlamağa başladılar. İbrahimin şəhid olması və cəsədinin itkin düşməsi çox tez bir zamanda hər tərəfə yayıldı.

Oğlu ilə cəbhədə olan bir döyüşçü yanıma gəlib narahat halda dedi: "Hamımız İbrahimdən ötrü kədərliyik. Allaha and olsun, əgər oğlum şəhid olsaydı, bu qədər narahat olmazdım. Heç kim bilmir ki, İbrahim necə böyük insan idi".

Ertəsi gün diviziyanın bütün uşaqlarına məzuniyyət verdilər və biz Tehrana getdik. İbrahimin şəhadət xəbərini verməyə heç kim cəsarət etmirdi. Bir neçə gündən sonra isə itkin düşməsi xəbəri hər yerə yayıldı.

## *Məzlumluğun zirvəsi*

**Mehdi Ramazani**

Mənim yaşım çox olmasa da, Allahın lütfü ilə Kumeyl batalyonunda ən yaxşı bəndələrlə yoldaş ola bildim. Biz əməliyyat gecəsi üçüncü kanala qədər getdik. Kanal kiçik idi, təxminən bir metr hündürlüyü vardı. İkinci kanal isə böyük və maneələrlə dolu idi.

Həmin gecə bütün uşaqlar ikinci kanala qayıtdılar. O kanal sonralar Kumeyl kanalı kimi məşhurlaşdı. Mən digər uşaqlarla birgə beş gün orada qaldım.

Ertəsi gün səhərdən İraq snayperləri hər bir hərəkəti hədəf seçirdilər. Biz orada mühasirədə qəribə günlər yaşadıq.

Yadımdadır, kanalı İbrahim Hadi ayaqda saxlamışdı.

Bizim batalyon komandirimiz və bir müavini şəhid olmuş, bir müavini də yaralanmışdı. Bu baxımdan, şəxsi heyəti idarə edən yeganə şəxs İbrahim idi. O, şəxsi heyəti üçnəfərlik qruplara böldü və hər qrup müəyyən məsafələrlə kanalın bir tərəfində yerləşdi. Hər qrupdan bir nəfər hərdən boylanıb vəziyyətə nəzarət edirdi, digər iki nəfər isə kanalın içində onun yanında dayanırdı.

Kanalın sonunda bir döngə vardı. İbrahim bir neçə nəfərlə köməkləşib şəhidləri oraya apardı ki, uşaqların gözündən uzaqda olsunlar. Yaralıları da kanalın bir küncünə topladı ki, düşmən atəşinə məruz qalmasınlar.

İbrahim həmin günlərdə azan verib uşaqları namaza hazırlayırdı. Biz elə ağır şəraitdə bütün namazlarımızı cəm halda qılırdıq. İbrahim bu işlərlə bizi ruhlandırır və gələcəyə ümidvar edirdi.

Əməliyyatın başlanmasından iki gün sonra, yəni ikinci mərhələ də uğursuzluqla üzləşəndə uşaqların səyi artdı.

Biz dalandan çıxış yolu tapmağa çalışırdıq. Diviziya ilə son ratsiya əlaqəmizdə komandir Şəhid Hacıpur narahat halda dedi: "Biz heç bir iş görə bilmirik. Əgər bacarırsınızsa, bir yolla geri çəkilin".

10 fevralda ön və arxamızda tank səsləri çoxaldı. Uşaqlar kanalın divarını qazıb pilləkən düzəltdilər.

Bəziləri elə bildilər ki, bizə yardım gəlib. Əslində isə mühasirəmiz daha da daralmışdı. İraq komandosları tankların dəstəyi ilə irəlilədilər. Onlar bilirdilər ki, yalnız kanalın içində sağ adam qalıb. Yadımdadır, Şəhid Seyid Cəfər Tahiri adlı bir yeniyetmə RPG minomyotunu götürüb pillələrdən qalxdı və sərrast bir atəşlə düşmən tankını vurdu. Bundan sonra onlar bir qədər geri çəkildilər.

Uşaqlar ardıcıl atəşlə bir neçə xüsusi təyinatlını öldürdülər və çox yaxınlaşmış bir neçəsini əsir tutdular. Elə ağır şəraitdə bizə beş əsir də əlavə olundu.

Su və yeməyin olmaması hamımızı çətin vəziyyətə salmışdı. Uşaqların çoxu yorğun və taqətsiz halda kanalın bir tərəfində uzanıb qalmışdı.

Kanaldan uzaqlaşan tanklar mikrofonlarını işə saldılar, münafiqlərin biri danışmağa başladı:

– İranlılar! Gəlin təslim olun. Sizinlə işimiz yoxdur. Sizin üçün sərin su və yemək hazırlamışlar. Gəlin...

Bu yolla bizi əsir düşməyə həvəsləndirirdi.

Aclıq və susuzluq hamının amanını almışdı. Uşaqların bir neçəsi dedi ki, gedib təslim olaq, biz vəzifəmizi yerinə yetirdik, daha xilasımıza heç bir ümid yoxdur.

Yeniyetmə Bəsic üzvlərindən biri isə etiraz etdi.

- Əgər əsir düşsək, İraq televiziyası bizi göstərsə və İmam Xomeyni görüb narahat olsa, onda necə?! Məgər biz imamı sevindirməyə gəlməmişik?!

Bu söhbətin nəticəsi olaraq, heç kim təslim olmadı. İbrahim uşaqların qərarını öyrənib sevindi və dedi: "Onda nə qədər ərzağımız və sursatımız varsa, bərabər bölməliyik".

Kimdə nə vardısa, İbrahimə təhvil verdi. O, hər beş nəfərə bir su qumquması və bir qədər yeyinti məhsulu verdi. Beş düşmən əsirinin hər birinə də bir qumquma su verdi.

Bəzi uşaqlar buna etiraz edəndə İbrahim dedi: "Onlar bizim qonaqlarımızdır".

Silahları da toplayıb sağlam döyüşçülərə verdik ki, keşik çəkə bilsinlər.

Ertəsi gün, yəni 11 fevralda hələ sübh açılmamış düşmən tankları geri çəkildi. Uşaqların bəzisi fürsətdən istifadə edib bir neçə nəfərlik dəstələrlə geri getdilər. Onların bəzisi səhvən minaya düşdü.

Bir saatdan sonra düşmənin atəşi çox gücləndi, daha heç kim bir iş görə bilmədi.

11 fevralda günortadan sonra, güclü atəşin ardınca düşmənin xüsusi təyinatlıları başımızın üstünü aldılar. Bir də gördük ki, kanalın üstündən silahlar bizə tuşlanıb.

Bir düşmən zabiti uşaqların düzəltdiyi pilləkəndən kanala endi. Arxasınca da bir əsgər gəlirdi. Bizim ilk yaralımıza bir təpik vurdu, sağ olduğunu bilib əsgərə atəş əmri verdi.

Əsgər də atəş açıb yaralını şəhid etdi. Növbəti yaralı məsum bir yeniyetmə idi. Bəəs zabiti təpiklə onun üzünə vurdu və əsgərə dedi: "Vur!"

Əsgər atəş açmadı. İraqlı zabit qışqırdı, əsgərsə geri çəkildi və atəş açmadı. Zabit tapançasını çıxarıb onun üzünə bir güllə vurdu.

İraqlı əsgər bizim şəhidlərimizin yanına yıxıldı. Zabit tez kanaldan çıxdı və öz döyüşçülərinə atəş əmri verdi.

Bir neçə dəqiqədən sonra iraqlılar kanalın içində hamının şəhid olduğunu zənn edib getdilər. Daha atəş səsi gəlmirdi. Günəş qürub edəndə Fəkkəyə kədərli sükut çökdü.

Mən və şəhidlərin arasında sağ qalmış digər bir neçə nəfər yerimizdən qalxıb ətrafa baxdıq. Heç kim yox idi. Sağ qalanların çoxu yaralı idi. Hava tam qaralandan sonra yola düşdük və işıqlanmadan öncə öz mövqelərimizə çatdıq.[1]

---

[1] İbrahimin Fəkkədəki beşgünlük qəhrəmanlığına dair "Kumeyl kanalının sirri" kitabında geniş məlumat verilmişdir.

# *Əsirlik*

**Əmir Məncər**

İbrahimin itkin düşməsindən bir həftə ötdü. Günortadan qabaq məscidə gəldim. Cəfər Cəngru da orada idi. Çox narahat və kədərli idi. Heç kim bu xəbərə inanmırdı.

Mustafa da gəldi və İbrahim haqda danışmağa başladıq. Birdən Məhəmməd ağa Təraşkar yaxınlaşıb hər şeydən xəbərsiz halda dedi: "Uşaqlar, siz İbrahim Hadi adlı birini tanıyırsınız?"

Hamımız susub təəccüblə bir-birimizə baxdıq. Sonra yaxınlaşıb soruşduq: "Nə olub?"

Yazıq çox qorxdu.

– Heç nə. Mənim qaynım bir neçə aydır itkin düşüb. Mən hər gecə saat 12-də Bağdad radiosunu dinləyirəm. İraqlılar əsirlərin adlarını o vaxt elan edirlər. Bu axşam qulaq asanda birdən aparıcı verilişi dayandırdı və musiqi yayımladılar. Sonra da sevinclə belə bir elan verildi: "Qərb cəbhəsindəki iranlı komandirlərdən olan İbrahim Hadi əsir tutulub".

Sevincimdən qanad çalıb uçmağa qaldım. İbrahimin sağ olduğuna hamımız çox sevindik.

Tez o biri uşaqların yanına getdim və Hacı Əli Sadiqi Qırmızı xaç cəmiyyətinə məktub yazdı.

Rza Huryar ağa İbrahimgilə gedib qardaşına xəbər verdi. İbrahimin sağ olduğuna bütün uşaqlar sevindilər.

***

Bir müddətdən sonra Qırmızı xaç cəmiyyətindən cavab gəldi. Cavabda deyilirdi: "Mən İbrahim Hadi İsfahanın Nəcəfabad rayonundan ezam olunmuşam, 15 yaşım var. İraqlılar kimi siz də məni ölkənin qərbindəki komandirlərdən biri ilə səhv salmısınız".

Buna baxmayaraq, bir çox dostlar əsirlər azad olunana qədər İbrahimin qayıdacağını gözləyirdilər.

Heyətdə İbrahimin adı çəkiləndə uşaqlar hər dəfə həzrət Zəhra (ə) rövzəsi oxuyub ucadan ağlayırdılar.

# *Ayrılıq*

**Abbas Hadi**

İbrahimin itkin düşməsindən bir ay ötdü. Onun dostlarının heç biri qəm-qüssədən ayrıla bilmirdi.

Harada bir yerə toplaşırdıqsa, İbrahimdən danışıb ağlayırdıq. Uşaqların birini görmək üçün xəstəxanaya getdim. Rza Qudini də orada idi. Məni görən kimi dərdi təzələndi və ucadan ağlamağa başladı. Sonra dedi: "Uşaqlar, İbrahimsiz bu dünya mənə yaşamaq yeri deyil. Əmin olun ki, mən də ilk əməliyyatda şəhid olacağam".

Uşaqların başqa biri dedi: "Biz İbrahimin kim olduğunu anlamadıq. O, Allahın xalis bəndəsi idi. Bizim aramıza gəldi, bir müddət onunla yaşadıq ki, "Allah bəndəsi" sözünün mənasını biləк".

Başqa biri dedi: "İbrahim sözün əsl mənasında bir pəhləvan idi; pəhləvan arif".

***

İbrahimin şəhadətindən beş ay ötdü. Anam hərdən soruşurdu ki, İbrahim nə üçün məzuniyyətə gəlmir. Biz də hər dəfə müxtəlif bəhanələrlə mövzunu dəyişdirirdik. Deyirdik ki, indi əməliyyat var, hələlik gələ bilmir - hər dəfə bir söz deyirdik.

Bir gün anam otaqda İbrahimin şəkli ilə üz-üzə oturub ağlayırdı. Yaxınlaşdım.

– Ana, nə olub?

– Mən İbrahimin ətrini hiss edirəm. İbrahim indi bu otaqda, buradadır...

Bir qədər sakitləşəndən sonra əlavə etdi: "Mən əminəm ki, İbrahim şəhid olub. O, son dəfə çox dəyişmişdi. Ona çox dedim ki, gəl, elçiliyə gedim, səni evləndirmək istəyirəm. O isə deyirdi: "Yox, ana, mən əminəm ki,

qayıtmayacağam. İstəmirəm ki, evin küncündə ağlar bir göz məni gözləsin".

Bir neçə gündən sonra yenə İbrahimin şəklinin önündə dayanıb ağlayırdı. Biz axırda məcbur qalıb dayımızı çağırdıq ki, anama həqiqəti söyləsin.

Həmin gün anamın halı pisləşdi, ürək narahatlığı gücləndi və biz onu xəstəxanaya yerləşdirdik.

İllər sonra anamı Behişti-Zəhra (ə) məzarlığına aparanda daha çox 44-cü sıraya getmək istəyirdi. O, İbrahimin xatirəsi ilə naməlum şəhidlərin məzarı yanında otururdu. Ona ağlamaq olmazdı, amma orada ürəyini boşaldır və naməlum şəhidlərə ürək sözlərini deyirdi.

## *Axtarış*

**Səid Qasimi və şəhidin bacısı**

1990-cı ildə əsirlər azad olub vətənə qayıtdılar. Bəziləri hələ də İbrahimin qayıdışını gözləyirdilər. Onların arasında İbrahim Hadi adlı iki nəfər olsa da, bütün uşaqların ümidləri puça çıxdı.

Bir il sonra İbrahimin dostlarının bir neçəsi əməliyyat bölgələrinə baxmaq üçün Fəkkəyə yollandılar. Bu səfərdə qrup üzvləri bir neçə şəhidin cənazəsini tapıb Tehrana apardılar.

Bir neçə gündən sonra şəhidlərin ailələrinə baş çəkməyə getmişdik. Bir şəhidin anası mənə dedi: "Siz bilirsiniz mənim oğlum harada şəhid olub?"

– Bəli, biz birlikdə idik.

– İndi müharibə qurtarıb, siz onun cəsədini tapıb gətirə bilməzsiniz?

Bu ananın sözündən sonra çox fikrə getdik.

Ertəsi gün müharibə dövrünün bir neçə qayğıkeş komandiri ilə söhbət etdim. Qərara gəldik ki, dostlarımızın cəsədlərini axtarmağa gedək. Bir müddətdən sonra bir neçə nəfər toplaşıb Fəkkəyə yollandıq.

Yeni axtarışlardan sonra üç yüz şəhidin, o cümlədən həmin ananın oğlunun cəsədi tapıldı. Ondan sonra müxtəlif sərhəd bölgələrində axtarış aparmaq üçün Şəhidlərin axtarışı adlı komitə yaradıldı.

Çoxlu maneələrə baxmayaraq, məzlum şəhidlərimizə görə Fəkkədə axtarış işi genişləndi. Axtarış qrupunun İbrahimi tanıyan bir çox üzvləri deyirdilər: "Axtarış qrupunun banisi İbrahim Hadidir. O, əməliyyatlardan sonra şəhidlərinin cəsədlərini gətirməyə gedirdi".

Müharibədən beş il sonra nəhayət, Kumeyl kanalında işlər başlandı. Şəhidlərin cəsədləri bir-bir tapılırdı. Kanalın sonunda çoxlu şəhid cəsədi yan-yana düzülmüşdü. Onların cəsədlərini asanlıqla kanaldan çıxardıq, amma İbrahimdən əsər-əlamət yox idi.

Diviziyanın axtarış qrupunun başçısı Əli Mahmudvənd idi. O, Vəlfəcr-hazırlıq əməliyyatında beş gün Kumeyl kanalının içində düşmən mühasirəsində qalmışdı.

Əli həyatını İbrahimə borclu bilib deyirdi: "Fəkkə qürbətinin nə olduğunu heç kim bilmir. Bu kanallarda bizim nə qədər məzlum uşaqlarımız var. Fəkkə torpağı Kərbəla qürbətini yada salır".

Bir gün axtarış zamanı bir şəhidin cəsədi tapıldı. Onun əşyalarının arasında bir qeyd dəftərçəsi vardı. İllər ötsə də, hələ oxumaq olurdu. Dəftərçənin son səhifəsində yazılmışdı: "Artıq beşinci gündür mühasirədəyik. Suyu və yeməyi bərabər paylara bölürük. Şəhidlər kanalın sonunda yan-yana düzülüb. Onlar daha susuz deyillər. Susuz dodaqlarına qurban, ey Fatimə oğlu!"

Uşaqlar bu dəftərçəni oxuyub çox təəssüfləndilər və yenə axtarışa davam etdilər.

Əksər şəhidlərin cəsədi tapılsa da, İbrahimdən xəbər yox idi. Bir müddətdən sonra İbrahimin dostlarından biri baxış üçün Fəkkəyə gəldi. O, xatirələrini danışandan sonra dedi: "İbrahimi çox da axtarmayın. O, adsız qalmaq istəyirdi, onu çətin tapasınız. İbrahim Fəkkədə qalıb ki, döyüş bölgələrinin ziyarətçilərinə günəş kimi işıq saçsın".

***

Doxsanıncı illərin sonlarında Fəkkədə yenidən axtarış başlandı. Kanallardan yenə şəhid cəsədləri tapıldı, amma əksərinin kimliyini müəyyən etmək mümkün olmadı.

Həmin axtarışlarda Əli Mahmudvənd və bir müddətdən sonra Məcid Pazuki şəhidlərin sırasına qoşuldular.

Naməlum şəhidlərin cəsədləri Axtarış komitəsinə verildi. Qərara alındı ki, bütün ölkəni gəzdirəndən sonra Fatimiyyə günlərində hər beş şəhidi İranın bir bölgəsində torpağa tapşırsınlar. Naməlum şəhid cəsədlərinin Tehranda dəfn olunacağı gecə İbrahimi yuxuda gördüm. Motosikletlə evimizin önündə dayandı və xüsusi sevinclə dedi: "Biz də qayıtdıq!" Bunu deyib mənə əl yelləməyə başladı.

Bir dəfə də şəhidlərin dəfn mərasimini yuxuda gördüm. Maşının üstündəki bir şəhid tabutu tərpəndi və İbrahim içindən çıxıb həmişəki kimi gülümsəməyə başladı.

Ertəsi gün qədirbilən xalq xüsusi coşqu ilə şəhidləri qarşılamağa getdi. Təntənəli bir dəfn mərasimi təşkil olundu, sonra da şəhidləri dəfn üçün müxtəlif şəhərlərə göndərdilər.

Məncə, İbrahim həzrət Fatimeyi-Zəhranın (ə) şəhadət günü naməlum şəhidlərlə qayıtdı.

Buna görə də, hansı naməlum şəhidin məzarı üstünə gedirəmsə, bu xalqın İbrahimini və ibrahimlərini xatırlayıb Fatihə oxuyuram.

## *Şəhid duası*

Məhəllədə görülən ən mühüm işlərdən biri 1997-ci ildə Şəhid Məhəllati avtobanının körpüsünün altında İbrahimin təsvirinin çəkilməsidir. Bu kitabın hazırlandığı son günlərdə seyidin yanına gedib dedim: "Ağa seyid, eşitmişəm Şəhid Hadinin rəsmini siz çəkmisiniz, doğrudur?"

– Bəli.

– Sizə təşəkkür etmək istəyirəm. Çünki bu rəsmə görə ağa İbrahim hələ də məhəllədədir.

– Mən İbrahimi tanımırdım. Qərara gəlmişdik ki, Şəhidlər konqresi üçün orada müharibə komandirlərindən birinin rəsmini çəkim. Dostların biri ağa İbrahimin şəklini gətirib dedi ki, bu, cəsədi itkin düşmüş bir şəhiddir. Mümkünsə, onun rəsmini çək.

Mən onunla bağlı xatirələri eşidəndən sonra təklifi qəbul etdim. Çətin iş idi, amma yaxşı şəkildə görməyə çalışdım. Rəsmi dəyişdiyimə görə bizə bir şey vermədilər, boyanı və digər xərcləri özüm qarşılamalı oldum, lakin bundan sonra Allah mənim həyatıma elə bərəkət verdi ki, hesablaya bilmərəm. Bu rəsmdən çox xeyir gördüm.

Təəccüblə soruşdum: “Məsələn nə?”

– Bu rəsmi çəkəndən və Şəhidlər cilvəsi sərgisi başlayandan sonra bir cümə axşamı günü bir qadın yanıma gəlib dedi: "Ağa, bu şirniyyat bu şəhid üçün hazırlanıb, burada paylayın".

Düşündüm ki, yəqin şəhidin qohumlarındandır. Buna görə soruşdum: "Siz Şəhid Hadini tanıyırsınız?"

- Yox.

Təəccübümü görəndən sonra əlavə etdi: "Bizim evimiz bu yaxınlıqdadır. Mənim həyatımda problem yaranmışdı.

Bir neçə gün öncə siz rəsmi çəkəndə buradan keçirdim. Öz-özümə dedim ki, İlahi, əgər bu şəhidlərin sənin yanında hörməti varsa, səni bu şəhidə and verirəm, mənim problemimi həll elə. Mən də söz verirəm ki, namazlarımı ilk vaxtda qılacağam. Sonra adını bilmədiyim bu şəhidə Fatihə oxudum. İnanın ki, problemim çox tez aradan qalxdı. İndi ona təşəkkür etməyə gəlmişəm".

Seyid sözünə davam etdi: "Ötən il mənim işlərimdə yenidən düyün yarandı, çoxlu problemlər vardı. Ağa İbrahimin rəsminin önündən keçəndə şəklin saraldığını gördüm. Çərçivə hazırlayıb boyaları götürdüm və rəsmi bərpa etməyə başladım. İnanılmaz idi; rəsmin işi bitən kimi mənə böyük bir layihə təklif olundu və maddi sıxıntılarımın çoxu həllini tapdı".

Seyid bir qədər sonra yenə əlavə etdi: "Ağa, bunların Allah yanında məqamları çox ucadır, biz hələ bunları tanımamışıq. Bunlar üçün kiçik bir iş görəndə Allah bir neçə qat artıq əvəzini verir”.

***

Məscidə gəlmişdi. Məndən ağa İbrahimin dostlarını soruşdu. Onlarla şəhid haqda danışmaq istəyirdi.

– Sizin işiniz nədir? Bəlkə kömək edə bilərəm?

– Mən Şəhid Hadinin kim olduğunu, məzarının harada yerləşdiyini bilmək istəyirəm.

Bir qədər fikrə getdim. Nə deyəcəyimi bilmirdim. Bir neçə saniyədən sonra dedim: "İbrahim Hadi itkin şəhiddir, məzarı yoxdur. Bəs nə üçün onunla maraqlanırsınız?"

Çox narahat oldu.

– Bizim evimiz Şəhid Hadinin rəsminin yaxınlığında yerləşir. Mənim kiçik qızım hər səhər bu rəsmin önündən keçib məktəbə gedir. Bir dəfə məndən onun kimliyini soruşdu, mən də dedim ki, bunlar gedib düşmənlə

vuruşdular, düşmənin bizə hücum etməsinə qoymadılar və sonda şəhid oldular.

Qızım bunu eşidəndən sonra hər dəfə rəsmin önündən keçəndə Şəhid Hadiyə salam verir. O, bir neçə gün öncə yuxuda bu şəhidi görüb. Şəhid Hadi qızıma deyib: "Xanım qız, sən hər dəfə mənə salam verəndə, mən cavabını verirəm, bu az yaşında hicabını belə yaxşı qoruduğuna görə sənə dua edirəm".

İndi qızım məndən Şəhid Hadinin kimliyini və məzarının harada olduğunu soruşur.

Boğazımı qəhər tutdu. Balaca xanıma yalnız bu mesajı yolladım: "Əgər ağa İbrahimin həmişə sənə dua etməyini istəyirsənsə, namazından və hicabından muğayat ol". Sonra da İbrahimlə bağlı bir neçə xatirə danışdım.

***

Bir tablonun üzərinə belə yazılmışdı: "Şəhidlərlə ünsiyyət və dostluq qarşılıqlıdır".

2009-cu ilin novruzu idi. Kitabın mətnini təkmilləşdirməkdən ötrü Gilanqərbə yola düşdük. Yolda Eyvan şəhərinə çatdıq. Qürub çağı idi, səhərdən avtomobil sürdüyümə görə çox yorulmuşdum. Lakin şəhərdə heç bir hotel və mehmanxana tapmadıq.

Ürəyimdə dedim: "Ağa İbrahim, biz sənin işindən ötrü gəlmişik, özün yoluna qoy".

Bu zaman şam azanı verildi. Öz-özümə dedim: Əgər İbrahim burada olsaydı, mütləq namaz qılmaq üçün məscidə gedərdi. Odur ki, biz də məscidə yollandıq. Camaat namazını qılandan sonra təxminən əlli yaşlı bir kişi bizə yaxınlaşıb hörmətlə salam verdi.

– Siz Tehrandan gəlmisiniz?

Mən təəccübləndim.

– Bəli.

– Maşınınızın nömrəsindən bildim. Bizim evimiz yaxındadır, hər şey də hazırdır. Buyurursunuz?

– Çox sağ olun, biz getməliyik.

– Bu axşam istirahət edin, sabah gedərsiniz.

Qəbul etmək istəmirdim. Məscidin xadimi yaxınlaşıb dedi: "O, buranın bələdiyyəsindən ağa Məhəmmədidir. Təklifini qəbul edin".

O qədər yorulmuşdum ki, qəbul etdim və birlikdə yola düşdük.

Bizə çox geniş şam süfrəsi açdı. Gecəni orada yatdıq. Səhər yeməyindən sonra sağollaşanda dedi: "Şəhərə gəlişinizin səbəbini soruşa bilərəm?"

– Biz bir şəhidlə bağlı xatirələri təkmilləşdirməkdən ötrü Gilanqərbə gedirik.

Təəccüblə dedi: "Mən Gilanqərbdənəm. Hansı şəhidi deyirsiniz?”

– Onu tanımazsınız, özü Tehrandan idi.

Sonra çantamdan şəkli çıxarıb ona göstərdim.

Təəccüblə baxıb dedi: “Bu ki ağa İbrahimdir! Şəhid Hadi atamla mənim komandirim olub. Müharibənin birinci ilində əməliyyat və kəşfiyyatlarda bir yerdə olmuşuq”.

Mat-məəttəl ona baxdım. Nə deyəcəyimi bilmirdim. Boğazımı qəhər tutdu. Axşamdan bizə ən gözəl şəkildə qulluq olundu, ev sahibi də onun dostlarından imiş.

Ağa İbrahim, minnətdaram.

## *Salam olsun İbrahimə!*

Ağa İbrahim üçün bir iş görmək qərarına gələndə bütün səyimizi topladıq ki, Allahın köməyi ilə ən yaxşı iş görülmüş olsun. Hərçənd, bilirik ki, bu kitab ağa İbrahimin kamal dəryasından bir damlanı da təsvir etməyib.

Məni özünün bu pak və ixlaslı bəndəsi ilə tanış etdiyinə görə elə əvvəldən Allaha şükür etdim. Həmçinin bu iş üçün məni seçdiyinə görə də Allaha şükür etdim. Mən bu müddətdə öz həyatımda böyük dəyişikliklər hiss etdim.

Təxminən iki ilə yaxın çalışdım, altmış müsahibə aldım, bir neçə dəfə səfərə çıxdım, dəfələrlə mətn hazırladım... Bu kitaba İbrahimin hal və ruhiyyəsinə uyğun bir ad tapmaq istəyirdim. Hacı Hüseyni görüb soruşdum: "Bu kitaba hansı adı təklif edirsiniz?"

O dedi: "Azan. Çünki cəbhə uşaqlarının çoxu İbrahimi gözəl azanları ilə tanıyırdı".

Dostların biri Şəhid İbrahim Hisaminin sözünü dedi. Hisami İbrahimə belə deyibmiş: "Pəhləvan arif".

Kitabın adını Azan möcüzəsi qoymağı düşünürdüm. Axşam idi. Stolun üstündəki Quran diqqətimi cəlb etdi. Quranı götürüb ürəyimdə dedim: "İlahi! Bu iş sənin saleh və itkin bəndən üçün görülüb. Onun adı barədə Quranın fikrini bilmək istəyirəm".

Sonra Allahıma dedim: "Buraya qədər hər şey Sənin lütfünlə baş verib. Mən nə İbrahimi görmüşdüm, nə də cəbhəyə getməyə yaşım düşürdü. Lakin öz məhəbbətini bizə şamil etdin və bu kitab ərsəyə gəldi. İlahi! Mən nə istixarə bilirəm, nə də ayələrin mənasından düzgün çıxarış edə bilirəm".

Sonra "Bismillah" dedim, Həmd surəsini oxuyub Quranı açdım. Səhifənin yuxarısındakı ayələri görəndə mənə istilik gəldi və ixtiyarsız olaraq gözlərimdən yaş axdı. Səhifənin başında Saffat surəsinin 109-cu ayəsi görünürdü: "İbrahimə salam olsun! Həqiqətən, Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq! Şübhəsiz ki, o Bizim mömin bəndələrimizdən idi!"[1]

[1] Saffat, 109-111.

# *Şəhidlər sağdırlar*

**Mustafa Səffar Hərəndi və digərləri**

Bu, bizim sözümüz deyil, Quran deyir ki, şəhidlər sağdırlar, bu dünyanı görürlər və öz zahiri həyatları dövründən də yaxşı şəkildə pərdə arxasından xəbərdardırlar. Bu kitabın xatirələrini toplayanda dəfələrlə Allahın lüftünü və ağa İbrahimin dəstəyini müşahidə etdik. Dəfələrlə özü gəlib müsahibə üçün kimin yanına getməli olduğumuzu bildirdi. Ağa İbrahimi və digər şəhidləri isə ən çox zəmanənin ağır hadisələrində müşahidə etdik, müharibədən sonrakı fitnə dolu hadisələrdə yaxından hiss etdik.

2009-cu ilin iyulunda quruluşun düşmənlərini çox sevindirən bir fitnə baş verdi, lakin Allahın istəyi ilə fitnəkarlara acı aqibət nəsib oldu.

Bu fitnənin başlandığı və hələ qarşıdurmalardan heç kimin xəbəri olmadığı birinci gecə yuxuda şəhid komandir Məhəmməd Bürucerdini gördüm. O, məscidin bütün uşaqlarını toplayıb Tehranın dördyollarından birinə apardı; həzrət imamın İrana daxil olduğu gün kimi. Çünki 1 fevral 1979-cu ildə də təhlükəsizliyi qorumaq ona tapşırılmışdı. Məscid uşaqları ilə birgə mən də qardaş Bürücerdinin yanında idim. İbrahim Hadi, Cavad Əfrasiyabi, Rza və digər şəhid dostlarımız da qardaş Bürucerdinin yanına gəldilər. Çox sevinir, onlara yaxınlaşmaq istəyirdim. Ancaq qardaş Bürucerdinin əlində bir kağız var idi və əməliyyat zamanı olduğu kimi şəxsi heyəti Tehranın müxtəlif bölgələrinə göndərirdi. O, bütün şəxsi heyətini, o cümlədən İbrahimi Tehran universitetinin ətrafındakı müxtəlif yerlərə böldü.

Ertəsi gün səhər bu yuxu haqda çox fikirləşdim. Nəhayət, dostlarımızın biri əlaqə saxlayıb Tehran universitetinin ətrafında baş vermiş toqquşma və universitet məhəlləsi hadisəsi haqda xəbər verdi. Bunu eşidən kimi dərhal yuxumu xatırladım.

2009 fitnəsi çox tez bir zamanda başa çatdı. Xalq iyulun 14-də izdihamlı mitinqlə bütün fitnəkarları məyus etdi.

Həmin gün Əli Nəsrullahı gördüm. Ağır vəziyyətdə olsa da, yürüşdə iştirak edirdi. Ona dedim: "Hacı Əli, bütün bu fitnələri şəhidlər yatırtdılar".

Hacı Əli cavab verdi: "Başqa cür ola da bilməz. Əmin ol ki, şəhidlərin işi idi".

# *Haraya gedirsiniz?*

**Xanım Rəsuli və digərləri**

Müqəddəs müdafiə dövründə yoldaşımla birgə cəbhəyə yollandıq. Yoldaşım Şəhid Əndərzqu dəstəsində vuruşurdu, mən də Gilanqərb xəstəxanasında çalışırdım.

İbrahim Hadini ilk dəfə orada gördüm. Bir neçə şəhid cənazəsini xəstəxanaya gətirəndə bizə dedi ki, xanımlar yaxınlaşmasınlar, cəsədlər parçalanıb, onları toplamalıyıq.

Sonralar bir neçə dəfə onun mənəvi səsini eşitdim. Çox gözəl səsi vardı. Dua oxumağa başlayanda hamının halı dəyişirdi.

Bəsic üzvləri İbrahimi çox sevirdilər və ətrafı həmişə döyüşçülərlə dolu olurdu.

1982-ci ilin əvvəllərində onlar cənuba getdilər, mən də Tehrana qayıtdım.

Bir neçə ildən sonra 17 Şəhrivər xiyabanından keçəndə birdən divarda ağa İbrahimin rəsmini gördüm. Mən onun şəhid olduğunu və itkin düşdüyünü bilmirdim. O zamandan etibarən hər cümə axşamı onun və digər şəhidlərin niyyəti ilə iki rəkət namaz qılıram.

2009-cu ilin fitnələri zamanı bir axşam qəribə bir hadisə baş verdi. Yuxuda gördüm ki, ağa İbrahim çox nurlu simada yaşıl bir təpənin başında dayanıb, arxasında da gözəl ağaclar var. Onun mənim də tanıdığım dostlarından ikisi isə təpənin aşağısında bir bataqlıqda çapalayırdılar. Onlar harasa getmək istəyirdilər, amma nə qədər əl-ayaq vururdularsa, bataqlığa daha çox batırdılar. İbrahim üzünü onlara tutub qışqırdı və bu ayəni oxudu: "Haraya gedirsiniz?" Onlar isə fikir vermədilər.

Ertəsi gün bu haqda çox fikirləşdim. Oğlum universitetdən qayıdanda sevincək yanıma gəlib dedi: "Ana, sənə bir hədiyyə almışam".

Sonra əlindəki kitabı göstərib dedi: "Şəhid İbrahim Hadinin kitabı çap olub".

Kitabın üzündəki şəkli görən kimi yerimdə donub qaldım. Oğlum qorxdu.

– Ana, nə olub? Mən elə bilirdim sevinəcəksən.

Yaxınlaşıb kitabı aldım. Yuxuda eynilə kitabın üzərindəki şəkli, İbrahimi məhz o vəziyyətdə görmüşdüm.

Sonra kitabı oxumağa başladım. Yuxumun doğru olduğunu bilib yoldaşım vasitəsilə həmin illərin Bəsic üzvlərindən birinə zəng vurduq və yuxuda gördüyüm iki nəfərin vəziyyətini soruşduq.

Araşdırmalardan sonra öyrəndim ki, həmin iki nəfər cəbhədə vuruşmalarına və bütün əziyyətlərinə baxmayaraq, fitnə başçılarını dəstəkləyib, inqilab rəhbərinə qarşı çıxmışlar.

Yuxu şəriət baxımından höccət olmasa da, onlarla əlaqə saxlayıb yuxumu danışmağı özümə borc bildim. Allaha şükür ki, həmin yuxu təsirli oldu. İbrahim növbəti dəfə dostlarının hidayətinə səbəb oldu.

## *Xatirə məzarı*

### Şəhidin bacısı

İbrahimin şəhadətindən sonra çox pis olmuşdum. İbrahim mənim bütün həyatım idi. Ona çox bağlı idim. O bizə yalnız qardaş deyildi, həm də tərbiyəçi idi.

Mənimlə dəfələrlə hicab barədə danışıb deyirdi: "Bir qadının imanı hicaba tam riayət edəndə kamilləşir".

Evdən çıxanda və ya bir qonaqlığa gedəndə bizə naməhrəmlə davranış tərzi haqda tövsiyə verirdi, amma heç vaxt əmr etməz və ya qadağa qoymazdı. İbrahimin tərbiyə üsulu nəsihət vermək idi.

O bizi zarafat və gülüşlə sübh namazına çağırar və deyərdi: "Namaz yalnız ilk vaxtda və camaatla!"

Dostlarına həmişə azan verməyi tövsiyə edərdi. Deyirdi ki, harada olsanız, hətta motosikletdə olsanız belə, azan səsini eşidən kimi dayanın və ucadan azan verin.

İbrahim yaralanıb evə gələndə bir tərəfdən narahat idik, bir tərəfdən də sevinirdik. Narahatlığımız yaralandığına görə, sevincimiz isə onu daha çox görə biləcəyimizə görə idi.

Yaxşı yadımdadır, dostları onu görməyə gələndə bir şeir oxumağa başladı. Məncə, öz şeiri idi:

Əgər bütün dünyada mənimlə vuruşsalar,
Əgər xəncərlə qanımı töksələr,
Əgər qanla bədənimi yusalar,
Əgər bədənimdən başımı alsalar,
Əgər od və qan arasında qalsam,
Qızıl Rəhbər xəttindən dönmərəm!

Bəziləri deyirdilər ki, biz cəbhəyə yalnız şəhid olmaqdan ötrü gedirik. İbrahimin isə dəfələrlə bu sözdən xoşlanmadığını eşitmişdim. O, dostlarına deyirdi: "Həmişə

deyin ki, son ana qədər, nə qədər ki nəfəsim gəlir, İslama və inqilaba xidmət edəcəyəm. Əgər Allah istəsə və qiymətimiz beş olsa, onda şəhid olarıq. Lakin nə qədər ki bədənimizdə qüvvə var, İslam yolunda mübarizə aparmalıyıq”.

O həmçinin deyirdi: "Bu bədənlə o qədər işləməli, Allah yolunda elə çalışmalıyıq ki, Özü məsləhət biləndə kağızımızı imzalasın və şəhid olaq. Lakin şəhid olmaq səadətinin pis rəftarla, pis bir işlə alınması da mümkündür”.

***

İbrahimin şəhadətindən illər ötdü. Onun yoxluğunun bizim ailəyə nə yaşatdığını heç kəs təsəvvür edə bilməz. Anamız İbrahimin dərdindən yatağa düşdü.

Nəhayət, eşitdim ki, 2011-ci ildə İbrahimə Behişti-Zəhradakı (ə) naməlum şəhid qəbirlərinin birinin üstündə xatirə daşı qoyulacaq.

İbrahim naməlum, tanınmaz qalmağı sevirdi. İndi isə naməlum bir şəhidin qəbri üstündə ona məzar daşı qoyulacaq, əslində, naməlum şəhidlərin biri İbrahimin vasitəsilə uca tutulacaqdı.

İlk dəfə İbrahimin baş daşı önündə dayananda birdən bütün vücudum titrədi, rəngim qaçdı və təəccüblə ətrafa baxdım.

Qohumlarımızdan bir neçəsi də eyni vəziyyətə düşdülər. Otuz il öncə orada baş vermiş bir hadisə yadımıza düşdü.

Xürrəmşəhrin azadlığı üçün keçirilən əməliyyatda anamın əmisi oğlu Şəhid Həsən Siracian şəhadətə qovuşdu. O zaman İbrahim yaralı idi və əsa ilə gəzirdi, ancaq onun şəhid olduğunu bilib Behişti-Zəhraya (ə) gəldi.

Həsəni dəfn edəndə yaxınlaşıb dedi: "Xoş halına, Həsən! Necə yaxşı yerdəsən! 26-cı sırada və əsas

xiyabanın kənarında. Buradan keçən hər kəs sənə Fatihə oxuyacaq”.

Sonra sözünə əlavə etdi: "Gərək mən də yanına gəlim. Dua et ki, mən də buraya gəlim".

Bunu deyib əsasını yerə vurdu və Həsəndən bir qədər kənardakı yeri göstərdi.

Bir neçə ildən sonra İbrahimin göstərdiyi yerdə naməlum bir şəhid dəfn olundu və sonra qəribə bir şəkildə İbrahimin xatirə başdaşı məhz özünün istədiyi həmin məkanda qoyuldu.

## *Son söz*

Ağa İbrahimin kitabının nəşrindən yeddi il ötür. “Salam olsun İbrahimə” kitabı 2010-2017-ci illərdə 120 dəfədən artıq çap olunub.

Heç bir dövlət və media dəstəyi olmadan kitabın 700 min nüsxəsinin satılacağına özümüz də inanmazdıq. Bu müddətdə İbrahimin yeni dostları tərəfindən minlərlə zəng, mesaj və elektron məktub qəbul etdik.

Hamı bu əziz şəhidin vasitəsi ilə Allahın göstərdiyi lütfdən danışırdı; Şəhid Hadiyə təvəssüllə Yəzd vilayətində bir xərçəng xəstəsinin şəfa tapmasından tutmuş, təsadüfən bu şəhidlə tanış olub bütün həyatını dəyişmiş avara bir tələbəyə qədər.

Bir gənc elçilik üçün bir neçə yerə getmiş, amma nəticə əldə edə bilməmişdi. O, Allahı Şəhid Hadiyə and verib bir də elçiliyə gedir, getdiyi evdə Şəhid Hadinin rəsmini görür və təsadüfən, həmin ailə də Şəhid Hadiyə təvəssül edibmiş ki...

Çoxlu gənclər İbrahimə eşqlə zorxana idmanına yollandılar və bütün işlərini Allahın razılığından ötrü görməyə başladılar.

Bu illərdə bir gün də onu xatırlamadan yaşamadıq. Bizim bütün həyatımız ona bağlandı. İbrahim elə bir yol açdı ki, onun adını daşıyan mərkəz tərəfindən Allahın lüftü ilə altmışdan artıq kitab çap olundu.

Onun bizə göstərdiyi yolla İslam cəmiyyətinə ölkəmizin müxtəlif yerlərindən onlarla adsız-nişansız şəhid tanıtdırıldı. O kitabların çoxu onlarla dəfə çap olub yayıldı.

İlk gündə belə olacağını düşünməzdik, amma bizim ixlas və bəndəlik timsalı olan əziz İbrahimimiz əməli

əxlaq nümunəsi kimi hətta digər ölkə və xalqlara da yol göstərdi. Kəşmirdən gəlib kitabın tərcüməsinə icazə istədilər, Hindistan və Pakistanda nəşr etdirdilər. Onlar İbrahimin həmin bölgənin müsəlmanlarına ən yaxşı əməli örnək olduğunu deyirdilər. Bu iş 2014-cü ilin fevralında baş tutdu. Ondan sonra xaricdə yaşayan digər dostlar onun alman və ərəbcəyə tərcüməsinə icazə istədilər. Allaha şükür ki, bu iş də 2015-ci ildə ərsəyə gəldi. Onu ərəbcəyə livanlı dostlar çap edib Suriya, İraq və Livanda yaydılar. Sonra da ingilis və ruscaya tərcüməsi başlandı.

Biz ilk gündə mərhum Şeyx Hüseyn Zahidinin sözlərini anlamaq üçün İbrahimin həyatı ilə maraqlanmışdıq. Allahın köməyi ilə şeyxin sözünün doğruluğu sübuta yetdi.

İbrahim düzgün həyat yolunu öyrənmək istəyən bütün insanlara əməli əxlaq nümunəsidir.

## *Şəkillər*

Sağdan: Hövzə tələbəsi Şəhid Səid Həşəmi Kəlhür, Şəhid Hadi və Şəhid Məhəmmədrza Əlövsət Gilanqərbdə. Şəhid Əlövsət sonralar Müslim briqadasının komandir müavini oldu və şəhidlər karvanına qoşuldu.

İbrahim zorxana uşaqları arasında
Hacı Həsən Təvəkkül yuxarı sırada oturmuş qocadır.

İbrahimin Hacı Həsən Təvəkkülün zorxanasındakı son idmanı

Sərpol Zəhab müharibənin ilk günlərində. Əsğər Vüsali sağdan birinci oturub, İbrahim də sağdan birinci ayaq üstə dayanıb. Fotodakıların çoxu şəhadətə qovuşub.

## *Şüar divarı*

Gilanqərb korpusunun qərargahında divarların birinə hər bir döyüşçü haqda bir şüar yazılmışdı. İbrahim haqda yazılan bu idi: "İbrahim Hadi - Purya Vəli xarakterli döyüşçü!"

Şəhid Muradi, Şəhid İbrahim Hadi və Şəhid Cahanbin Şəhid Vüsalinin cənazəsi yanında

Salam olsun sənə, ey Əli ibn Musa Rza!

Gilanqərbin qərib və qəhrəman şəhidlərinin xatirəsinə!

Əndərzqu  dəstəsinin qərargahı

İbrahimin sol tərəfində oturan Müslim ibn Əqil briqadasının komandir müavini Şəhid Əlövsətdir.

Əndərzqu dəstəsinin qərargahı

Hələ nahar yeməyi bitməmiş azan səsi gəldi və İbrahim həyətə çıxıb ucadan azan verməyə başladı.

Sağdan oturan: Şəhid Həsən Balaş, Şəhid Hadi, Bozorgzadə, Hüseyn Allahkərəm və Şəhid Hüseyn Bəsiti.

Soldan ayaq üstə: Şəhid Rza Qudini və Hacı Əli Sadiqi.

Pələng dərisi şəklində kamifulyaj geyimlə uşaqların yanına getdi, qayıdanda isə əsgər geyimində idi. Yeni paltarının harada olduğunu soruşdum. Dedi ki, kürd uşaqlardan birinin xoşu gəldi, mən də hədiyyə verdim.

İbrahim Hacı Hüseyn Allahkərəmin yanında

Şəhid Əndərzqu dəstəsinin uşaqları qərargahda Vəlfəcr-hazırlıq əməliyyatına hazırlaşarkən

Şəhid Rza Qudini Şəhid Camal Taciki Quranın altından keçirir.

Hücumçu batalyonun komandiri olan Camal bir neçə saatdan sonra Şiyakuh dağında şəhadətə qovuşdu. Rza da cəsarətli komandirlərdən və İbrahimin ən səmimi dostlarından idi. O, İbrahimdən ayrı qala bilmədi və ondan iki ay sonra Hüneyn batalyonunun komandiri ikən elə Fəkkə bölgəsində də şəhadətə qovuşdu.

Şəhid Hadi, Şəhid Xürrəmdel, Şəhid Tacik, Şəhid Kazimi və digərləri

Gilanqərb; İbrahim Hadi sağdan ayaq üstə, diviziya komandiri Rza Çıraği isə sağdan oturan

İbrahim Vəlfəcr-hazırlıq əməliyyatındakı azan macərasından bir müddət sonra boğazı bağlı şəkildə uşaqların yanına qayıdır.

Sağdan: Şəhid Cavad Əfrasiyabi, Şəhid İbrahim Hadi, Şəhid Rza Qudini

Cavad Əfrasiyabi müqəddəs müdafiə dövrünün adsız-nişansız və cəsarətli komandirlərindən idi. O, müharibənin ilk ilində bir ayağını itirdi. Lakin o vəziyyətdə dağlardan keçib Əndərzqu dəstəsinin uşaqları ilə birgə kəşfiyyata gedirdi. Cavad da İbrahimdən ayrı qalmağa dözmədi və ondan bir neçə ay sonra diviziyanın kəşfiyyat komandiri əvəzi ikən şəhidlər karvanına qoşuldu. Əfrasiyabi ailəsi Cavaddan əlavə İslama daha dörd şəhid də təqdim etmişdir.

Döyüşçülər İbrahimlə voleybol yarışından sonra

Şəhadət batalyonunun komandiri Şəhid Cavad Sərraf ayaq üstə sağdan dördüncü adamdır.

Nəcmiyyə xəstəxanası - Fəthülmübin əməliyyatından sonra

İbrahimin son şəkilləri – Fəkkədə Çənanə düşərgəsi, 7 fevral 1983

İrəlidə oturmuş ağ papaqlı Şəhid Əli Xürrəmdeldir.

Əli üçün qorxu sözü mənasız bir şey idi. Bir dəfə uşaqlarla kəşfiyyata gedəndə azuqənin bitdiyini görüb gecə yarısı uşaqlardan ayrılmış və bir neçə saatdan sonra bişmiş toyuq dolu bir qabla geri dönmüşdü. Yoldaşları sonradan öyrəndilər ki, onu iraqlıların mətbəxindən gətiribmiş. Əli zorxana dövründən İbrahimin dostu idi, cəbhədə bir an da ondan ayrılmadı. O, 1986-cı ildə şəhadətə qovuşdu.

İbrahim diviziyanın kəşfiyyatçıları arasında - Fəkkə bölgəsi

Həzrət Rəsul (s) diviziyasının axtarış qrupunun başçısı Şəhid Əli Mahmudvənd Kumeyl kanalında şəhidləri axtararkən

Axtarış qrupunun uşaqları Fəkkə şəhidlərini axtararkən

Buradan səmaya bir pilləkən var... Kumeyl kanalı axtarışdan öncə

İbrahim Gilanqərb dağında Hacı Hüseyn Allahkərəmin yanında

Şəhid İbrahim Hisami ortada oturandır. Qüdrət, cəsarət, igidlik – bu sözləri yan-yana qoyanda İbrahim Hisaminin nurlu siması təsvir olunur. Bir ayağı kəsilmiş olsa da, əsgərlərlə birgə əməliyyatlarda iştirak edir və onları ruhlandırırdı. Bir dəfə İbrahim Hadidən söhbət düşəndə dedi: "Bizim cəbhə böyüklərimiz dadaş İbrahimin qarşısında kiçikdirlər və çoxu İbrahimin şagirdidir". Buna bənzər bir cümləni sonralar Əmmar briqadasının komandiri Şəhid Mehdi Xəndandan, Şəhid Hacı Cəfər Cəngrudan, Hüseyn İsgəndərludan, Əhməd Növzaddan, Əli Cəzmanidən və digərlərindən də eşitdim.

Dokuhə, Vəlfəcr-hazırlıq əməliyyatından sonra

Sağdan: Əli Xürrəmdil, Şəhid İbrahim Hisami, dəyərli müharibə əlili Əli Nəsrullah

Kəşfiyyat komandaları düşmən mövqelərinə gedəndə çoxları Hacı Əli Nəsrullahla getməyə can atırdı. Onun hər bir tapşırıqda iştirakı uşaqları ruhlandırırdı. Mehranda başına güllə dəyəndə Allahın onu bir də qaytaracağını az adam düşünürdü. Kəşfiyyat bölüyünün canlı şəhidlərindən olan Hacı Əli zorxana dövründən İbrahimlə dost idi.

Cavab Əfrasiyabi, İbrahim Hadi və Maşallah Əzizi

Maşallah Əndərzqu dəstəsinin cəsur kürd döyüşçülərindən idi və İbrahimi çox sevirdi. O, müharibədən bir neçə il sonra şəhid dostlarına qovuşdu.

Gilanqərb cəbhəsi
Korpus geyimində irəlidə oturan şəhid Rza Dəstvarədir.

Şəhid İbrahim Hadinin Behişti-Zəhra (ə) məzarlığının 26-cı sırasında naməlum şəhidlərin birinin məzarı üstünə vurulmuş xatirə başdaşı

İbrahimin adı hələ məhəllədə yaşayır – Pəhləvan Şəhid İbrahim Hadi adına idman kompleksləri

Şəhid İbrahim Hadinin ilk anım mərasimi, 11 fevral 2008

Mündəricat

Ön söz........................................................................3
Nə üçün İbrahim Hadi?................................................5
Həyatı........................................................................8
Ata məhəbbəti..........................................................10
Rza Hadi ..................................................................10
Halal ruzi ................................................................12
Şəhidin bacısı ..........................................................12
Zorxana....................................................................14
Şəhidin dostları........................................................14
Pəhləvan ..................................................................18
Hüseyn Allahkərəm..................................................18
Təkbaşına voleybol...................................................22
Şəhidin dostları........................................................22
Mərc oyunu ..............................................................24
Mehdi Fəridvənd, Səid Saleh...................................24
Güləş.........................................................................27
Şəhidin qardaşları....................................................27
Çempion...................................................................30
Hüseyn Allahkərəm..................................................30
Purya Vəli ................................................................32
İrəc Girayi ................................................................32
Nəfsi ram etmək .......................................................35
Şəhidin dostları........................................................35
Yədulla .....................................................................38
Seyid Əbülfəz Kazimi ...............................................38

Hacı ağa Müctəhidinin mədrəsəsi ..............................40
İrəc Girayi ..............................................................40
İlahi izdivac ............................................................42
Rza Hadi .................................................................42
İnqilab günləri.........................................................44
Əmir Rəbii ...............................................................44
17 Şəhrivər ..............................................................47
Əmir Məncər ............................................................47
Mənəvi sıçrayış .......................................................50
Cabbar Sütudə, Hüseyn Allahkərəm.........................50
Sözün təsiri ..............................................................53
Mehdi Fəridvənd .....................................................53
İnsanlara yardım .....................................................57
Şəhidin dostları ........................................................57
Kürdüstan................................................................60
Mehdi Fəridvənd .....................................................60
Nümunəvi müəllim..................................................64
Abbas Hadi..............................................................64
İdman müəllimi .......................................................67
Şəhid Rza Huryar ....................................................67
İlk vaxtda namaz .....................................................69
Şəhidin dostları ........................................................69
Oğru ilə rəftarı .........................................................72
Abbas Hadi..............................................................72
Müharibənin başlanması..........................................73
Tağı Misgərha .........................................................73
İkinci iştirak.............................................................78
Əmir Məncər ...........................................................78

Təsbeh zikri ..........................................................................81
Əmir Sipehrnejad ..................................................................81
Əlməhdi qəsəbəsi ..................................................................83
Əli Müqəddəm, Hüseyn Cahanbəxş ..........................83
Problemləri həll edən insan ........................................86
Şəhidin dostlarından biri.............................................86
Şəhid Əndərzqu dəstəsi...............................................88
Mustafa Səffar Hərəndi ...............................................88
Əsğər Vüsalinin şəhadəti ............................................92
Əli Müqəddəm...............................................................92
Sadə görkəm...................................................................94
Şəhidin dostları..............................................................94
İmam Həsən (ə) bölgəsi ...............................................96
Hüseyn Allahkərəm......................................................96
Əsir ..................................................................................99
Mehdi Fəridvənd, Mürtəza Parsaian.........................99
Şəbanın on beşi ............................................................101
Şəhidin dostları............................................................101
Mükafat.........................................................................103
Qasim Şəban.................................................................103
Əbu-Cəfər .....................................................................106
Hüseyn Allahkərəm, Fərəcullah Muradian............106
Dost................................................................................111
Mustafa Hərəndi..........................................................111
Tanınmazlıq..................................................................113
Mustafa Hərəndi..........................................................113
Yalnız Allah üçün.........................................................115
Şəhidin dostlarından biri............................................115

Böyüklərin hüzuru ....................................................117
Əmir Məncər ............................................................117
Ziyarət .....................................................................120
Cabbar Sütudə, Mehdi Fəridvənd ...........................120
Əl qumbarası ...........................................................122
Əli Müqəddəm .........................................................122
Vəlfəcr-hazırlıq .......................................................123
Hüseyn Allahkərəm ................................................123
Azanın möcüzəsi .....................................................127
Hüseyn Allahkərəm ................................................127
Çəfiyə .......................................................................133
Abbas Hadi ..............................................................133
Zarafatcıllıq ............................................................135
Əli Sadiqi, Əkbər Növcavan ...................................135
İki qardaş kimi ........................................................137
Əli Sadiqi .................................................................137
Tapança ....................................................................139
Əmin Məncər ...........................................................139
Fəthülmübin ............................................................144
Şəhidin dostları .......................................................144
Yaralanma ...............................................................149
Mürtəza Parsaian, Əli Müqəddəm ..........................149
Məddahlıq ................................................................152
Əmir Məncər və Cavad Şirazi .................................152
Həzrət Zəhra (ə) məclisi ..........................................156
Şəhidin dostları .......................................................156
Yay ...........................................................................158
Mürtəza Parsaian .....................................................158

Tərbiyə üsulu ..........................................................160
Cavad Məclisirad, Mehdi Həsən Qumi ...................160
Düzgün rəftar...........................................................163
Şəhidin dostları.........................................................163
İlan hadisəsi..............................................................167
Mehdi Əmizadə ........................................................167
Allahın razılığı ..........................................................169
Abbas Hadi................................................................169
İxlas...........................................................................172
Abbas Hadi................................................................172
İnsanların ehtiyacı və Allahın neməti ......................175
Şəhidin dostları.........................................................175
Xums..........................................................................180
Mustafa Səffar Hərəndi ............................................180
Biz səni sevirik .........................................................182
Cavad Məclisi............................................................182
Zeynəlabidin (ə) əməliyyatı.......................................184
Cavad Məclisi............................................................184
Son günlər.................................................................188
Əli Sadiqi, Əli Müqəddəm ........................................188
Son görüş yeri: Fəkkə...............................................191
Əli Nəsrullah.............................................................191
Vəlfəcr-hazırlıq ........................................................195
Əli Nəsrullah.............................................................195
Kumeyl kanalı...........................................................200
Əli Nəsrullah.............................................................200
Qanlı qürub ..............................................................203
Əli Nəsrullah.............................................................203

Məzlumluğun zirvəsi................................................206
Mehdi Ramazani.......................................................206
Əsirlik.........................................................................210
Əmir Məncər ..............................................................210
Ayrılıq .........................................................................212
Abbas Hadi..................................................................212
Axtarış ........................................................................214
Səid Qasimi və şəhidin bacısı ...................................214
Şəhid duası ................................................................217
Salam olsun İbrahimə! ...............................................221
Şəhidlər sağdırlar .......................................................223
Mustafa Səffar Hərəndi və digərləri.........................223
Haraya gedirsiniz? ....................................................225
Xanım Rəsuli və digərləri..........................................225
Xatirə məzarı...............................................................227
Şəhidin bacısı ............................................................227
Son söz .......................................................................230
Şəkillər.........................................................................232
Şüar divarı .................................................................236